İnsan Alveri və Mütəşəkkil Cinayətə Qarşı Mübarizə Layihəsi – Faza 2 (THB/IFS/2)

# İNSAN ALVERİ QURBANLARINA XİDMƏT EDƏN SIĞINACAQLARIN VƏ YARDIM MƏRKƏZLƏRİNİN İDARƏ OLUNMASI ÜZRƏ VƏSAİT

May 2017

Avropa İttifaqının maliyyələşdirdiyi və Miqrasiya Siyasətinin Hazırlanması üzrə Beynəlxalq Mərkəzin (İCMPD) rəhbərliyi ilə beynəlxalq konsorsiumun icra etdiyi layihə.
Layihənin tərəfdaşları:

**İnsan Alveri və Mütəşəkkil Cinayətə Qarşı Mübarizə Layihəsi – Faza 2 (THB/IFS/2)**

# İNSAN ALVERİ QURBANLARINA XİDMƏT EDƏN SIĞINACAQLARIN VƏ YARDIM MƏRKƏZLƏRİNİN İDARƏ OLUNMASI ÜZRƏ VƏSAİT

May 2017

Bu vəsait Avropa İttifaqının maliyyə dəstəyi və Ekspertiz Frans (EF) və İspaniya İnzibati və İctimai Siyasət üzrə Beynəlxalq Fond (FİİAPP) ilə birgə əməkdaşlıq çərçivəsində Miqrasiya Siyasəti Hazırlanması üzrə Beynəlxalq Mərkəz (MSHBM) tərəfindən həyata keçirilən İnsan Alveri və Mütəşəkkil Cinayətə Qarşı Mübarizə – Faza 2 (THB/IFS/2) Layihəsi çərçivəsində hazırlanmışdır.

Bu vəsait Avropa İttifaqının yardımı ilə hazırlanıb. Vəsaitin məzmunu yalnız onun müəllifinə məxsusdur və Avropa İttifaqı və ya MSHBM-nin nəzər nöqtəsini əks etdirmir.

Müəllif: Elvira Mruçkovska

Vəsaitdə “Təmiz Dünya” təşkilatının təqdim etdiyi sənəd nümunələrindən istifadə olunmuşdur.

**Miqrasiya Siyasəti Hazırlanması üzrə Beynəlxalq Mərkəz (MSHBM)**
**International Centre for Migration Policy Development (İCMPD)**
Gonzagagasse 1, 5ci mərtəbə A-1010 Vyana, Avstria
www.fightagainsttrafficking.org
www.icmpd.org

# MÜNDƏRİCAT


ÖN SÖZ 05

ƏSAS ANLAYIŞLAR 09

1 SIĞINACAQ/YARDIM MƏRKƏZİ İNSAN ALVERİ QURBANLARINA MİLLİ VƏ REGİONAL SƏVİYYƏDƏ YARDIM GÖSTƏRİLMƏSİ VƏ ONLARIN İSTİQAMƏTLƏNDİRİLMƏSİ SİSTEMİNİN MÜHÜM TƏRKİB HİSSƏSİDİR 13

1.1 Qurbanların “sığınacaq” və ya “müvəqqəti yaşayış yeri” xidmətləri almaq imkanlarının olması barədə məlumatlandırılması 14

1.2 İnsan alverı qurbanlarına keyfıyyətlı yardım göstərılməsı məqsədılə sığınacaqlar/mərkəzlər üçün qoyulan əsas tələblər və onların ımkanları 14

1.3 Sığınacağın təhlükəsizliyi 16

1.4 Sığınacağın binası 17

2 İNSAN ALVERİ QURBANLARI ÜÇÜN REİNTEQRASİYA XİDMƏTLƏRİ SİSTEMİ 19

2.1 İnsan alverindən zərər çəkmiş şəxslərin identifikasiyası 20

2.2 İlkin görüşün təşkili 25

2.3 Ehtiyacın qiymətləndirilməsi və yardım göstərilməsi planı. Keys-menecment 32

2.4 İnsan alverindən zərər çəkmiş qadınların xüsusi ehtiyacları 37

2.5 İnsan alverindən zərər çəkmiş kişilərin xüsusi ehtiyacları 37

2.6 İnsan alverinin qurbanı olan uşaqlara göstərilən yardımın xüsusiyyətləri 38

2.7 İnsan alverindən zərərçəkmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin reinteqrasiyası 39

3 SIĞINACAĞIN İŞÇİ HEYƏTİ 41

3.1 Sığınacağın əsas işçi heyəti və onların funksiyaları 41

3.2 Superviziya idarəetmə aləti kimi 44

3.3 Peşəkar yanma (tükənmə) sindromu 47

4 İNSAN ALVERİ QURBANLARINA YARDIM SİSTEMİNDƏ İSTİQAMƏTLƏNDİRMƏ VƏ QARŞILIQLI FƏALİYYƏT MEXANİZMİ 51

ƏDƏBİYYAT 57

ƏLAVƏLƏR 59

# ÖN SÖZ

İnsan alveri müasir dünyada insan hüquqlarının pozulması problemi kimi qəbul edilməkdədir. Dünya birliyinin insan alverinə qarşı mübarizəyə böyük diqqət ayırmasına baxmayaraq, bu gün də bu sahədə həm milli və həm də beynəlxalq xarakterli çoxsaylı hüquq pozuntularının şahidi oluruq. Qlobal miqyasda sürətlə cərəyan edən hadisələr, iqtisadi qeyri-stabillik, hərbi münaqişələr və s. insanların iş, təhlükəsiz yaşayış yeri və yaşamaq üçün vasitələr əldə etməsi məqsədilə digər ölkələrə axın etməsinə səbəb olmuş, miqrasiya prosesini gücləndirmişdir.

Azərbaycan insan alverinə qarşı mübarizənin bütün istiqamətləri - problemin qarşısının alınması, insan alveri qurbanlarının müəyyən edilməsi və onlara yardım göstərilməsi, cinayətin təqibi, bütün aidiyyəti orqan və təşkilatların səmərəli qarşılıqlı əməkdaşlığına nail olunması üzrə siyasətin formalaşmasında indiyə qədər olduqca əhəmiyyətli addımlar atmışdır.

Müvafiq sahədə **milli qanunvericilik** beynəlxalq hüququn normalarına əsaslanır ki, bu da insan alveri ilə mübarizədə mükəmməl *Milli İstiqamətləndirmə Mexanizminin* formalaşmasına imkan verir.

İnsan alverinə qarşı mübarizə sahəsində indiyə qədər bir sıra vacib qanunvericilik aktları qəbul edilmişdir.

- Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsi yaradılmış və onun əsasnaməsi təsdiq edilmişdir (04.06.2004);
- "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edilmiş (28.06.2005) və Azərbaycan Respublikasının Prezidenti qanunun tətbiqi barədə Fərman imzalamışdır(04.08.2005);
- «İnsan alverinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr edilməsi barədə qanun qəbul edilmiş (30.12.2005), Azərbaycan Respublikasının Prezidenti qanunun tətbiqi barədə müvafiq Fərman imzalamışdır (23.01.06);
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə "İnsan alveri qurbanları üçün xüsusi müəssisələrin yaradılması, maliyyələşdirilməsi, fəaliyyəti, habelə onların fəaliyyətinə nəzarət Qaydaları" təsdiq edilmişdir (09.11.2005);
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə "İnsan alveri qurbanlarına kömək Fondu haqqında Əsasnamə" təsdiq edilmişdir (12.01.2006);
- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin müvafiq əmri ilə "İnsan alveri qurbanları üçün müvəqqəti sığınacaq haqqında" Nizamnamə təsdiq edilmişdir (17.02.2006);
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə "İnsan alveri qurbanlarının sosial reabilitasiyasının həyata keçirilməsi Qaydaları" təsdiq edilmiş (06.03.2006).

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində cinayətlərin bu növü ilə mübarizəni tənzimləyən müddəalar nəzərdə tutulmuş, cinayətin potensial subyektləri hesab edilən uşaq və qadınların hüquqlarının və azadlıqlarının qorunması istiqamətində bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdir. Məsələn, maddə 106 (köləlik), maddə 137 (insan orqanları və toxumalarının alqı-satqısı), maddə 144-1, (insan alveri), maddə 144-2 (məcburi əmək), maddə 150-1 (sənədsiz sərnişin daşınması), maddə 171 (yetkinlik yaşına çatmayanları fahişəliyə və ya əxlaqsız əməllərə cəlb etmə), maddə 244 (əxlaqsızlıq yuvaları saxlama), maddə 316-1 (insan alverindən zərər çəkmiş şəxs haqqında məxfi məlumatları yayma).

İnsan alveri qurbanlarına yardım göstərilməsinin effektiv sistemi hər birinin öz səlahiyyətləri daxilində insan alveri qurbanlarına zamanında və keyfiyyətli yardımla təmin edən **səlahiyyətli dövlət orqanları və təşkilatların şəbəkəsindən** ibarətdir. Bu sistemin əsas məqsədi insanın cəmiyyətə qayıtması və həyati vacib imkanlarının bərpa edilməsidir. İnsan alveri qurbanlarına sosial və digər xidmətlərin göstərilməsi onların fərdi ehtiyaclarına əsasən həyata keçirilir.

İnsan alveri qurbanlarının xeyli qisminin müvəqqəti sığınacaq kimi vacib bir yardıma ehtiyacı yaranır. **Sığınacaq** – bu elə bir yerdir ki, burada zorakılığın müxtəlif növlərinə, hədəyə, məcburiyyətə, istismara məruz qalmış insanların təhlükəsizliyi təmin edilir və onlara ilkin və son dərəcə vacib köməklik göstərilir.

İnsan Alverı və Mütəşəkkıl Cınayətə Qarşı Mübarizə, Faza 2 (THB/IFS/2) layihəsinin fəaliyyəti çərçivəsində dövlət və qeyri-hökumət təşkilatlarının milli təcrübəsini öyrənərək, həmçinin insan alveri qurbanlarına yardım sahəsində beynəlxalq təcrübənin ən yaxşı nümunələrindən istifadə edərək, *insan alveri qurbanlarına xidmət edən sığınacaq və yardım mərkəzlərinin idarə olunmasına dair hazırlanmış olan bu vəsaiti* təqdim edirik. Bu nəşr təkcə insan alveri qurbanlarına yardım göstərilməsi sahəsində fəaliyyət göstərən orqan və təşkilatlar tərəfindən deyil, həmçinin sosial sahə üçün mütəxəssislər hazırlayan təhsil müəssisələrinin tələbələri və müəllimləri tərəfindən istifadə edilə bilər və Azərbaycanda insan alverindən zərər çəkən şəxslərə yardım göstərən mərkəz və sığınacaqların əsas bələdçi vəsaiti ola bilər.

**Vəsaitin məqsədi –bütün hallarda çevik və hərtərəfli reaksiya göstərərək insan alveri qurbanları olan böyüklərin və uşaqların rifah halının saxlanılmasını və yüksəldilməsinə köməklik göstərməkdən ibarətdir.**

Beləliklə, bu vəsaitin **vəzifələri** kimi aşağıdakıları qeyd etmək olar:

- İnsan alverinin ehtimal olunan və ya potensial qurbanları olan böyüklər və ya uşaqlarla təmasda olan bütün strukturların məlumatlılıq dərəcəsinin artırılması;
- Həm sığınacağın əməkdaşları, həm də insan alveri qurbanlarına yardım göstərən və onların hüquqlarını müdafiə edən bütün orqan və təşkilatların əməkdaşlarının komanda işində “sığınacaq” və ya “müvəqqəti yaşayış yeri ilə təminat” sosial xidmətinin inkişaf etdirilməsi;
- İnsan alverindən zərər çəkmiş şəxslər, onların ailələri və risk altında olan şəxslərlə işləyən müxtəlif orqan və təşkilatlar arasında məlumat mübadiləsi prosesinin asanlaşdırılması;

- İnsan alveri faktı barədə siqnal alan və insan alveri qurbanlarına "sığınacaq" və ya "müvəqqəti yaşayış sahəsi ilə təmin olunma" xidməti göstərən bütün orqan və təşkilatların insan alveri ilə bağlı fəaliyyətin təşkilində vahid yanaşmanın təmin edilməsi.

*Bu vəsaitin hazırlanmasında köməklik göstərən Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, "Təmiz Dünya", "Qadın təşəbbüsü və sosial problemlərin həllinə kömək" , "Azərbaycan Uşaqlar Birliyi" və "Təmas" ictimai birliklərinə öz dərin minnətdarlığımızı bildiririk. Bu insan alverinə qarşı mübarizə sahəsində və bəşəriyyətin maraqları naminə dövlət orqanları, ictimai və beynəlxalq təşkilatların birgə səylərinin daha bir uğurlu nümunəsidir.*

# ƏSAS ANLAYIŞLAR

| | |
|---|---|
| **Borc əsarəti** | insanın faktiki və ya uydurma borclarının geri ödənilməsini qeyri-mümkün edən şəraiti yaratmaqla onu köləlikdə saxlayan bir sistem[1] |
| **Cinsi istismar** | şəxsdən fahişəlik, cinsi köləlik və ya pornoqrafik materialların istehsalı üçün istifadə edilməsi, digər şəxslərin cinsi istismarından mənfəət əldə edilməsi |
| **İnsan alveri** | zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcburetmə vasitələri ilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla insanların istismar məqsədilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, təhvil verilməsi və ya qəbul edilməsi (uşağın istismar məqsədilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi, bu maddədə göstərilən üsullardan istifadə olunmasa da, insan alveri hesab edilir)[2] |
| **İnsan alverçisi** | insan alveri ilə əlaqədar hər hansı fəaliyyəti həyata keçirən fiziki və ya hüquqi şəxs |
| **İnsan alverindən zərər çəkmiş şəxsin müəyyən edilməsi** | müəyyən bir şəxsin insan alverindən zərər çəkmiş olmasını müəyyən edən məlumatların əldə edilməsi prosesi |
| **İnsan alverinin qurbanı** | insan alverindən zərər çəkmiş, yaxud zərər çəkməsi ehtimal olunan şəxs |
| **İnsan alveri qurbanlarının Milli İstiqamətləndirmə Mexanizmi** | milli səviyyədə dövlət orqanlarının vətəndaş cəmiyyəti institutları və insan alveri qurbanlarının müdafiəsi ilə bağlı fəaliyyətlə məşğul olan digər subyektlərlə strateji tərəfdaşlıq şəklində öz səylərini koordinasiya edərək insan alveri qurbanlarının hüquqlarına riayət edilməsinin təşviqi və hüquqlarının qorunması sahəsində öz öhdəliklərinin yerinə yetirilməsini təmin edən əməkdaşlıq strukturu[3] |

1 "Köləliyin, qul ticarətinin və köləliyə oxşar institutların və adətlərin ləğv olunması haqqında" BMT-nin Əlavə Konvensiyası (1956), http://www.genprosecutor.gov.az/files/file/Koleliyin_qul_ticaretinin_legv_olunmasi_AR_qanunu.doc

2 "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu http://www.mia.gov.az/?preview/az/content/336/

3 "Transmilli İstiqamətləndirmə Mexanizminin yaradılması üzrə rəhbərlik", MSHBM (ICMPD), Vyana, 2009. (İngilis dilində). http://www.icmpd.org/our-work/capacity-building/trafficking-in-human-beings/publications/guidelines-for-the-development-of-a-transnational-referral-mechanism-for-trafficked-persons-south-eastern-europe/
ATƏT-in demokratik təsisatlar və insan hüquqları üzrə bürosu, İnsan alverinin qurbanlarının milli səviyyədə istiqamətləndirmə mexanizmləri: İnsan alveri qurbanlarının hüquqlarının müdafiəsi üzrə səylərin birləşdirilməsi, Təlimatlar, Varşava, 2004, səh. 19-21 (İngilis dilində).

| | |
|---|---|
| **İnsan alveri risk qrupu** | insan alverinin obyekti olmaq ehtimalının böyük olduğu insan qrupu (bax: **insan alverinin potensial qurbanları**) |
| **İnsan nəqli** | həm ölkə daxilində, həm də ölkə sərhədlərindən kənara insanların daşınması ilə onların yerinin dəyişməsi |
| **İnsanın gizlədilməsi** | insanın hər hansı bir örtülü yerdə, nəqliyyat vasitəsində, müəyyən olunmuş digər yerlərdə saxlanılması; ona saxta sənədlərin verilməsi; xarici görünüşünün dəyişdirilməsi və s. |
| **İnsanın təhvil alınması (qəbul edilməsi)** | insan üzərində nəzarətin bir şəxsdən başqa şəxsə ötürülməsi aktı |
| **İnsanların istismarı** | məcburi əmək (xidmət), cinsi istismar, köləlik, köləliyə bənzər adətlər və onlardan irəli gələn əsarət vəziyyəti, insan orqanlarının və toxumalarının qanunsuz çıxarılması, şəxs üzərində qanunsuz biotibbi tədqiqatların aparılması, qadının surroqat ana kimi istifadə edilməsi, qanunsuz, o cümlədən cinayətkar fəaliyyətə cəlb etmə, habelə insanların digər formada istismar edilməsi (insan alveri Azərbaycan Respublikasının qanununda göstərilən üsullarla törədildikdə insan alveri qurbanının istismar olunmasına dair razılıq verməsi nəzərə alınmır)[4] |
| **İşə cəlb etmə** | müəyyən bir fəaliyyət sahəsində iştiraka dəvət və ya cəlb edilməklə bilavasitə işəgötürmə ilə əlaqədar razılaşma |
| **Köləlik** | şəxs üzərində mülkiyyət hüququna xas olan səlahiyyətlərin tam və ya qismən həyata keçirilməsi[5] |
| **Köləliyə bənzər adətlər** | 1956-cı il 30 aprel tarixli “Köləliyin, qul ticarətinin və köləliyə oxşar təsisatların və adətlərin ləğv olunması haqqında Əlavə Konvensiya”nın 1-ci maddəsində göstərilmiş təsisat və adətlər |
| **Miqrantların qaçaqmalçılığı (qeyri-qanuni idxalı)** | birbaşa və ya dolayısı ilə hər-hansı maliyyə və ya digər maddi mənfəət əldə etmək məqsədilə ölkəyə həmin ölkənin vətəndaşı olmayan və ya daimi olaraq həmin ölkədə yaşamayan şəxslərin qeyri-qanuni yolla istənilən digər dövlətlərdən gətirilməsi |
| **Məcburi əmək (xidmətlər)** | qanunsuz olaraq şəxsin müəyyən işin yerinə yetirilməsinə (xidmətin göstərilməsinə) məcbur edilməsi |
| **Mənşə ölkəsi** | şəxsin miqrasiya etdiyi və ya insan alveri vəziyyətinə düşdüyü vaxta qədər yaşadığı ölkə |
| **Posttravmatik stress pozuntusu** | hər bir kəsdə psixi pozuntulara səbəb ola biləcək travmatik stressə qarşı reaksiya |
| **Stiqmatizasiya** | müəyyən həssas əhali qruplarına mənsub insanlara qarşı təzahür olunan “damğalanma” sosial-psixoloji davranış növü |
| **Təyinat ölkəsi** | şəxsin miqrasiya etdikdən və ya insan alveri vəziyyətinə düşdükdən sonra yaşadığı ölkə |

4 “İnsan alverinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunu http://www.mia.gov.az/?preview/az/content/336/

5 Eyni istinad.

| | |
|---|---|
| **Tranzit ölkə** | marşrutun təchizatçı ölkədən təyinat ölkəsinə gedərkən keçdiyi ölkə və ya ölkələr; çox vaxt bu ölkəyə giriş və orada qalmaq üçün sənədlərin alınması, nikah sənədlərinin və ya vizanın alınması üçün həyata keçirilir |
| **Uşaq** | hər bir insan 18 yaşına çatanadək uşaq hesab edilir, bir şərtlə ki, həmin uşaq barəsində tətbiq edilən qanuna görə o, yetkinlik yaşına daha əvvəl çatmış olmasın[6] |
| **Uşaq istismarı** | uşaqları qanunazidd və cinayət əməllərinə cəlb etmək (həmçinin narkotik vasitələrin istehsalı və ya ticarəti və dilənçilik); onların silahlı münaqişələrdə istifadəsi; milli qanunvericilik və hökumət tərəfindən müəyyən edilmiş qaydalara əsasən öz xarakterinə və iş şəraitinə görə uşaqların sağlamlığına və təhlükəsizliyinə zərərli ola bilən işlər; qanunvericiliklə işə qəbul edilmə üçün lazım olan minimum yaş həddinin olmamasına baxmayaraq, uşaqların həmin işə qəbul və ya cəlb edilməsi; istismarın digər növləri və qanunsuz övladlığa götürmə. |
| **Uşaq əməyi[7]** | xarakterinə və ya yerinə yetirildiyi şəraitə görə psixoloji, fiziki, sosial və ya mənəvi aspektlərlə əlaqəli uşaqlara təhlükə yaradacaq və ziyan vura biləcək ödənilən və ödənilməyən iş və/və ya fəaliyyət (həmçinin xidmətlər) |
| **Uşaq fahişəliyi[8]** | pul və ya istənilən növ mükafatın və ya ödənişin edildiyi, yaxud vəd verildiyi və bu cür mükafatın, vədin və ya ödənişin uşağa, yaxud üçüncü şəxsə edilməsi yaxud edilməməsindən asılı olmayaraq cinsi xarakterli fəaliyyətlər üçün uşaqdan istifadə edilməsi faktı |
| **Zəiflik vəziyyətindən sui istifadə** | şəxsin müvafiq sənədləri olmadan qeyri-qanuni yolla ölkəyə daxil olması; hamiləlik və ya hər hansı bir maddədən asılılığı da daxil olmaqla istənilən fiziki və psixi nasazlıq və ya əlillik; uşaq olması, xəstəlik, fiziki və ya psixi imkanlarının çatışmazlığı ilə əlaqədar olaraq qərar qəbul etmək imkanının olmaması; vəd və ya şəxsin üzərində hakimlik edən şəxslərə pul məbləğinin verilməsi və ya onların digər imtiyazlarla təmin edilməsi; aztəminatlı olan; və digər müvafiq amillər üzündən düşdüyü həssas vəziyyətdən digər şəxslərin öz maraqları üçün istifadə etməsi[9] |

6 BMT-nin «Uşaq hüquqları haqqında» Konvensiyası: https://www.unicef.org/magic/media/documents/CRC_azeri_language_version.pdf

7 BƏT-in "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" Konvensiyası, №182. 1999, http://www.e-qanun.az/framework/5412

8 Uşaq hüquqları haqqında Konvensiyanın uşaqlarla ticarət, uşaq fahişəliyi, uşaq pornoqrafiyası ilə əlaqədar Fakultativ Protokolu, 2000 http://www.genprosecutor.gov.az/files/file/Ushaq_huquqlari_barede_BMT_AR_qanunu.doc

9 İnsan alveri: potensial və güman olunan qurbanların müəyyən edilməsi. İcma-əsaslı polis yanaşması (ATƏT 2011) (İngilis dilində) http://www.osce.org/secretariat/78849?download=true

# 1 SIĞINACAQ/YARDIM MƏRKƏZİ İNSAN ALVERİ QURBANLARINA MİLLİ VƏ REGİONAL SƏVİYYƏDƏ YARDIM GÖSTƏRİLMƏSİ VƏ ONLARIN İSTİQAMƏTLƏNDİRİLMƏSİ SİSTEMİNİN MÜHÜM TƏRKİB HİSSƏSİDİR

**İnsan alveri - təhlükəsiz yaşamaq hüququ, azadlıq, şəxsi toxunulmazlıq hüququ, sosial təminat hüququ, işgəncələrə, digər qəddar və alçaldıcı davranışa məruz qalmamaq hüququ, istirahət, əmək, hörmət hüququ, hərəkət azadlığı kimi insan hüquqlarının və əsas azadlıqlarının pozulmasının ən sərt formalarından biridir.**

Kölə vəziyyətinə düşmüş şəxs tamamilə başqa birinin əmlakına çevrilir. Qurbanın reinteqrasiyasının ilkin mərhələsində məkan seçiminin əsas meyarı onun təhlükəsizliyidır. Normal həyat şəraitinə qayıtması üçün zərər çəkmiş şəxsin kənardan dəstək alması və ona hörmətlə yanaşılması vacibdir.

Amma çox təəssüf ki, hətta doğma və yaxınlar artıq sual verməkdən, baş vermiş hadisəyə görə zərər çəkmiş şəxsi qınamaqdan çəkinmirlər. Məhz buna görə **sığınacaq insan alveri qurbanlarına yardım göstərilməsi sisteminin mühüm tərkib hissəsi hesab edilir**.

İnsan alveri qurbanlarına kompleks yardım xidmətlərinin göstərilməsi üçün milli istiqamətləndirmə sisteminin formalaşdırılması mərhələsinə qədəm qoymuş ölkələr müvafiq qanunvericilik bazası və resursları da formalaşdırırlar.

Hər bir ölkədə “sığınacaq” və ya “müvəqqəti sığınacaq” xidmətləri ilkin olaraq qurbanın təhlükəsizliyini və baza ehtiyaclarının ödənilməsini təmin edən müəyyən prinsiplərə və standartlara əsaslanır.

Azərbaycan bu yolda müəyyən nəticələrə nail olmuşdur və “sığınacaq” və ya “müvəqqəti yaşama” xidmətləri göstərilməsinin həm dövlət, həm də qeyri-dövlət formalarına malikdir. Qeyd edək ki, insan alverinə qarşı mübarizə üzrə Milli Koordinator kimi Daxili İşlər Nazirliyinin bu istiqamətdə qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq imkanları, həmçinin qeyri-hökumət təşkilatlarının bazasında yaranaraq regionlarda fəaliyyət göstərən sığınacaqların maliyyələşdirilməsi imkanları qanunvericilikdə müəyyən edilmişdir. Ölkənin bütün sığınacaqlarının qarşılıqlı fəaliyyəti və əməkdaşlığının təmin edilməsi insan alveri qurbanlarının Milli İstiqamətləndirmə Mexanizminin əsas şərtlərindən biridir.

## 1.1 Qurbanların “sığınacaq” və ya “müvəqqəti yaşayış yeri” xidmətləri almaq imkanlarının olması barədə məlumatlandırılması

**Zərərçəkmiş şəxslərin “sığınacaq” və ya “müvəqqəti yaşayış yeri” xidmətlərinin təşkili ilə bağlı məlumatlandırılması yardım göstərilməsinin zəruri prosedurudur. Bu prosesdə təkcə ixtisaslaşdırılmış qeyri-hökumət təşkilatları və hüquq-mühafizə orqanları deyil, həmçinin birbaşa tibbi xidmət, təhsil xidmətləri kimi fəaliyyəti həyata keçirən, lakin insan alverinə qarşı mübarizəyə dolayısı ilə cəlb edilmiş dövlət strukturları da fəal iştirak etməlidir.**

Çox böyük ehtimalla, Azərbaycan sərhəd keçid məntəqəsində geri dönən insan alverinin qurbanı olan şəxs sığınacaqlara müraciət etmir, çünki geri qayıdarkən onu nələr gözlədiyini çox yaxşı başa düşə bilmir. Lakin o, sığınacağa müraciət etmək imkanının olması barədə **məlumatlı** olarsa (telefon, xidmətin təsviri, məxfilik) mütləq ilk zərurət yaranan kimi bu imkandan yararlanacaqdır. Ona görə də kiçik bukletlərin paylanılması və ya nəqliyyat qovşaqlarında (aeroport, avtobus və dəmir yolu vağzalları), poliklinika və xəstəxanalarda, məşğulluq mərkəzləri və digər administrativ binalara üzərində “qaynar xətt” xidmətinin telefon nömrələri qeyd edilmiş bannerlərin yerləşdirilməsi lazım olan anda yardım üçün müraciət edilməsinə imkan yaradır.

Cinayətkarların həbsxanada olduğu halda zərər çəkmiş şəxs bu cür xidmətlərdən istifadə edib etməmək barədə seçim etmək hüququna malikdir. Lakin zərərçəkmiş şəxsin həyatı üçün təhlükə yaranarsa qurbanın mənşə ölkəsindən asılı olmayaraq, dövlət mütləq şəkildə onu xüsusi hazırlıqlı personala malik təhlükəsiz qalma yeri, sığınacaqla təmin etməlidir. Sığınacağın yerləşdiyi yer barədə məlumat ictimaiyyət üçün həmişə gizli saxlanılmalıdır.

“Sığınacaq” və ya “müvəqqəti yaşayış yeri” xidmətlərinin göstərilməsi imkanının olması barədə məlumat risk qruplarının, həmçinin insan alverinin ehtimal olunan qurbanlarının müəyyən edə biləcək mütəxəssislərin məlumatlandırılması tədbirlərinə mütləq daxil edilməlidir. Belə yardıma ehtiyac duyulduğu təqdirdə, orqan və ya təşkilat sığınacağın rəhbərliyi ilə ilkin razılaşmaya əsasən zərər çəkmiş şəxsi sığınacağa yönləndirir.

## 1.2 İnsan alveri qurbanlarına keyfiyyətli yardım göstərilməsı məqsədilə sığınacaqlar/mərkəzlər üçün qoyulan əsas tələblər və onların imkanları

### *İnsan alveri qurbanlarına “sığınacaq” və ya “müvəqqəti yaşayış yeri” xidmətləri göstərən sığınacaq/mərkəz necə olmalıdır*

Beynəlxalq təcrübədə insan alveri qurbanları üçün sığınacaqların vahid formatı olmasa da, onların təşkilinin əsas prinsipləri oxşardır. İxtisaslaşdırılmış mərkəzlər “sığınacaq” xidmətlərinin göstərilməsi məqsədilə mövcud imkanlardan asılı olaraq *müxtəlif formada* fəaliyyət göstərə bilərlər. Bunlara misal olaraq müvafiq sahədə təlim keçmiş işçi heyətinin olması, saxlanma üçün resursların olması, bu xidmətə ölkədə tələbin olması və s. göstərmək olar.

Bütün sığınacaqlar öz imkanlarına uyğun olaraq insan alverindən zərər çəkmiş şəxslərin bu və ya digər kateqoriyasına xidmət göstərmək hüququna malikdir (müstəsna olaraq qadınlara xidmət göstərmək, müstəsna olaraq uşaqlara xidmət göstərmək, müstəsna olaraq kişilərə xidmət göstərmək və ya yalnız uşaqlı qadınlara xidmət göstərmək). Bəzi hallarda qarışıq qruplara yardım göstərən, nisbətən aralı coğrafi zonada fəaliyyət göstərən regional sığınacaqlar da mövcuddur.

Bu sığınacaqlar çox da böyük olmayan (məsələn, bir neçə otaqlı mənzil) və ya bir neçə mərtəbəli ayrıca tikili ola bilər. Sığınacaqların xəstəxanaların şöbələri və dini icmaların bazasında yaradılması təcrübəsi də mövcuddur. Bəzi hallarda sığınacaqlar yalnız insan alveri qurbanlarına deyil, həmçinin məişət zorakılığı kimi digər cinayətin qurbanlarına da yardım göstərə bilər. Bu halda digər müştərilərin həyatına təhlükə yaratmamaq üçün sığınacaqda bir sıra əlavə tədbirlər həyata keçirilməlidir. İnsan alverinin qurbanı olan uşaqları həm uşaqlar üçün xüsusi sığınacaqlara, həm də lazımi təhlükəsizlik tədbirləri görülmüş reabilitasiya mərkəzlərinə yerləşdirmək mümkündür.

**Sığınacaqların təşkilinin ümumi qaydaları aşağıdakı müddəaları əhatə etməlidir:**

- Sığınacağın bütün kliyentləri üçün təhlükəsiz müvəqqəti yaşayış şəraiti;
- Sığınacağın əməkdaşları üçün təhlükəsiz iş şəraiti;
- Sığınacağın fəaliyyət istiqamətləri üzrə xüsusi təlim keçmiş heyətinin olması;
- Ehtiyacların qiymətləndirilməsi və fərdi reabilitasiya planına əsasən insan alveri qurbanlarına yardım göstərilməsinə kompleks yanaşma;
- Əhəmiyyətli rola malik tərəfdaşlar (təşkilatlar) arasında əməkdaşlıq yolu ilə insan alveri qurbanlarına köməklik göstərilməsinin təşviq edilməsi;
- İnsan alveri qurbanının bərpa edilməsi və ona yardım göstərilməsi prosesinin mərkəzində insan amilinin dayanması.

### *Kimlər və hansı qaydada insan alveri qurbanlarını sığınacağa yönləndirlər*

İnsan alveri qurbanlarının dövlət qurumlarının mütəxəssisləri tərəfindən ilkin müəyyənləşdirilməsi zamanı zərər çəkmiş hesab edilən şəxsin müvəqqəti yerləşdirilməsi məqsədilə təcili sığınacağa ehtiyacı yarana bilər. Yadda saxlamaq lazımdır ki, Azərbaycanda insan alveri qurbanlarının istiqamətləndirilməsi üzrə Milli Koordinator Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyidir.

Səlahiyyətli orqan telefonla zərər çəkmişin qalacağı potensial yeri razılaşdırır və ilkin razılaşmaya əsasən qurbanı rəsmi olaraq sığınacağa yönləndirir. Sığınacağın mütəxəssisi (rəhbər tərəfindən səlahiyyət verilmiş şəxs), zərurət olduqda isə mühafizəçinin müşayiəti ilə zərər çəkmişi sığınacağa aparır.

Əgər insan alverindən zərər çəkmiş şəxs uşaqdırsa onda uşağın qanuni nümayəndələrinin məlumatlandırılmasına dair normalarının gözlənilməsi vacibdir, bir şərtlə ki,onların insan alveri ilə bağlı cinayətlə heç bir əlaqəsi ehtimalı olmasın.

Sığınacaqlara **yerləşdirilə bilən kateqoriyalar** sırasına aşağıdakıları aid etmək olar:

- Qurban olmuş qadınlar;
- Qurbanlar, uşaqları ilə birlikdə;
- Qurban olmuş kişilər;
- Qurban olmuş uşaqlar;
- Qurban olmuş əcnəbilər (həmçinin repatriasiya olunmaq istəyən və müvəqqəti qalmaq üçün müraciət edənlər).

Uşaqlar üçün onların öz yaşlarında və inkişaf səviyyəsində, həmçinin onunla eyni cinsə mənsub uşaqlarla eyni sığınacaqda yerləşdirilməsi əsas şərtlərdəndir.

## 1.3 Sığınacağın təhlükəsizliyi

Sığınacağın bütün sakinlərinin və əməkdaşlarının təhlükəsizliyi və sağlamlığı ən vacib məsələdir. Ünvanın anonimliyi, xarici fərqləndirici nişanlarının olmaması imkan verir ki, sığınacaq ətrafdakıların və marağı olan şəxslərin diqqətini cəlb etməsin. Sığınacaq binasının fiziki mühafizəsinin mühafizə agentliyinin nümayəndəsi tərəfindən və ya polisin "çağırış düymələri" vasitəsilə həyata keçirilməsi ideal olardı. Lakin daha vacib məsələ **sakinlərin özləri tərəfindən** təhlükəsizlik tədbirlərinə riayət edilməsidir. Onlar bu barədə yazılı şəkildə məlumatlandırılmalı və bu qaydaları qəbul etməlidirlər. [10]

**Sığınacağın sakinlərinin və işçi heyətinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə kənar şəxslərin sığınacağa daxil olması məhdudlaşdırılmalıdır!**

Digər təhlükəsizlik tədbirləri – yanğın təhlükəsizliyi standartları, elektrik enerjisi təhlükəsizliyi və binanın ümumi təhlükəsizliyidir. Əgər sığınacaq qeyri-hökumət təşkilatlarının balansındadırsa (və ya icarəyə götürülübsə), o zaman binanı digər təhlükələrdən sığorta etmək, əlçatan yerlərdə yanğın zamanı insanların təxliyə edilməsi sxemini yerləşdirmək lazımdır.

Sığınacaqda yeni sakinin tam müayinə olunana qədər qalması üçün **müvəqqəti qalma otağı** (izolyator) olmalıdır. Bu otaqda ayrıca sanitar qovşağı olmalıdır ki, onun digər sakinlərlə əlaqəsi olmasın. Həmin şəxsdə infeksion və ya digər yoluxucu xəstəliklərin olub-olmamasının müəyyən edilməsi müddətindən asılı olaraq o, bu otaqda bir gündən bir həftəyə qədər qala bilər.

10 5-ci əlavəyə bax: Təhlükəsizlik Qaydaları barədə razılıq

Təhlükəsizlik tədbirlərinin mühüm hissəsi **personalın təhlükəsiz davranışıdır.** Buraya aşağıdakılar daxildir.

- Sığınacağın təhlükəsizlik qaydaları ilə tanışlıq və işçi heyətinin bütün üzvləri ilə bu qaydalara riayət etmək barədə yazılı müqavilə bağlamaq;
- Sığınacaqda təhlükəsiz vəziyyətin mövcudluğu barədə işçi heyətinin bütün üzvləri arasında müntəzəm məlumat mübadiləsi;
- Sığınacağın yeni sakinləri ilə əlaqədar müntəzəm risk qiymətləndirmələrinin həyata keçirilməsi;
- Sığınacağın sakinləri və əməkdaşları tərəfindən şəxsi məlumatlar bazasına çıxış qaydalarına riayət edilməsi;
- İşçi heyətin ləqəbdən (iş adından) istifadə etmə imkanının olması;
- Sığınacaq xidmətləri sisteminin məlumat bazasına giriş və çıxışın təhlükəsiz alqoritmlərinə riayət edilməsi;
- Sığınacağın sakinləri ilə iş zamanı məxfiliklə bağlı təlimatın yaradılması və ona əməl edilməsi.

## 1.4 Sığınacağın binası

Sığınacaqda gecə-gündüz qalma xidməti binaya aid müəyyən standartların olmasını tələb edir.

Sığınacağın bütün ərazisini məhdud giriş zonası və ümumi istifadə zonasına ayırmaq lazımdır.

***Ümumi istifadə zonasına daxildir:*** mətbəx, yeməkxana, vanna otaqları, camaşırxana və sanitar qovşağı, istirahət və əyləncə üçün ümumi yaşayış sahəsi, oyun otaqları da daxil olmaqla, qrup görüşləri və qrup fəaliyyətinin digər növləri üçün sahələr.

***Məhdud giriş zonasına daxildir:*** yataq otaqları (2-6 nəfərlik, həmçinin ayrıca ana və uşaq üçün), məsləhət yardımı üçün otaqlar, tibbi müayinə və manipulyasiya üçün otaqlar (sığınacaqda tibbi personal olduğu təqdirdə), həmçinin sığınacağın işçi heyəti üçün inzibati otaqlar.Sakinlərin dərman preparatlarına əlçatmazlığını təmin etmək üçün işçi heyətin sığınacaqda olmadığı müddətdə tibb otaqları qıfıllanmalıdır.

**Uşaqlar üçün sığınacağın** binası xüsusi diqqət tələb edir. Uşaqlar üçün sığınacaqda həmçinin yataq otaqlarından başqa müvafiq avadanlıqlarla təchiz edilmiş oyun və təhsil fəaliyyəti ilə məşğul olmaq üçün otaqlar olmalıdır.

Uşaqların oyun və əyləncə ilə bağlı fərqli ehtiyaclarını nəzərə alaraq, sığınacaqda idman məşğələlərinin və oyunların keçirilməsi üçün qapalı həyətin olması müsbət hal hesab edilir.

Həmçinin sığınacaqlarda uşaqlar üçün elektrik şəbəkələrinə, elektrik cihazlarına, ərzaq və məişət kimyası məhsullarına, pəncərə oyuqlarına, eyvanlara və dərman preparatlarına münasibətdə xüsusi təhlükəsizlik tədbirləri həyata keçirilməlidir.

Böyüklər sığınacağa qəbul olunduqda qəbul qaydaları ilə tanış olaraq müqavilə imzalayırlar. Sığınacaqda uşaqlar üçün davranış qaydaları oyun formatında təsvir edilərək otaqların qapılarında yerləşdirilə bilər.

# 2 İNSAN ALVERİ QURBANLARI ÜÇÜN REİNTEQRASİYA XİDMƏTLƏRİ SİSTEMİ

“Sığınacaq” və ya “müvəqqəti yaşayış yeri” xidməti kompleks xarakter daşıyır. İnsan alveri qurbanlarının reinteqrasiyasını ən yaxşı şəkildə təşkil etmək üçün qurbanlarla işin baza prinsiplərini müəyyən etmək lazımdır.

İşçi heyəti ilk növbədə insan alveri problemi, onun insanın davranışına, fiziki və psixi sağlamlığına təsiri barədə kifayət qədər məlumata malik olmalıdır. Məhz buna görə **işçi heyətinin təlimi** mütəxəssislərin seçilməsinin mühüm tərkib hissəsidir və icrası məcburi xarakterə malikdir.

İşçi heyətinin mühüm davranış qaydaları aşağıdakılardır:

- **Qınamadan uzaq olmaq**

İnsan alverindən zərər çəkmiş şəxsin düşdüyü halın bütün səbəblərini və nəticələrini dərk etmək qeyri-mümkündür. İşçi heyəti daim qurbanlara *qayğı, diqqət və qınaqdan uzaq münasibət* göstərməyə hazır olmalıdır. Yalnız fiziki deyil, həmçinin emosional-psixoloji təhlükəsizlik atmosferinin yaradılması müştərilərin tezliklə bərpasına kömək edir.

- **Sərhəd saxlanılması**

Kliyentlərin məcburiyyət, zorakılığın müxtəlif formaları, məhv edilmək qorxusu və digər travmatik hadisələrin yaşamış olmasının onların davranışlarına təsirini nəzərə alaraq, işçi heyəti öz emosional davranışlarına nəzarət etməli və *şəxsi sərhədləri keçməməlidir*.

- **Müsbət dəyişikliklərə istiqamətləndirmə**

Qurbanın ətrafındakı hər hansı şəxsə onun yaşadıqları, aşkar və ya gizli problemləri barədə danışmaq istəyi heç də hər zaman ona müsbət enerji vermir. Sığınacağın işçi heyəti “idarə olunan” müdaxilə qaydalarına əməl etməlidir. Belə ki, uzun “müalicəvi” söhbətlər *yalnız hazırlıqlı mütəxəssislər* tərəfindən aparılmalıdır. Kliyentlərlə söhbətdə və davranışda onun həyatının yaxşılaşmasına və sosial potensialının artırılmasına gətirib çıxaran müsbət dəyişikliklərə doğru orientasiya olmalıdır.

## 2.1 İnsan alverindən zərər çəkmiş şəxslərin identifikasiyası

### İdentifikasiya barədə ümumi məlumat

**İdentifikasiya -** səlahiyyətli şəxsin aldığı məlumat və onun təhlili əsasında əməllərin əlamətlərinin şəxsin "insan alveri"nin qurbanı olmasını müəyyən edən əlamətlərlə müqayisə edilməsi, bu əməllərin şəxsə qarşı törədilməsi ehtimalını qiymətləndirilməsi və şəxsin insan alverindən zərər çəkmiş şəxs olub-olmaması qənaətinə gəlməsi ilə bağlı tədbirlər kompleksidir.

Çox vaxt dövlət orqanları və qeyri-hökumət təşkilatlarının (o cümlədən beynəlxalq təşkilatların) insan alveri qurbanlarının sayı barədə statistik məlumatları fərqli olur. Bunun əsas səbəbləri kimi aşağıdakıları qeyd etmək olar:

- Müəyyənləşdirmənin müxtəlif meyarları və yanaşmaları;
- Əhalinin hakimiyyət (xüsusilə hüquq-mühafizə orqanları) və qeyri-hökumət təşkilatlarına etimadının və nəticə etibarilə əməkdaşlığın səviyyəsi;
- Müvafiq orqan və təşkilatların identifikasiya üzrə peşəkar bacarıqları.

Birinci və ikinci amillər milli strategiyaların səviyyəsindən asılıdırsa, sonuncu amil peşəkar səviyyəli mütəxəssisin, müxtəlif növ təlim, təhsil prosesində aldığı peşəkar bilik və bacarıqlarından asılıdır.

Deməli, insan alveri problemi və bu cinayətin əlamətləri (indikatorları) haqqında kifayət qədər müvafiq biliklərə, eləcə də insan alverindən zərərçəkməsi ehtimal edilən şəxslərlə kommunikativ bacarıqlara malik olmadıqda, belə şəxsi aşkar etmək demək olar ki, qeyri-mümkündür. Məhz buna görə statistik məlumatlar həqiqi sayı əks etdirmir.

İnsan alveri cinayətinin unikallığı ondan ibarətdir ki, əksər hallarda şəxsin zərərçəkmiş olmasını sübut etmək üçün müvafiq şərtlərə cavab verən bir proses təşkil edilməlidir. Bu cür cinayət qurbanlarının arasında *özünü qurban kimi identifikasiya edənlərin* (əgər qurban anlayırsa ki, ona qarşı cinayət törədilmiş və öz hüquq və azadlığının müdafiəsini tələb edir) sayı çox cüzidir. İnsan alveri qurbanı olmuş uşaqların arasında isə özünü qurban kimi identifikasiya edənlərin sayı hətta dünya təcrübəsində belə tək-tükdür.

Beynəlxalq ekspertlərin hesablamalarına əsasən insan alveri qurbanlarının əhəmiyyətli hissəsi hələ də müəyyənləşdirilməmişdir. Əsas səbəblər qismində aşağıdakıları göstərmək olar:

- Dostların, yaxınların "situasiya" barəsində öyrənəcəkləri ilə bağlı qorxu;
- "Yad" insanlardan qorxu;
- Şəxsin olduğu ölkədə həmin ölkənin qanunlarını pozduğuna görə cəzalandırılacağı qorxusu (məsələn, sərhədi qanunsuz keçmə və ya ölkədə qalma müddətini aşması);
- Cinayətkarların ondan qisas alacağı qorxusu (çox güman ki, cinayətkarlar və ya onların bir hissəsi azadlıqdadır və onlar qurbandan və ya onun yaxınlarından qisas ala bilərlər);

- Doğmaları, yaxınları və ətrafında olan digər şəxslər tərəfindən mühakimə olunmaq qorxusu;
- Öz düşdüyü vəziyyəti dərk edə bilməmək;
- Dövlət strukturlarına qarşı inamsızlıq

Bu qeyd edilən məqamlar "insan alveri" cinayəti qurbanlarının effektiv identifikasiyasının (müəyyən edilməsinin) xüsusi önəm kəsb etdiyini bir daha sübut edir. Bu şəxslərin vaxtında müəyyən edilməsi imkan yaradır ki:

- Digər şəxs və ya bir qrup şəxslərə qarşı cinayət törədilməsinin qarşısı alınsın;
- İnsan alverçiləri və cinayət fəaliyyətinin üsulları barəsində məlumat əldə edilsin;
- Cinayətkarların nəzarəti altında olan şəxslər xilas olunsun;
- İstismara məruz qalmış, fiziki və psixi zədə almış şəxslərə zəruri müdafiə və yardım göstərilsin.

İnsan alverindən zərər çəkmiş şəxslərin müəyyənləşdirilməsi proseduru Azərbaycan qanunvericiliyi ilə tənzimlənir və müəyyən xüsusiyyətlərə malikdir. "İnsan alverindən zərər çəkmiş şəxsin müəyyən edilməsi" anlayışı "İnsan alveri qurbanlarının müəyyən edilməsi Qaydaları" ilə müəyyən edilmişdir. (03.09.2009) Burada söhbət müəyyən fiziki şəxslərin insan alverindən zərər çəkməsi barədə düşünməyə əsas verən məlumatın aydınlaşdırılmasından gedir.

**İnsan alveri qurbanlarının müəyyən edilməsi qaydaları və indikatorları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 sentyabr 2009-cu il tarixli 131 nömrəli qərarı ilə tənzimlənir.**[11]

- Qaydalar Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 fevral tarixli 133 nömrəli Sərəncamına əsasən təsdiq edilmiş "*İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı (2009-2013-cü illər)"na* əsasən hazırlanmışdır və şəxsin insan alverinin qurbanı olmasını təyin etməyə imkan verən mexanizmləri müəyyən edir.
- *Qurbanların müəyyən edilməsi* insan alverindən zərər çəkmiş şəxslərin müdafiəsi üzrə tədbirlər sisteminin mühüm elementlərindən ibarət olmaqla, onların zəruri yardım almaq hüquqlarının həyata keçirilməsinə təminat verən, o cümlədən cəmiyyətə reinteqrasiyasına, normal həyat tərzinə qayıtmasına şərait yaradan, habelə yenidən qurbana çevrilmələri riskini azaldan başlıca amillərdəndir.
- Qaydaların *məqsədi* qurbanların daha asanlıqla aşkarlanması və hüquqlarının müdafiəsi üzrə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsindən, həmçinin aidiyyəti qurumların əməkdaşlarının insan alverindən zərər çəkmiş şəxslərin müəyyənləşdirilməsi ilə bağlı zəruri biliklərə yiyələnmələrini təmin etməkdən ibarətdir.

11 İnsan alveri qurbanlarının müəyyən edilməsi qaydaları barədə Nazirlər Kabinetinin 131 saylı 3 sentyabr 2009-cu il taxirli qərarı. http://www.genprosecutor.gov.az/files/file/Insan_alveri_qurbanlarinin_mue_edilmesi_qaydalari_indikator.doc

- Qaydalar həmçinin daxili işlər, dövlət təhlükəsizliyi, prokurorluq, gömrük, sərhəd və miqrasiya orqanları, respublikanın xarici ölkələrdəki diplomatik nümayəndəlikləri, habelə digər dövlət qurumları və qeyri-hökumət təşkilatları tərəfindən həyata keçirilən insan alverinə qarşı mübarizənin səmərəliliyinin artırılmasına xidmət edir.

Zərərçəkmiş şəxsin müəyyən edilməsi və ona yardım göstərilməsini insan alveri qurbanları ilə bağlı **Milli İstiqamətləndirmə Mexanizminin aşağıdakı istənilən subyekti** həyata keçirə bilər:

1. Hüquq-mühafizə orqanlarının nümayəndələri;
2. Sərhədçilər;
3. Miqrasiya xidmətinin nümayəndələri;
4. Tibb işçiləri (sahə həkimləri, ginekoloqlar, veneroloqlar, pediatrlar, narkoloqlar, infeksionistlər və s.);
5. Pedaqoqlar (məktəb psixoloqları, tərbiyəçilər, təşkilatçı pedaqoqlar, sinif rəhbərləri və müəllimlər);
6. Sosial sahənin mütəxəssisləri (məşğulluq mərkəzlərinin mütəxəssisləri, əmək və əhalinin sosial müdafiəsi üzrə mütəxəssislər və s);
7. Məqsədyönlü şəkildə bu kateqoriyadan olan şəxslər və digər hədəf qruplarla işləyən qeyri-hökumət təşkilatlarının nümayəndələri.

Bundan əlavə, insanın davranışındakı dəyişiklikləri bilavasitə müşahidə edən valideynləri, qohumları, tanışları, qonşuları, dostları, digər doğmaları da qurbanı müəyyən edə bilərlər. Bu xüsusilə **uşaqlara** aiddir (əlbəttə ki valideynlər özləri insan alveri ilə məşğul deyilsə). O da məlumdur ki, bu cinayət əhali üçün o qədər də tanış deyil. Bu səbəbdən doğma və tanışların, sosial mühitin buna münasibəti hər zaman adekvat olmur, zərər çəkmiş şəxs yardım almaq əvəzinə daha çox müxtəlif mühakimələrə məruz qalır.

## Qurbanın sığınacaq və ya yardım mərkəzlərinin sosial işçiləri tərəfindən müəyyən edilməsi

Yardımın göstərilməsi sığınacağın/mərkəzin sosial işçisi tərəfindən əsas indikatorlara əsasən təsdiq edilmiş forma üzrə şəxsin insan alveri qurbanı olmasının müəyyən edilməsi prosesindən başlayır. Əksər hallarda insan alveri qurbanlarının müəyyən edilməsində belə şəxslərə yardım göstərən təşkilatların müvafiq sahədə çoxillik fəaliyyət təcrübəsi nəzərə alınmalıdır.

İnsan alverindən zərər çəkmiş şəxsin şəxsiyyətini xarakterizə edərək, onun müəyyən edilməsi üçün dəqiq və müfəssəl əlamətlərin siyahısını müəyyən etmək çox çətindir. Hər bir şəxs bənzərsiz və fərdidir, hər kəsin öz xarakteri, temperamenti, ətrafdakı insanlarla özünəməxsus ünsiyyət tərzi vardır; həyat şəraiti, dini inancları, mənəvi dəyərləri, ailə vəziyyəti, ailəyə münasibət müxtəlifdir.

Ən başlıcası –norma anlayışı hər kəsdə fərqlidir. Elə ailələr vardır ki, orada dilənçilik və uşaq əməyindən istifadə ailə üçün norma hesab edilir. Buraya uşaqlarını dilənçilikdə istifadə edən roma

ailələrini, həmçinin spirtli içki almaq üçün öz uşaqlarını dilənməyə məcbur edən tərkibində spirtli içki aludəçisi olan ailələri aid etmək olar. Ona görə də çətin ki, bu uşaqlardan hansısa məktəbə getməməsi və ya başqa uşaqlarla oynamaması haqqında şikayət etsin, çünki öz qohumu bütün günü onu məcbur edir ki, vağzala və ya kafeyə gedərək pul dilənsin və qəpiyinə qədər gətirib ona versin.

Elə **indikatorlar və ya əlamətlər** vardır ki, onları bilərək və anlayaraq insan alverindən zərər çəkmiş şəxsi daha asanlıqla müəyyən etmək mümkündür. Bu əlamətlər daha təfərrüatlı əlavələrdə verilmişdir.[12]

## İnsan alveri qurbanlarına təsir və nəzarət üsulları

Sığınacağın zərər çəkmiş şəxsi dindirən əməkdaşı *"insan alveri"* cinayəti ilə bağlı ətraflı məlumata malik olmalıdır. Beynəlxalq təcrübədə bu cür cinayətlər *latent*, yəni gizli adlandırılır və müəyyənləşdirilməsi çox mürəkkəb hesab edilir. Ona görə də qurbanların istismarı və onlara nəzarət barədə bütün mümkün halları bilmək vacibdir.

**İnsan alveri sahəsində cinayətkarların əsas məqsədi insanların uzunmüddətli istismarı yolu ilə mənfəət əldə etməkdir. Onlar aşağıdakı müxtəlif üsullarla qurbanlara təsir edərək onlar üzərində tam nəzarəti təmin etməyə çalışırlar:**

- borc asılılığına salma;
- hərəkətin və ünsiyyətin məhdudlaşdırılması;
- şəxsi sənədlərin əlindən alınması;
- zorakılığın tətbiq edilməsi;
- hədə-qorxu, təhdid etmə, hüquq-mühafizə orqanlarına qarşı qorxu yaratma;
- spirtli içki, narkotik və psixotrop maddələrdən istifadəyə məcbur etmə və s.

**Borc asılılığına salma** cəlb edilmə mərhələsində baş verir, belə ki, insan alverçiləri nəqliyyat və digər xərclər üçün borc pul təklif edirlər, təyinat yerində isə "borc"un geri qaytarılmasını tələb edirlər. Sonra onlar cərimə sistemi tətbiq etməyə başlayırlar ki, nəticədə "borc" artır.

Borc asılılığında olan insan alverindən zərər çəkmiş şəxs bunun müqabilində üçüncü şəxslərə satılaraq "borc əsarəti" vəziyyətinə də düşə bilər. Hətta zərərçəkmiş şəxsi qaçıraraq, sonradan onu insan alverçisinin onun azad edilməsi məqsədilə qaçıran şəxsə ödədiyi pulu qaytarmağa məcbur edə bilərlər.

Nəzarətin daha bir üsulu kimi zərər çəkmişi qapalı yerdə saxlamaq və ona digər zərər çəkmiş şəxslər istisna olmaqla başqa şəxslərlə öz doğma dillərində ünsiyyət saxlamaq və ya digər başqa üsullarla əlaqə yaratmaq imkanı verməməklə **hərəkətin məhdudlaşdırılması və ya izolyasiya üsulu** tətbiq edilir. Cüzi hərəkət azadlığı olan qurbanlara isə sutenyorlar, insan alverçiləri, nəzarətçilər, mühafizəçilər və digər müşayiətçi şəxslər tərəfindən nəzarət edilir.

12 3 və 4-cü əlavələrə bax.

**Şəxsiyyəti təsdiq edən sənədin alınması**, şəxsin yerdəyişməsi mərhələsində və ya onun təyinat yerinə gəlməsindən dərhal sonra baş verir. Əsas məqsəd onu rəsmi statusdan məhrum etmək, bununla da qaçmasının qarşısını almaqdır.

**Fiziki zorakılıq və ya onun tətbiqi ilə təhdidetmə** nəzarətin effektiv alətlərindən hesab edilir. İnsanı itaətdə saxlamaq, tələb edilən əməlləri yerinə yetirməyə məcbur etmək üçün, onu tez-tez döyür, zorakılıq tətbiq edir, su və yeməkdən məhrum edir və digər işgəncələrə məruz qoyurlar.

Təsiretmənin çox geniş yayılmış formalarından biri də "*görkəzmə*" cəzasıdır. Belə ki, qurbanların arasından bir nəfər seçilərək hamının gözü qarşısında fiziki zorakılığa məruz qalır. Təsiretmənin bu formasının tətbiqi nəticəsində zərər çəkmiş həm ciddi fiziki, həm də psixi zədə alır. Cinayətkarların bu əməlləri bəzi hallarda, qurbanların şikəst olmasına, hətta ölümünə gətirib çıxarır. Bəzi hallarda fiziki və cinsi zorakılıq insan alverçilərinin və ya müştərilərin cinsi azğınlıqlarının və ya sadizminin təzahürü kimi meydana çıxır.

Fiziki zorakılıqdan əlavə, zərər çəkmiş şəxsə **psixoloji təzyiqlər** də göstərilir ki, bu da onda xəcalət, acizlik, ümidsizlik hisslərinin yaranması ilə nəticələnə bilər.

Nəzarətin digər bir mexanizmi **rüsvay olmaq qorxusu və stiqmatizasiyadır**. Cinsi istismar zamanı insan alveriçiləri zərər çəkmişlərin qohumlarına onların fahişəliklə məşğul olmaları haqqında bildirəcəkləri ilə hədələyirlər. İtaəti təmin etmək üçün zərər çəkmiş şəxsin zorlanması zamanı çəkilmiş şəkilləri şantaj məqsədilə istifadə edirlər. İnsan alverçiləri zərər çəkmiş şəxs müqavimət göstərəcəyi təqdirdə lenti ailələrinə göndərəcəkləri ilə təhdid edirlər.

Bəzi hallarda zəzərçəkmişin fahişəliyə cəlb edilməsi faktının açılması ilə onu ailəsi tərəfindən də böyük təhlükə gözləyir. Rüsvayçılıq qorxusu və stiqmatizasiya insan alverinin digər formalarında da baş verə bilər. Aldadılaraq istismara cəlb edilmiş şəxslərin onların alverçilər tərəfindən aldadılması faktının açıqlanmasından çəkinmələri təbii haldır. Xüsusilə zərər çəkmiş kişilər öz stereotip "ailə dolandıran" funksiyasını layiqincə yerinə yetirmədiklərini yəqin edərək özlərinin qurban kimi qəbul etmək istəmirlər.

Qorxutmanın ən effektiv üsullarından biri də, zərər çəkmiş şəxsin mənşə ölkəsində qalan yaxınlarına və doğmalarına qarşı **zorakılıqla təhdiddir**. Bir çox hallarda insan alverçiləri zərər çəkmişin ailə vəziyyəti haqqında məlumat almağa cəhd edirlər. Bu yaxın şəxsin sadəcə adı və ya ev ünvanı ola bilər.

Əslində alverçilərə zərər çəkmiş insanların ailəsi haqqında çox ətraflı məlumata malik olmaq önəmli deyil. Nəzarəti təmin etmək üçün azacıq məlumatla təhdid etmək və zərər çəkmişin bu təhdidi təhlükə kimi qəbul etməsi kifayətdir. Tələbin pozulması və ya qaçmağa cəhd zamanı ailələrinə qarşı zorakılığın tətbiq ediləcəyi təhdidi zamanı zərər çəkmiş şəxslər alverçilərin "uydurduğunu" düşünərək öz yaxınlarının təhükəsizliyini riskə ata bilmirlər.

Zərər çəkmiş şəxslərin bir çoxu hüquq-mühafizə orqanlarının yardım mənbəyi deyil, məcburiyyət və təqib aləti hesab edilən ölkələrdən gəldiyinə görə, onlar çox zaman hüquq-mühafizə orqanlarına müraciət etmək istəmirlər. İnsan alverçiləri zərər çəkmiş şəxslərdə hökumət nümayəndələri, xüsusilə, **hüquq-mühafizə orqanlarına qarşı qorxu** yaradırlar. Zərər çəkmiş şəxslər düşünürlər ki, qeyri-leqal vəziyyətə düşmələri onlar üçün bir sıra xoşagəlməz nəticələrə səbəb olacaqdır (həbs, deportasiya, cərimə), məhz buna görə hökumət nümayəndələri ilə əlaqə saxlamaqdan çəkinirlər. Bir çox hallarda xarici dili bilməməsi bu yolda onlar üçün maneə olur.

İnsan alverçiləri başqa bir taktikaya da əl ataraq, qurbanları inandırırlar ki, onların kömək üçün hüquq-mühafizə orqanlarına bel bağlaması faydasızdır, çünki hüquq-mühafizə orqanlarının əməkdaşları rüşvətxordur və onlar tərəfindən ələ alınıblar. Belə bir şəraitdə təəccüblü deyil ki, zərər çəkmişlər çox nadir hallarda insan alverçilərinin adlarını çəkməyə və məhkəmələrdə onlara qarşı şahidlik etməyə qərar verirlər.

Bəzi hallarda alverçilər zərər çəkmişlər üzərində nəzarəti gücləndirmək üçün narkotik vasitələr tətbiq edərək onlarda həmin vasitələrə qarşı **asılılıq** yaradırlar. Alverçilər narkotik aludəçisinə çevrilən zərər çəkmiş şəxslər üçün narkotik vasitə tədarükçüsünə çevrilirlər. Zərər çəkmişlərin bir çoxunun düşdüyü vəziyyəti və istismar şəraitini unutmaq üçün könüllü şəkildə narkotik vasitə qəbul etmək istəyi insan alverçilərinin onları bu işə cəlb etməsi işini asanlaşdırır.

Bu **üsullardan** hər biri ayrıca tətbiq edilə bilər, ancaq qurbanları faktiki və psixoloji təsir şəraitində saxlamaq üçün çox zaman onlar birlikdə istifadə edilir.

Bu bitib tükənməyən nəzarət metodları başa düşməyə imkan verir ki, bu qədər zərər çəkmiş şəxs nə üçün cinayətkarlardan qaçmağa hətta cəhd göstərmir vəhüquq mühafizəçiləri sırf humanitar mövqedən yanaşaraq insan alveri ilə mübarizə aparmalıdılar.

**Sığınacağın sosial işçisinin "insan alveri" cinayətlərinin mahiyyətini və insan alveridən zərər çəkmiş şəxslərin müəyyən edilməsi göstəricilərini dərindən bilməsi çox vacibdir. Məhz müəyyənləşdirməni (sorğunu) həyata keçirən əməkdaş müvafiq formanı doldurur, şəxsin insan alverinin qurbanı olub-olmaması, yəni ona yardımın göstərilməsinə ehtiyacın olması barədə ilkin qərar qəbul edir. Burada həmçinin insanın gələcək taleyini müəyyən edən işin məsuliyyəti də vardır.**

## 2.2 İlkin görüşün təşkili

> *"Effektiv sorğu keçirməyin əsasında dinləmək və anlamaq qabiliyyəti durur."*
> \- A. Ayvi

İnsan alverindən zərər çəkmiş şəxslə ilk görüş zamanı **gender aspektlərini** nəzərə almaq lazımdır. Ümumdünya səhiyyə təşkilatı insan alverindən zərər çəkmiş *qadınlarla müsahibənin aparılmasının* mənəvi-etik prinsiplərini hazırlamışdır və onun geniş şəkildə istifadəsini tövsiyə edir[13]. İstismar, xüsusilə cinsi istismar zamanı zərər çəkmiş şəxslərin düşdükləri vəziyyət dağıdıcı və intim xarakter daşıyır.

Bu həmçinin istismar olunaraq əmək köləliyi vəziyyətinə salınmış, məcbur edildiyini, döyüldüyünü, şəraitin dəhşətli olduğunu birbaşa deyə bilməyən *kişilərə* da aid edilə bilər. Çünki cəmiyyətin mədəni və milli stereotipləri onlara bunu etməyə imkan vermir. Kişilər çox vaxt qadının qarşısında şikayət etməkdən çəkinir, axı kişilər güclü olmalıdır. Bundan başqa, müsahibəni, reabilitasiya və sair tədbirləri həyata keçirəcək hazırlıqlı mütəxəssislərin olmaması da müvafiq cinsə mənsub

13 4 -cü əlavəyə bax. Beynəlxalq Səhiyyə Təşkilatının insan alverindən zərərçəkmiş qadınlarla müsahibənin keçirilməsi zamanı etik qaydalar və təhlükəsizliyin təmin olunmasına riayət edilməsi məsələləri üzrə tövsiyələri (Rus dilində) http://apps.who.int/iris/bitstream/10665/42765/5/9241546255_rus.pdf

mütəxəssis seçimində zərər çəkmişin hüququnu məhdudlaşdırır.

Əksər hallarda zərər çəkmiş şəxslərin müəyyənləşdirilməsi proaktiv üsulla, yəni mütəxəssislər tərəfindən bilavasitə həyata keçirilir. İnsan alveri situasiyasına düşən şəxslər özlərinin xüsusi psixo-emosional vəziyyətlərinə görə, uşaqlar isə böyüklərə qarşı etibarın itirilməsinə görə çox nadir hallarda özləri yardım üçün müraciət edirlər.

İlkin görüş zamanı insan alverindən zərər çəkmiş şəxslər üçün **“Yaddaş Vərəqəsindən”**[14] və onun tətbiqi alqoritmindən istifadə üzrə müsbət təcrübə mövcuddur. Bu yolla sosial işçi daha etibarlı münasibətlər quraraq, hadisə haqqında ilkin məlumatlar əldə edir. Vərəqənin istifadəsi zərərçəkmiş şəxsin istismarı zamanı baş vermiş hadisələri və göstərilməsi vacib olan yardım növlərini qeyd edərək ehtimal olunan zərər çəkmiş şəxsə həssas münasibət bəslənilməsinə və bununla da onun öz situasiyası haqqında qeyri-verbal şəkildə məlumat verməsinə imkan yaradır.

**Görüş zamanı alınmış cavablar nadir hallarda yetərsiz olur. Bu əsasən sualların aydın qoyulmaması və ya verilən cavabları qəbul etməyə hazır olmamaq ilə əlaqədardır.**

Sığınacaqda sosial işçinin işi hadisə haqqında sorğu və söhbətlərin aparılması və bununla əlaqədar xüsusi blankların doldurulması ilə başlayır[15].

**Sorğu 3 əsas mərhələdən ibarətdir:**

**Giriş:** tanışlıq, əlaqənin qurulması, əsas qaydaların və vaxt çərçivəsinin müəyyən edilməsi, söhbətin mövzusunun müəyyən edilməsi;

**Əsas:** insan alveri situasiyasının müzakirəsi;

**Son:** gözlənilən mümkün dəyişikliklər və həmsöhbətlərin gələcək fəaliyyəti

## İlkin sorğunun keçirilməsinin əsas məqamları

### *Ünsiyyətin qurulması*

Vəziyyətini öyrənmək istədiyiniz şəxs qorxmuş, xəstə, ac, şok vəziyyətində ola, nəyə görə burada olduğunu anlamaya və ya ümumiyyətlə heç kiminlə danışmaya bilər. Ona görə də imkan varsa heç kimin sizi yayındırmaması üçün söhbəti ayrıca otaqda aparmaq və söhbətin əvvəlində əmin olmaq lazımdır ki, şəxs sizinlə psixoloji və fiziki olaraq əməkdaşlığa hazırdır. Sosial işçi söhbəti təqdimat və görüşün məqsədlərinin bəyan edilməsi ilə başlamalıdır. Bu daha etibarlı əlaqənin qurulmasına kömək edəcəkdir.

14 1 və 2-ci əlavələrə bax

15 1 və 2-ci əlavələrə bax

### *Fəal dinləmə*

Söhbət prosesində fəal dinləmə zərər çəkmiş şəxsi diqqətlə dinləməklə onun hekayəsini verbal və qeyri-verbal üsullarla stimullaşdırmaqdır.

**Fəal dinləmənin bir neçə əsas qaydaları mövcuddur:**

1. Söz kəsməyin;
2. Emosiyalarınıza hakim olun;
3. Yayınmayın;
4. İnsana yox, sözə reaksiya verin;
5. Ünsiyyətin qeyri-verbal vasitələrindən (mimika, jest) istifadə edin;
6. Göz kontaktından istifadə edin;
7. «Bəli-bəli», «anlayıram», «aha» ifadələrinin köməyi ilə qulaq asdığınızı və vəziyyəti anladığınızı bildirin;
8. Lazım gələrsə dəqiqləşdirici suallar verin;
9. Anlaşıqlı olmaq üçün fikirlərinizi başqa şəkildə ifadə edin;
10. Susmaq hüququna hörmət edin.

### *Sual vermək bacarığı*

Düzgün qoyulmuş suallar mütəxəssisə söhbəti lazımi istiqamətdə yönləndirməyə imkan verir. Aşağıda iş zamanı daha çox istifadə olunan bir neçə sual formaları verilmişdir:

*Qapalı* - bu tip sualları söhbətin əvvəlində istifadə etmək məqsədəuyğundur. Bu suallar adətən “və ya” bağlayıcısı ilə bitir. Məsələn: “Siz valideynlərinizlə birlikdə yaşayırsınızmı?”

*Açıq*- “Nə?”, “Nəyə görə ?”, “Necə?”, “Bacarardınızmı?” sualları ilə başlayır. Məsələn: “Səyahətiniz necə keçdi?”, “Həmin adamla necə tanış oldunuz?”.

*“Nəyə görə?”* sualı ilə başlayan sualı verərkən diqqətli olmaq lazımdır. O insanı özünə haqq qazandırmağa və özünü narahat hiss etməyə məcbur edə bilər ki, bu da sonrakı söhbətə pis təsir edə bilər.

*Şəxsi* - hərdən birbaşa sualların verilməsi məqsədəuyğundur. Məsələn: “Yaşama/qalma şəraiti sizi qane edirdimi?”

*Düşündürücü suallar* – bu suallar məlumatın ümumiləşdirilməsi və fikirlərində düzəliş etməyə yönəlmişdir. Məsələn: “Sizinlə baş verən hadisəni düzgün təsvir edə bildimmi?”

**Diqqət! Suallar sadədən mürəkkəbə doğru verilməlidir, əsas suallar digər suallarla yoxlanılmalıdır. Eyni zamanda bir neçə sual verməyə dəyməz – nəticədə konkret cavab ala bilməyəcəksiniz.**

Respondentin yorğunluğu və əsəbiliyi müşahidə olunarsa söhbəti saxlamaq və bir neçə neytral sual vermək lazımdır. Cavabı kəsmək olmaz, xüsusilə öz şəxsi fikirlərinizi ifadə etməklə respondentin söhbətini kəsmək yolverilməzdir.

Unutmaq olmaz ki, bu söhbət zərər çəkmiş şəxs üçün kifayət qədər xoşagəlməzdir. O unutmaq və öz həyatından silmək istədiyi fakt və hadisələri xatırlamaq məcburiyyətində ola bilər. Ona görə də tolerant münasibət göstərməklə yanaşı, zorakılığa məruz qalmış kişi, qadın və uşaqların psixoloji xüsusiyyətləri barədə ümumi təsəvvürlərə malik olmaq lazımdır.

İnsan alveri qurbanları ilə işdə *hər bir hadisənin xüsusiyyətlərini* bilmək vacibdir. İnsan alverindən zərər çəkmiş şəxslərin xarakteristikasının dəqiq siyahısını göstərmək kifayət qədər çətindir, çünki bu bir sıra amillərdən asılıdır: yaş, inkişaf səviyyəsi, cins, mədəni mənşə, mənəvi dəyərlər, dini inanc, ailə vəziyyəti, ailədə münasibət, insan alveri situasiyasına düşmənin travmatik və neqativ təcrübəsinə malik dünyagörüş, istismar zamanı alınmış psixoloji və fiziki zədələrin ağırlıq dərəcəsi, bu situasiyada qalma müddəti və digər müşayiətedici hallar və s.

**Zərər çəkmişlə işin praktikasının əsasında 4 əsas qrupda təsnif edilən mümkün reaksiyalar və xarici əlamətləri müəyyən edirlər.**

**Emosional:** (ümidsizlik, hisslərin iflici, qəzəb, depressiya, həyəcan, təcrid olunma hissi, başqaları tərəfindən qiymətləndirilməmək hissi və s.);

**Koqnitiv:** (yaddaşın, düşüncənin və diqqətin pozulması, konsentrasiya ilə bağlı problemlər, qərar qəbul olunmasında çətinliklər və s.)

**Fiziki** (yuxunun və iştahanın pozulması, ürək bulanması, baş ağrısı, təzyiq və ürək döyüntüsünün dəyişməsi, titrəmə, koordinasiyanın itirilməsi, bədənin ümumi ağrısı və s. )

**Davranış** (ünsiyyət saxlamaq istəyinin olmaması; aqressivlik, deyingənlik, spirtli içkidən asılılıq və s.)

**Qorxu və təhlükə hissi** fobiyanın inkişafına gətirib çıxara bilər (yenidən döyülmələrə məruz qalma, zorakılıq və həyatını itirmə,  insan alverçiləri tərəfindən aşkar edilmək, QİÇS-ə yoluxmaq, başqa insanların insan onun fahişə kimi çalışması və ya ləyaqətinin alçaldılaraq haqqı ödənilmədən işləməyə məcbur edilməsi haqqında xəbər tutması, yaxınları tərəfindən anlaşılmamaq qorxusu, ondan imtina).

Adətən  belə şəxslər təklikdə qalaraq, insanlarla ünsiyyət saxlamaq, evdən kənara çıxmaq istəmirlər. Onlarda arxasınca daim izləyirlər, təqib edirlər kimi fikirlərin olması yüksək şübhəyə, həddindən ziyadə həyəcanlanmaya səbəb olur ki, bu da aşağıdakı bir sıra fiziki təzahürlərin meydana çıxması ilə nəticələnir: sarsıntı, ürək döyüntülərinin çoxalması, yuxu pozuntusu və gecə qarabasmaları, konsentrasiyanın qeyri-mümkünlüyü, bir yerdə otura və sakit dinləyə bilməmək və s. Belə şəxslər insanların az olduğu yerlərdə olmağa üstünlük verirlər, söhbətlərdən qaçırlar, onlar üçün göz kontaktı yaratmaq və diqqətini cəmləmək çox çətindir.

Bir halda ki, bu emosiyalar real şəraitə uyğun olaraq formalaşır, onları aradan qaldırmağa ehtiyac yoxdur, bunun əvəzinə zərər çəkmiş şəxslərin təhlükəsizliyinin təmin edilməsi və onlara uyğun yardımın göstərilməsi üçün müvafiq işlərin görülməsi daha məqsədəuyğundur.

**Problemin ciddiliyinin və ya mövcudluğunun ümumiyyətlə inkarı.** Zorakılıq situasiyası zərər çəkmiş tərəfindən tanınmır, qeyri-real tədqim edilir və ya etiraf edilmir. Belə insanlar bir çox hallarda zorakılq və istismar faktını təkzib edir, hərdən isə insan alverçisi və ya istismarçısına bəraət qazandırmaqla baş vermiş hadisə ilə bağlı özlərini ittiham edirlər. Söhbətin aparılması zamanı kliyentin psixoloji müdafiəyə olan ehtiyacının vacibliyini də nəzərə almaq lazımdır.

**Vəziyyətdən çıxış yolunun olmaması və ya bu yolun qəbuledilməzliyindən sarsıntı.** Güclü emosional həyəcan davranışın nizamsızlığına gətirib çıxarır. Sarsıntılar gündəlik həyatda kəskin dəyişikliklər edilməsi (yaşayış yerinin dəyişdirilməsi, iş axtarışı və s. ) və ya yaxınların və ətrafdakı insanların yad, soyuq münasibətilə daha da dərinləşir. Belə xaotik şəraitdə şəxsin güclü tərəflərindən istifadə edərək, konkret və real şəkildə həyata keçirilə bilən tədbirlər planı hazırlamaqla yanaşı ən vacib prioritetləri seçmək məqsədəuyğundur.

**Zərər çəkmiş şəxsin qəzəb və aqressivliyi** dərhal və ya müəyyən müddətdən sonra özünü göstərməklə həm özünə (bu situasiyaya düşdüyü üçün), həm də digər şəxslərə (onu qorumadıqları üçün) yönələ bilər.

Adətən, bu kateqoriyadan olan şəxslər hiperaktivlik, digər şəxslərlə az əlaqədə olmaq, yüksək tonallıq (çığırğanlıq), hiperhəyəcanlanma, pis əhval-ruhiyyə, öz problemindən vəsvəsəyə düşmək, yüksək deyingənlik, həyatdan narazı, gələcəyi qara tonlarla görmək, narazı üz ifadəsi və çatılmış qaşlarla, sərt və laqeyd hərəkətlər, özünə fiziki zərbə yetirməyə meylli, əməkdaşlıqdan imtina kimi davranış və əlamətlərlə xarakterizə edilirlər. Nə qədər ağrılı olsa da bu emosiyaların zərərçəkmiş şəxs tərəfindən sonuna kimi ifadə edilməsi vacibdir.

**Günah və xəcalət hissi, özünü qınama** zərər çəkmiş şəxsin səhvləri, düzgün olmayan davranışına görə cəza kimi özünü göstərir. Günah və xəcalət hissi göz kontaktının qurulmasında çətinliyin yaranması, öz emosiyalarının, daxili həyəcanların və istismar situasiyası ilə bağlı hisslərin təzahürü, bədən sıxıntısı və daimi gərginlik, tibbi müayinədən keçmə istəyinin olmaması, müxtəlif növ yardım göstərmək iqtidarında olan mütəxəssis və situasiya ilə əlaqədar hansısa məlumata malik olan şəxslərlə ünsiyyətdən qaçma kimi əməllərlə özünü göstərir.

**Yaddaş pozuntuları, dissosiasiya** (şəxsiyyətin ikiyə bölünməsi). İnsana hadisələri, keçmişin tam mənzərəsini, müvafiq insanların xarici görünüşünü, onların adlarını, zaman və yeri xatırlamaq çətindir. Söhbət zamanı məlumatların və baş vermiş hadisələrin təsvirinin təhrifi, aşkar şəkildə qoyulmuş suallara cavab vermək istəyinin olmaması kimi halların müşahidə edilməsi mümkündür. Bu kateqoriyalı şəxsləri anlayışla qarşılamaq lazımdır. Onlara heç bir halda təzyiq göstərilməməli, ittiham edilməməlidirlər.

**Təcrid olunma, tənhalıq.** İnsan özü üçün öz çərçivəsi və inancları olan bir dünya yaradır, və inanır ki onu heç kim anlamır və buna görə də ona heç kim kömək etmək iqtidarında deyildir. Onun üçün tipik xüsusiyyətlər kədər, hərəkətin və ünsiyyətin kəskin şəkildə azalmasıdır. Mürgü vəziyyəti, laqeydlik, tez qıcıqlanmalar, orientasiyanın itirilməsi, düşünmək qabiliyyətinin zəifləməsi, şüurda mənfi emosiyalar və onların mənbələri arasında əlaqələrin kəsilməsi hesabına həmin emosiyaların qapanması, illüziyaların və ya hallüsinasiya (qarabasma) kimi halların yaranması da mümkündür.

Belə şəxslərlə iş zamanı onların fərdi və qrup məşğələlərinə, işlərin planlaşdırımasına cəlb etmək məqsədəuyğundur. Onlara həmçinin öz yaxınları ilə (ən azı telefonla) əlaqə saxlaması təklif edilə bilər.

**İnamsızlıq.** Zərər çəkmiş şəxsə görə sığınacağın mütəxəssisi ona təhlükə yarada biləcək yad şəxslər sırasına daxildir. Onun üçün ətrafindakı şəxslərə münasibətdə yüksək ehtiyatlılıq və tədbirlilik xarakterikdir. Bu şəxslərlə iş zamanı mütəxəssis bütün səylərini ilk növbədə etibarlı münasibətin qurulmasına yönəltməlidir.

**Depressiya** şəxsin öz acizliyini və qabiliyyətsizliyini hiss etməsi zamanı yaranır. Həmin insanlara fəaliyyətsizlik, öz dünyasına qapanma, laqeydlik, etinasızlıq, təşəbbüssüzlük, əhval-ruhiyyənin aşağı olması, əvvəlki fəaliyyətə marağın və həzzin itirilməsi, ciddi yorğunluq, "gücün azalması", pessimizm, qərar qəbul etmək və konsentrasiya olmaq bacarığının itməsi, ölüm haqqında fikirlər, sui-qəsdə cəhd, əməkdaşlıq etmək istəyinin olmaması xarakterikdir.

Depressiyanı özünənəzarət və cəmiyyətin həyatında fəal iştirak vasitəsilə aradan qaldırmaq mümkündür.

**Asılılıq, itaətkarlıq və ya müdafiəsizlik** müstəqil qərar qəbul etmək imkanının və ya istəyinin olmaması, daim kimisə razı salmağa cəhd, onun əmr və sərəncamlarını yerinə yetirmək, tabe olmaqda özünü göstərir.

Bir qayda olaraq, belə şəxslərin öz təşəbbüsləri olmur, onlar bir yerdə sakit otura bilmir, özlərini daim hər hansı fəaliyyətlə məşğul etməyə çalışır, öz hüquqlarını və mənafelərini müdafiə etməyi bacarmır, kiməsə qarşı çıxmaqdan qorxur, asanlıqla təsirə məruz qalırlar; onlar üçün daxili narahatlıq, sıxılma, daim şikayət, özündən narazılıq, öz müqəddəratını təyin etmə qabiliyyətinin olmaması, kənar şəxslərin köməyini və ya məsləhətlərini qəbul etməmək kimi xüsusiyyətlər xarakterikdir.

Bəzi kiçik məsələlərin həllində və məhdud hədəflərin qurulmasında belə şəxslərə sərbəstlik verilməsi məqsədəuyğundur. Zərər çəkmiş şəxslərlə işdə vacib aspektlərdən biri onların öz imkanlarına və bacarıqlarına əminliyinin yaradılmasıdır.

**Özünü təqsirləndirmə.** Zərərçəkmiş şəxslər həddindən artıq sadəlövh, ağılsız olduqlarına, vaxtında yaxınlarının xəbərdarlıqlarına və məsləhətlərinə diqqət yetirmədiklərinə görə, qeyri-qanuni yollardan istifadə etdikləri üçün (sərhədin keçilməsi, işə düzəlmə) özlərini günahlandıra və düşdükləri situasiya ilə bağlı yalnız özlərini təqsirkar hesab edə bilərlər.

Belə insanları inandırmaq lazımdır ki, yaranmış situasiya ilə bağlı təkcə o günahkar deyil, bu hadisə digərlərinin də başına gələ bilərdi. Əsas məsələbu situasiyadan cəsarətli və kreativ şəkildə çıxmaqdır.

**Özünə inamın olmaması.** Aşağı özünüqiymətləndirmə, fəaliyyətsizlik, passivlik, maraqların azalması, gələcəyə dair planın olmaması, qərar qəbulunda və dəyişikliklərin tətbiqində (zahiri görkəm, həyat şəraiti, şəxsi) çətinlik, xarici amillərə qarşı və ətrafdakı şəxslərin qəbul edilməsində hiperhəssaslıq, tənqidə qarşı pis reaksiya, geyimlərdə və istifadə etdiyi başqa əşyalarda tünd rənglərin üstünlük təşkil etməsi, sadə saç düzümü, əyilmiş baxışlar, asta hərəkətlər, xarici görünüşünə qarşı laqeydlik və səliqəsizliklə xarakterizə edilir.

Bu halda şəxsiyyətin güclü tərəflərini, nailiyyətlərini vurğulamaqla onun özünə və imkanlarına olan inamını yüksəltmək lazımdır.

**Şok.** İnsan öz emosiyalarını ifadə etmək iqtidarında deyil, diqqətin cəmlənməsi və hadisənin canlandırılması ilə bağlı problemlər yaranır; oriyentasiya pozğunluğu, keyləşmə, adekvat düşünərək qərar qəbul etmənin qeyri-mümkünlüyü müşahidə olunur. İnsanın özünü müdafiə

olunan hiss etməsi və tezliklə əvvəlki vəziyyətinə qayıtmasını təmin etmək məqsədilə ilk növbədə onun üçün rahat atmosfer yaradılmalıdır.

**Xəyanət.** Zərər çəkmiş şəxslərdə onu insan alverçiləri ilə tanış edən insanlara, onları xəbərdar etməyən, problemlərinin həllinə köməklik göstərməyən və ya onları insan alverinin qurbanı olmasına gətirib çıxaran yolu seçməyə təhrik edən qohumlarına, insanların təhlükəsiz yaşaması üçün layiqli şəraiti təmin etməyən dövlətə, Allaha (dindar şəxsdirsə) qarşı ciddi inciklik hissi yarana bilər. Belə şəxslərə ünsiyyətin məhdud çərçivəsi, çılğınlıq, əsəbilik və tənqidə meyllilik xarakterikdir.Bu hissin aradan qaldırılmasının başlıca yolu ətrafdakılara qarşı inamın bərpa edilməsidir. Çox təəssüf ki, bu çox vaxt tələb edir (aylar, illər, bəzən isə insanı ömrüboyu müşayiət edir.)

## Məişət zorakılığı və insan alveri qurbanlarının özəllikləri

İnsan alveri qurbanlarının bütün yuxarıda sadalanan emosional və davranış reaksiyaları özünü yüksək dərəcədə **məişət zorakılığının qurbanlarında** da göstərir. Sosial işdə insan alveri qurbanları ilə məişət zorakılığı qurbanlarının reabilitasiyasında bir sıra ümumi cəhətlər mövcuddur. Həm insan alveri, həm də məişət zorakılığı hallarında müddətindən, təkrarlanması tezliyindən, sarsıntının gücündən və qurbanın psixikasının möhkəmliyindən asılı olaraq müxtəlif dərəcəli psixi pozğunluqların yaranması, şərəf və ləyaqətini alçaldılması ilə nəticələnən travmatik hadisələr törədilir.

Bu səbəbdən *bərpa proqramlarının sxemləri* eyni olmasa da çox oxşardır. Cinayət tərkibi nöqteyi-nəzərindən isə bunlar cinayətin tamamilə iki müxtəlif növüdür. İnsan alveri istismara (cinayətkarların maddi mənfəət əldə etməsinə) əsaslanan insan hüquqlarının pozulmasıdır. Məişət zorakılığı isə birgəyaşayış qaydalarının, əxlaq normalarının pozulmasının nəticəsidir. Bir çox ölkələrdə bu məsuliyyətin müxtəlif dərəcəsidir – cinayət və inzibati. Buna əsasən hüquqi yardım konteksti də müxtəlifdir.

Bəzən qeyri-hökumət təşkilatları eyni zamanda həm insan alveri, həm də məişət zorakılığının qurbanları olan qadınlara “sığınacaq” və ya “müvəqqəti yaşayış yeri” xidmətləri göstərirlər. Müşahidələr göstərir ki, insan alverindən zərər çəkmiş bir sıra qadınlar buna qədər məişət zorakılığı halları ilə qarşılaşmışlar. Məhz bu amil riskli təklifin onun tərəfindən qəbul edilməsinə və müəyyən davranışının formalaşmasına gətirib çıxarmışdır.

Lakin yadda saxlamaq lazımdır ki, **insan alverçiləri tərəfindən təhlükə** hər iki qrup üçün mövcuddur ki, bu da “təhlükəsizlik” iş prinsipini pozur. Digər tərəfdən məişət zorakılığının qurbanları insan alveri situasiyasına düşmə ehtimalı olan yüksək risk qrupuna daxildir. Ona görə də bu kateqoriyadan olan kliyentlərlə preventiv işlərin aparılması çox vacibdir.

**Bu cür müxtəlif qrupların eyni sığınacaqda reabilitasiyası şərtləri ölkənin mövcud qanunvericiliyindən və təşkilatın özünün imkanlarından asılıdır. Məişət zorakılığı və insan alveri ilə mübarizə sahəsində siyasət nə qədər fəal olarsa, belə cinayətlərin qurbanlarının keyfiyyətli xidmət almaq imkanları da bir o qədər yüksək olacaqdır.**

## 2.3 Ehtiyacın qiymətləndirilməsi və yardım göstərilməsi planı. Keys-menecment

Zərər çəkmişlə səmərəli işin vacib elemetlərindən biri onun ehtiyaclarının keyfiyyətli və tam şəkildə qiymətləndirilməsidir ki, bu da nəticədə ona daha yaxşı necə kömək göstərilməsini müəyyən etməyə imkan verir.

**Ehtiyacların qiymətləndirilməsi –** göstəriləcək xidmətlərin növləri və həcmi, onların çətin həyat şəraitinin aradan qaldırılmasına təsirinin müəyyən edilməsi məqsədilə sosial işçi tərəfindən sosial xidmətin obyekti olan şəxsin vəziyyəti və həyat şəraiti haqqında məlumatlarının toplanılması, ümumiləşdirilməsi və təhlili prosesidir.

Vəziyyətin və ehtiyacların qiymətləndirilməsi üçün **məlumatların toplanması** aşağıdakı müxtəlif üsulların tətbiqi ilə həyata keçirilə bilər:

- Söhbət (şəxslə, həmçinin onun ailə üzvləri və yaxın ətrafı ilə ünsiyyət);
- Sorğu (şəxsin ona verilmiş suallara cavabları), anketləşdirmə (sorğu blankının doldurulması);
- Müşahidə (birbaşa eşitməklə və görməklə insanın davranışının müəyyən edilməsi);
- Sosial yoxlama (insanın həyat fəaliyyəti şərtlərinin təhlili və nəzarət yolu ilə onun üzə çıxarılmasına yönəlmiş tədbirlər sistemi);
- Test yoxlaması;
- Sənədlərin və arayışların, hüquq mühafizə və icra orqanlarına rəsmi müraciətlərin öyrənilməsi.

Zərər çəkmiş şəxsin sığınacağın sosial əməkdaşlarına bilavasitə müraciəti zamanı onlar tərəfindən işin ilkin mərhələsində ehtiyacların yalnız ***ilkin qiymətləndirilməsi*** aparılır O. sonradan situasiyanın geniş şəkildə öyrənilməsi yolu ilə dəqiqləşdirilməlidir.

***Ehtiyacların geniş şəkildə qiymətləndirilməsi*** əməkdaşların ümumi görüşü zamanı bu işin təşkili tapşırılmış sosial işçi - *keys-menecer* tərəfindən həyata keçirilir. Situasiyanın geniş öyrənilməsi nəticəsində işi aparan sosial işçi zərər çəkmiş şəxsin ehtiyaclarını tam şəkildə öyrənərək digər ixtisaslaşdırılmış xidmətlərin göstərilməsi məqsədilə mütəxəssislərin və strukturların cəlb edilməsinin münkünlüyü və zərurətini müəyyən edir və məlumatları blanka daxil edir[16].

Reinteqrasiya prosesinin aralıq mərhələlərində aşkar olunmuş ehtiyaclarla bağlı olaraq keys-menecer (sosial işçi) ilkin qiymətləndirməyə dəfələrlə qayıda bilər. Bəzi hallarda insan alveri qurbanları yardım alınmasına ehtiyac duymayaraq müstəqil həyata qayıtmaq və “sosial sağalma” üçün öz təşəbbüslərini dayandıra bilərlər. Bununla onlarda bir sıra yeni problemlər də yarana bilər ki, bu da sığınacağın digər xidmətlərinin göstərilməsinə tələb və müstəqil həyata başlama vaxtının qeyri-müəyyən müddətə uzadılması ilə nəticələnir.

16 7 və 8-ci əlavələrə bax, «Ehtiyacların qiymətləndirilməsi» və «Fərdi iş planı»

Sosial iş təcrübəsində bu cür kliyentlər **“ilişib qalanlar”** adlandırılır. Onların daim yardımın insan alveri situasiyası ilə bağlı olmayan digər növlərinə ehtiyacı yaranır. Ona görə də sosial işçi qurbanın doğurdan da yardıma ehtiyacı olduğu və sadəcə fəallıq göstərmək istəmədiyi halları bir birindən fərqləndirməyi bacarmalıdır.

Bir daha xüsusi vurğulamaq lazımdır ki, insan alverindən zərər çəkmiş şəxsin kompleks şəkildə yardıma ehtiyacı vardır. Bu yardımın effektivliyini isə ancaq çoxşaxəli *yanaşma* təmin edə bilər.

## Yardımın göstərilməsi planı

Sığınacağın qurbanlar üçün reinteqrasiya xidməti planı ehtiyacların qiymətləndirilməsindən sonra müəyyən edilir və xüsusi olaraq bu iş üçün təyin edilmiş mütəxəssis/sosial işçi tərəfindən ayrıca işdə (keysdə) formalaşdırılır. Dövri monitorinq və qiymətləndirməyə əməl etməklə birinci görüşdən zərər çəkmiş şəxsin reabilitasiya planının icrasının sonuna qədər bütün göstərilmiş xidmətlər keysdə qeydə alınır. Sosial işdə bu yanaşma **keys-menecment** adlandırılır.

İnsan alverindən zərər çəkmiş şəxslə işin hər bir məqamı unikaldır, həmin şəxslərin fərdi ehtiyacları isə bilavasitə onların yaşından, cinsindən, istismarın növündən, şərtindən və müddətindən, gender xüsusiyyətlərindən asılıdır. Buna baxmayaraq onların bir sıra ümumi **baza ehtiyaclarının** da olduğunu qeyd etmək lazımdır. Bu siyahıya xüsusilə aşağıdakı ehtiyacları aid etmək olar:

- Əsas ehtiyaclarının təmin edilməsi (geyim, yemək, təhlükəsiz yaşayış sahəsi)
- Fiziki sağlamlığın bərpa edlilməsi;
- Sosial bacarıqların inkişafı və formalaşması, sərbəstlik səviyyəsinin artırılması;
- Gündəlik həyatda psixoloji durum və davranış;
- Ailə və ictimai faydalı əlaqələrin möhkəmləndirilməsi / bərpası;
- Həyat vəziyyətinin təhlili, əsas problemlərin və onların həlli yollarının müəyyən edilməsi, çətin həyat şəraitindən azad olmaq üzrə planın tərtib edilməsi;
- Öz hüquqları və onların təmin edilməsi imkanları barədə məlumat almaq;
- Öz hüquqlarının və mənafelərinin qorunması və bərpa edilməsi;
- Sənədlərin hazırlanması, yaşayış yerinin/olduğu yerin qeydiyyata alınması;
- Müvəqqəti qalmaq üçün təhlükəsiz yerlə təmin edilmə;
- Gələcək perspektiv üçün həyatlarının qurulması və işə qəbul edilmələri imkanlarının təmin edilməsi məqsədilə ümumi və peşə təhsili alması;
- İşlə təmin edilmə.

***Sığınacaqda kompleks yardımın** göstərilməsi planına aşağıdakı xidmətlər daxildir:*

- **Tibbi yardım**–Xidmətə kompleks tibbi müayinə, müalicə və mütəxəssislərin müşahidəsi daxildir. Sığınacaq müəyyən edilmiş qurbanın müayinəsindən onun tam sağalmasına qədər bütün tibbi xidmətləri təşkil edir.

  Qurbanlara tibbi xidmətlər *tibb müəssisələrində* göstərilir. Sığınacağın ərazi üzrə tibb müəssisələrinin tibb heyəti ilə sosial əməkdaşlığı və komanda işi çox önəmlidir. Tibbi müəssisələrin əməkdaşları insan alveri problemindən xəbərdar olmalı, qurbanlarla iş zamanı etik qaydalara və məxfilik prinsipinə əməl etməlidirlər. Yalnız etibarlı münasibətlər və yüksək peşəkarlıq insan alveri qurbanlarının təhlükəsiz şəkildə bərpası üçün şərait yarada bilər.

  Sığınacağın əməkdaşları digər mütəxəssislərlə işin koordinasiyası zamanı hər şeydən əvvəl zərər çəkmiş şəxslərin fiziki və psixi sağlamlıqlarına diqqət yetirməlidirlər. Bu təməl ehtiyacdır, bərpa prosesi məhz bundan başlayır.

- **Psixoloji yardıma** zərər çəkmiş şəxsə *psixoloji məsləhətin verilməsi və ona emosional dəstəyin göstərilməsi* aiddir. Sığınacağın kliyentlərinin mümkün psixiatrik xəstəliklərinin müəyyənləşdirilməsindən sonra, psixoloq qurbanlarla görüşün keçirilməsini və onlarla işin istiqamətlərini planlaşdırır. Bəzən psixoloqun işi kliyentin psixo-emosional vəziyyətinin yaxşılaşmasına gətirib çıxarmır, bu zaman o, kliyenti psixoterapevtik yardım üçün yönləndirir. Bu qərar komandanın ümumi görüşündə psixoloq tərəfindən problemin bildirişindən sonra qəbul edilir.

  Sığınacağın insan alverinin qurbanları arasında *qarşılıqlı yardım qruplarının* yaradılması təcrübəsi kifayət qədər uğurlu hesab edilir ki, bu iş müvəffəqiyyətli şəkildə məhz psixoloq tərəfindən aparılır. Psixoloq müəyyən üsullarla qrupdakı emosional təzahürlərə nəzarət edir və bunu koordinasiya edir.

  Psixoloji yardımın əsas vəzifəsi ruhi gərginliyin, insan alveri cinayəti zamanı yaşanmış travmatik hadisələrdən əmələ gəlmiş emosional sarsıntıların yüngülləşdirilməsi və bərpa prosesinə dəstək verməkdən ibarətdir. Psixoloq icbari qaydada göstərilən xidmətin müvəffəqiyyətli olub-olmamasının izlənilməsinə imkan verən *məsləhət və müşahidə blankını* tərtib edir[17].

- **Sosial-pedaqoji yardım** sosial əlaqələrin (ilk növbədə ailə, doğma və yaxın insanlarla) bərpası, həmçinin təhlükəsiz sosial mühitə yenidən sosiallaşmaya, peşəkar özünürealizənin təmin edilməsinə, uşaqların tərbiyəsi ilə bağlı məsələlərin həllinə yardımı və s. əhatə edir. Hələ ehtiyacların qiymətləndirilməsi zamanı bərpaedici vasitə kimi qurbanın təhlükəsiz sosial mühitindən (ailəsi, doğma və yaxınları) istifadəsi imkanı dəyərləndirilir.

  Doğma və yaxınları tərəfindən qəbul və ya imtinadan yaranmış *qorxu* praktik olaraq bütün zərər çəkmiş şəxslərdə mövcuddur, çünki onlar baş vermiş hadisəyə görə günah hissi keçirirlər. Sosial işçinin vəzifəsi təhlükəsizlik və təkrar travma alma ehtimalını müəyyən etmək üçün qurbanın sosial mühitinin öyrənilməsi, həmçinin anlaşılmazlıqların, stereotiplərin aradan qaldırılması, mümkün və normal münasibətlərin yaradılması məqsədilə həm qurbanla, həm də onun sosial mühiti ilə informasiya-pedoqoji işin həyata keçirilməsidir.

17 9-cu əlavəyə bax. «Psixoloji yardımın göstərilməsi»

**Ailələrlə iş** reabilitasiya xidmətləri məcmusunun vacib tərkib hissəsidir. Çünki qurbanın sosial cəhətdən bərpası prosesinin müvəffəqiyyəti və sürəti birbaşa sosial dəstək mühiti ilə əlaqəlidir. Məhz ailə, doğmalar və yaxınlar qurbanın bərpası prosesinə daha çox təsir göstərirlər. Ona görə də sosial işçi bu sosial əlaqələrin qurulmasında vasitəçilik funksiyasını yerinə yetirməlidir.

Bəzi hallarda sosial işçi öz işində **mədəni vasitəçilərdən** istifadə edə bilər. Buraya ölkədə yaşayan ayrı-ayrı etnik qrupların nümayəndələrinin (məs: roma) reabilitasiya prosesini aid etmək olar. Onlardan həmçinin əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin reabilitasiyası zamanı da istifadə olunması əhəmiyyətlidir. Mədəni vasitəçilər insan alveri qurbanının mədəni irsinə və sosial mühitinə hörmətlə yanaşaraq itirilmiş əlaqələrin asanlıqla bərpa edilməsi üçün kifayət qədər bilik və bacarıqlara malikdirlər. Bu kateqoriyadan olan kliyentlərlə iş sığınacağın bütün mütəxəssislərindən əlavə səy tələb edir. Bu barədə vəsaitin ayrıca fəslində ətraflı bəhs ediləcəkdir.

- **Hüquqi yardıma** cinayət işi icraatında hüquq-mühafizə orqanları tərəfindən müdafiə; insan alveri ilə bağlı işlərdə qurbanların mənafelərinin təmsil edilməsi; itirilmiş sənədlərin bərpası; şəxsin şəxsiyyətinin təsdiq edilməsi (əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər olduqda); hüquqi məsləhət yardımı; maddi və mənəvi ziyana görə kompensasiya üçün iddia ərizəsinin tərtib edilməsi; mülkiyyət hüquqlarının və qeydiyyatın bərpası; uşaqlar üzərində qəyyumluğun müəyyən edilməsi (bərpa edilməsi); məhkəmədə uşaqların maraqlarının təmsil edilməsi; yetkinlik yaşına çatmayanların mənzil, əmlak, təhsil hüquqlarının bərpası və s.

  Yardımın bu növü sığınacağın *hüquqşünası*, sosial işçisi-keys meneceri və hüquq-mühafizə orqanlarının nümayəndələrinin (əməliyyat müvəkkili və/və ya müstəntiq) komanda işini tələb edir. Sığınacağın hüquqşünası həmçinin Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə əsasən fərdi şəkildə sosial müavinət, yardım və digər sosial ödəmələrin alınması hüququnun reallaşdırılmasına köməklik göstərir (insan alveri qurbanı statusu ilə əlaqədar alınan maddi yardım müstəqil şəkildə təmin edilir.)

  Hüquqi yardımın mürəkkəb, lakin çox vacib tərkib hissələrindən biri insan *alverindən zərər çəkmiş şəxslərə ölkədə müvəqqəti yaşamaq üçün icazənin verilməsi və mənşə ölkəsi ilə əlaqələrin qurulması vasitəsilə onun həmin ölkəyə qayıtmasına köməyin göstərilməsidir* (əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün). Azərbaycan qanunvericiliyində əcnəbinin ödənişsiz əsaslarla cinayət icraatının iştirakçıları olan vəkillə təmin edilməsi nəzərdə tutulmuşdur. Ancaq təəssüf ki, bəzən insan alveri qurbanları ilə işin həyata keçirilməsi zamanı vəkillərin xüsusi hazırlığa ehtiyacları yaranır. Məhz sığınacağın hüquqşünası bu kateqoriyadan olan qurbanlara keyfiyyətli hüquqi yardım göstərilməsini təmin edir və bununla əlaqədar həyata keçirilən fəaliyyətə nəzarət edir.

- **İnsan alverindən zərər çəkmiş uşaqların ailələrinin tapılması** və ya mövcud qanunvericiliyə əsasən onların digər ailələrə verilməsinin təmin edilməsi, tərbiyənin başqa formaları sosial pedaqoqun yerli icra hakimiyyətlərinin nümayəndələri ilə birgə həyata keçirdiyi yardımın formalarındandır. Valideynlərin (qəyyumların, himayəçilərin) insan alverində iştirakı hallarında uşağın valideynlərindən alınması və valideynlərin və ya valideynlərdən birinin valideynlik hüququndan azad edilməsi zərurəti yaranır.

  Hüquqşünas göstərilməsi lazım gələn və göstərilmiş xidmətləri xüsusi jurnalda qeyd edir ki, bu da ona göstərilmiş yardımın keyfiyyətini dövri olaraq monitorinq etməyə və müvəffəqiyyətlərin irəliləyişini izləməyə imkan verir. Hüquqşünas həmçinin öz

səlahiyyətləri çərçivəsində razılaşmaların və öhdəliklərin nümunələrini (blanklarını) və milli normalara zidd olmamaq şərtilə sığınacaqda qalma qaydalarını hazırlayır[18]. Hüquqi yardımın göstərilməsi ilk növbədə insanların bütün pozulmuş hüquqlarının müdafiəsinə və milli və beynəlxalq normalara əsasən onların həyatının normallaşdırılmasına xidmət edir.

- **Maddi yardım** müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuşdur. O insanların gediş haqqı, qidalanma, geyim, əlaqə vasitələri və sair kimi ilkin ehtiyaclarının qarşılanmasına yönəlmişdir.

  Birdəfəlik maddi yardımın verilməsi sosial işçi tərəfindən xüsusi maarifləndirmə işi tələb edir. Bir çox hallarda qurbanlar hesab edirlər ki, onlar bu yardımı istədikləri kimi istifadə edə bilərlər. Lakin müvafiq yardım digər əhəmiyyətli xidmətlərin alınması üçün (məs: isti hava şəraiti olan ölkədən yenicə qayıtmış insan alverinin qurbanına onun isti geyim əldə etməsi, tibbi xidmətlərin göstərilməsi, daha təhlükəsiz şəraitə malik olan digər sığınacağa köçürülmək üçün gediş haqqı və s. üçün) ödənilir ki, bu barədə zərər çəkmiş şəxsi xəbərdar etmək lazımdır.

- **İxtisasdəyişməyə və ya ixtisasartırmaya kömək,** işədüzəlməyə yardım və ya xüsusi kiçik biznesin qurulması zərər çəkmiş şəxsin cəmiyyətdə peşəkar şəkildə özünü reallaşdırmasına imkan yaradır. İqtisadi müstəqillik, xüsusilə kişilər üçün pul qazanmaq imkanlarının axtarışının səbəbidir. Bir çox hallarda məhz buna görə elə bir addım atılır ki, cinayətkarlar bundan məharətlə istifadə edirlər. Qurbanın yenidən insan alveri cinayətkarlarının şəbəkəsinə düşməməsi üçün reabilitasiya planına, həmçinin peşəkar özünüreallaşdırma ilə əlaqədar tədbirlər də daxil edilməlidir.

  Bu prosesdə işə düzəlmə və peşə biliklərinin əldə edilməsi üzrə sosial partnyorlarla əməkdaşlıq, həmçinin kliyentlərin peşə bilikləri və bacarıqları əldə etməsi üçün sığınacaqda xüsusi imkanların yaradılması mümkündür.

  Beynəlxalq təcrübədə sığınacaqların bazasında *sosial biznesin* yaradılmasının uğurlu nümunələri mövcuddur. Bu paltarlarının tikişi və ya suvenirlərin istehsalı üzrə emalatxana, kiçik çörəkxana və ya kiçik ferma ola bilər. Bu fəaliyyət nəticəsində hazırlanan məhsulların satışından əldə edilən mənfəət sığınacağın xidmətlərinin inkişafına yönəldilir. Sığınacaqda alınmış peşə bacarıqları sonradan onların işlə təmin olunmasına kömək edir. Buna görə də yerli əmək bazarının tələbləri nəzərə alınmalı və zərər çəkmiş şəxslərin tələb olunan peşə vərdişlərinə yiyələnməsinə imkan yaradılmalıdır.

- **Təhsil alınmasına və ya təhsilin bərpasına yardım edilməsi** sığınacaqda uşaqlar üçün göstərilən yardımın bir növüdür. Bir çox hallarda yardımın bu növü böyüklərə də şamil edilir.

  Təhsil alınmasına çıxışın təmin edilməsi uşağın baza ehtiyacıdır və onun sosiallaşmasının effektiv yollarından biridir. Məhz təhsil prosesində və digər uşaqlarla qarşılıqlı əlaqədə olduğu zaman onda “başqa uşaqlar kimi olmaq” hissi yaranır. Təlim xarakterli oyun formalarından istifadə etməklə uşaqlar yeni sosial mühitə asanlıqla adaptasiya olunurlar. Təhsil müəssisələri sisteminin özünün yardımçı resursu – *uşaq psixoloqları* vardır. Onlar xüsusi yardıma ethiyacı olan uşaqların reabilitasiyası prosesinə cəlb edilə bilərlər.

18 Bax əlavə 10 və 11 «Sığınacaqda davranış qaydaları», “Sığınacağın öhdəlikləri”

Sosial yardımın göstərilməsi zamanı uşağı olan şəxslərə (həm kişilər, həm də qadınlar) xüsusi diqqət yetirmək lazımdır. Bu kateqoriyadan olan şəxslərə zəruri xidmətin növləri ananın və ya atanın rolu və onun himayəsində olan uşağın ehtiyacları nəzərə alınaraq müəyyən edilir. Məcburi şəkildə insan alveri situasiyasında saxlanmaqla uzun müddət ailə üzvlərinin yanında olmayan şəxslər valideynlik hüquqlarının bərpası üzrə xidmət tələb edə bilərlər. Sosial pedaqoq və ya sığınacağın əməkdaşı insan alverinin qurbanı olan valideynlərə onların öz uşaqları ilə əlaqələrinin bərpa edilməsi üzrə müəyyən pedaqoji təlimlər keçməyə hazır olmalıdır. Bu məqsədlə art terapiya elementləri olan müştərək kreativ laboratoriyalardan istifadə edilməsi çox yaxşı olardı.

Lakin insan alveri şəraitində qadınlar, kişilər və uşaqlar tərəfindən yaşanan hadisələrin fərqli olduğunu nəzərə alsaq, onlarla iş zamanı hər birinin ehtiyaclarının və maraqlarının nəzərə alınması zəruridir.

## 2.4 İnsan alverindən zərər çəkmiş qadınların xüsusi ehtiyacları

İnsan alveri situasiyasında qadın istismarının ən geniş yayılmış formaları əmək istismarı və cinsi istismardır. İş zamanı zərərçəkmiş qadınlar tərəfindən yaşanmış hadisələrin onların fiziki və psixi vəziyyətlərinə neqativ təsirlərini nəzərə almaq lazımdır.

Cinsi istismardan zərər çəkmiş qadınlara xəcalət, rüsvayçılıq, günahkarlıq və ümidsizlik hissləri səciyyəvidir. Çünki insanların şüurunda dərindən kök salmış əsassız fikirlərdən biri də odur ki, bu cür qadınlar elə bu əməllərdən həzz və çoxlu miqdarda pul alan fahişələrdir. Buna görə də bir qayda olaraq zərər çəkmiş şəxsin ətrafındakı şəxslərlə münasibətində anlaşılmazlıqların və münaqişələrin aradan qaldırılması, adekvat özünüqiymətləndirmənin formalaşdırılması və şəxsi həyatı üzərində nəzarətinin bərpa edilməsi üçün yardıma ehtiyacı vardır.

*Tolerant münasibət və yardımın göstərilməsinin məxfiliyi prinsiplərinə riayət edilməsi burada xüsusi əhəmiyyət kəsb edir, əks halda, bu ciddi, bəzən isə ölümcül nəticələrə gətirib çıxara bilər.* Həmçinin demək olar ki, bütün hallarda zərər çəkmiş şəxslərdə ümumi sağlamlıq vəziyyətinin pisləşməsi, müxtəlif cinsi xəstəliklər( HİV/QİÇS və s.), bir sıra zərərli vərdişlərin yaranması müşahidə olunur. Yalnız peşəkar tibbi yardım deyil, o cümlədən tibbi-sosial xidmətlərin (profilaktik və müalicəvi tədbirlərin həyata keçirilməsində vasitəçilik, sağlamlığın qorunması və möhkəmləndirilməsi üzrə məsləhətlər, sağlam həyat tərzi və zərərli vərdişlərin aradan qaldırılması idealogiyasının formalaşdırılması, sağlamlığın qorunmasına dəstək və s.) göstərilməsi bu şəxslər üçün xüsusilə vacib hesab edilir.

## 2.5 İnsan alverindən zərər çəkmiş kişilərin xüsusi ehtiyacları

Diqqət yetirmək lazımdır ki, insan alverindən zərər çəkmiş kişilər öz gender xüsusiyyətlərinə görə, bir qayda olaraq özlərini qurban kimi qəbul etmək istəmir, kömək üçün müraciət etməkdən çəkinərək bunu özləri üçün daha çox alçalmaq hesab edirlər. İş təcrübəsi göstərir ki, onlar üçün yaşanan fiziki və psixoloji əzabların *şüurlu və şüursuz şəkildə gizlədilməsi*, istismar situasiyasını və təhqirləri unutmağa cəhd meylləri səciyyəvidir.

İstismar zamanı kişilərin texniki təhlükəsizlik qaydalarının pozulduğu, müdafiə və lazımi qidalanma vasitələrinin yoxluğu şəraitində ağır fiziki işləri görməyə məcbur edildiklərini nəzərə alaraq, ilk

öncə onların müvafiq *tibbi müayinə və müalicə* ilə təmin edilməsinə ehtiyac vardır. Müalicəyə ehtiyac habelə ona görə vacibdir ki, sağlamlığın kəskin şəkildə pisləşməsi onlara işə düzəlməyə və ənənəvi ailə dolandırıcısı funksiyasını yerinə yetirməyə imkan verməz. Onlar gözəl anlayırlar ki, səhhətlərində problemlərin yaranması ilə ailələri daha da pis vəziyyətə düşəcəkdir. Bunu fikirləşərək onlar özlərinə və öz imkanlarına inamlarını itirə bilərlər.

Bir çox hallarda zərər çəkmiş şəxslər uğursuz insan kimi ailəsi və ətrafdakı şəxslər tərəfindən etinasız münasibətlə qarşılanırlar. Məhz buna görə demək olar ki, hamısının peşəkar psixoloji köməyə ehtiyac olmasına baxmayaraq onlardan çox az hissəsi bu həqiqəti anlayır. Zərər çəkmiş kişilərin böyük hissəsi özünü cəmiyyətdən təcrid edərək “özünə uyğun” şəxslərlə ünsiyyətə ehtiyac duyurlar. Bu səbəbdən qarşılıqlı yardım qruplarının yaradılması kişilərə sosial yardım göstərilməsinin əsas aspektlərdən hesab edilir.

Şəxsin insan alveri situasiyasına düşməsinin səbəbinin bir qayda olaraq, ailənin təminatı üçün qazancın yoxluğu olduğunu nəzərə alaraq, onların reabilitasiyası üzrə tədbirlərə həmçinin ixtisasartırma, işədüzəltmə xidmətləri də daxil edilməlidir. Çünki onların böyük əksəriyyəti üçün əsas tələbat məhz borcunun qaytarılması və ailəsinin təmin edilməsidir.

## 2.6 İnsan alverinin qurbanı olan uşaqlara göstərilən yardımın xüsusiyyətləri

Məruz qaldıqları istismarın növündən asılı olmayaraq, praktiki olaraq bütün zərər çəkmiş uşaqların sağlamlıqları ilə əlaqədar ciddi problemləri mövcuddur və onların *təcili tibbi və psixoloji (bəzi hallarda psixiatrik) yardıma* ehtiyacları vardır. Zərər çəkmiş uşaqlarla bağlı sonrakı tədbirlərin həyata keçirilməsi ancaq həmin problemlərin aradan qaldırılmasından sonra mümkündür.

Həmçinin, nəzərə almaq lazımdır ki, uzun müddət küçədə yaşayan və ya bağlı otaqda saxlanılan, pis qidalanan, zərərli vasitələr (spirtli içki, narkotik vasitələr) istifadə edən uşaqda *hərəkətlərin, əqli fəallığın, koqnitiv funksiyaların (qərar qəbul edilməsində problem) pozulması, nitq pozğunluğu, deviant davranış* və s. kimi hallar yarana bilər.

“*Uşaqların cinsi istismar və seksual xarakterli hərəkətlərdən müdafiəsinə dair” Avropa Şurası Konvensiyasının “Uşaqların dindirilməsi” adlı 35-ci maddəsinə xüsusi diqqət yetirmək lazımdır:*

1. Hər bir Tərəf aşağıdakıların təmin edilməsi üçün lazımi qanunvericilik və ya digər tədbirlər görür:

   a. uşağın dindirilməsi heç bir üzrsüz ləngimə olmadan səlahiyyətli orqanlar tərəfindən baş verən hadisə barədə məlumat alındıqdan sonra başlayır.
   b. uşağın dindirilməsi, lazım gəldikdə bu məqsədlə layihələşdirilmiş və ya nəzərdə tutulmuş yerdə aparılır;
   c. uşağın dindirilməsi bu məqsəd üçün hazırlıq keçmiş peşəkarlar tərəfindən aparılır;
   d. mümkün olduqda və vəziyyətdən asılı olaraq uşağın bütün dindirilmələri eyni şəxs tərəfindən aparılır;
   e. dindirilmələrin sayı mümkün olduğu qədər az olmalı və yalnız istintaq araşdırması məqsədilə aparılmalıdır;

f. uşağı qanuni nümayəndəsi və ya lazım gəldikdə, onun seçimi ilə yetkinlik yaşına çatmış şəxs müşayiət edə bilər, bu o vaxtadək mümkündür ki, məhkəmə bu cür şəxs barəsində əsaslandırılmış qərar çıxarmamış olsun.

2. Hər bir tərəf qurbanla aparılan bütün dindirmələrin və ya vəziyyətdən asılı olaraq uşaq – şahidlə aparılan bütün dindirmələrin videolentə yazılmasını və bu videolentə yazılmış dindirilmələrin daxili qanunun müəyyən etdiyi qaydalara uyğun olaraq məhkəmə araşdırması zamanı sübut kimi qəbul edilməsini təmin etmək üçün lazımi qanunvericilik və ya digər tədbirləri görür.

2. Qurbanın yaşı qeyri-müəyyən olarsa və qurbanın uşaq olduğuna inanmaq səbəbi mövcud olarsa, 1 və 2-ci bəndlərdə göstərilən tədbirlər onun yaşının təsdiq edilməsinə qədər tətbiq edilir.

Uşağın ailəyə (doğma və ya himayədar) və ya onun yaxşı qəbul ediləcəyi hər hansı təşkilata qəbul edilməsi reabilitasiya proqramlarının səmərəliliyi üçün çox vacib elementdir.

Cinsi istismardan zərər çəkmiş cavan oğlan və qızlar arasında pozitiv ailə həyatı modelinin formalaşdırılması da böyük əhəmiyyətə malikdir. Onlara həmçinin nəinki özlərinə, o cümlədən, başqalarına inanmağı, pozitiv münasibətlər qurmağı və manipulyasiyalardan qaçmağı öyrətmək lazımdır.

## 2.7 İnsan alverindən zərərçəkmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin reinteqrasiyası

Qeyd etdiyimiz kimi, insan alveri qurbanları arasında "sığınacaq" və ya "müvəqqəti yaşayış yeri" xidmətlərindən istifadə edən **əcnəbi və vətəndaşlığı olmayan şəxslər** də az deyil. Onlarla iş zamanı bir sıra xüsusi bacarıqlar, əsasən də dil bilgisi vacibdir. Mədəni, dini və digər xüsusiyyətləri nəzərə alaraq, tərcüməçi, mədəni vasitəçi kimi mütəxəssisləri də işə cəlb etmək faydalı olardı. Onlar qurbanların yaşama mühiti haqqında lazımi biliklərə malik olurlar ki, bu da həmin şəxslərə münasibətdə qeyri-peşəkar hərəkətlərdən yayınmağa yardımçı olur. Bu halda antroposentrizm əsas prinsip hesab edilir, yəni sığınacağın əməkdaşlarının bütün fəaliyyəti kliyentin bərpası üçün onun bütün fərdi ehtiyaclarının ödənilməsinə yönəldilir.

İnsan alverinin qurbanı olan əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin reabilitasiyası bir qədər mürəkkəbdir, çünki vəziyyətdə kifayət qədər **qeyri-müəyyənlik** mövcud olur. Qurban təyinat ölkəsində hansı müddətdə qala bilər, yardım edərkən onun gələcək taleyi haqqında kim və necə qərar verəcək? Belə açıq suallar çox tez-tez yaranır. Ona görə də "burada və indi" metodikasını işə salaraq əsas diqqəti insan alveri qurbanının itirilmiş gücünün bərpa edilməsinə yönəltmək lazımdır.

Eyni zamanda, sığınacaq tipli reabilitasiya proqramının davam etdirilməsinin təmin edilməsi məqsədilə mənşə ölkəsində analoji təşkilat və ya sığınacağın axtarışı üzrə işlər aparmalıdır. Görüşün təşkili, lazım olan və ya artıq göstərilmiş yardımın müzakirəsi, doğmaların və yaxınların axtarışı kimi məsələlər təşkilatın qurbana yardım göstərilməsinə yönəlmiş kommunikasiya fəaliyyətinin predmetləridir.

Sığınacağın **hüquqşünası** öz səlahiyyətləri daxilində tez bir zamanda zərər çəkmişin şəxsiyyətinin təsdiqinə, sənədlərinin bərpasına və onun mənşə ölkəsinə qayıtmasına köməklik göstərməlidir.

Lakin burada zərər çəkmiş şəxsin təhlükəsizliyini və onun mənşə ölkəsinə qayıtmaq istəyini də nəzərə almaq lazıımdır. Ən əsası qurbanın maraqlarından çıxış edərək onu müdafiə etməkdir ki, bəzən bu sual doğurur, məsələn: sərhədi qanunsuz olaraq keçmə və ya qurbanın cinayət əməlinə cəlb olunması. Bu halda hüquqşünasın vəzifəsi milli və beynəlxalq normalardan çıxış edərək, əməlləri məcburiyyət, ölüm qorxusu və ya digər təhdidlər altında edən insan alveri qurbanının günahsızlığını sübut etmək olmalıdır.

Transmilli insan alveri qurbanlarının böyük axınının müşahidə edildiyi bir çox ölkələrdə *tranzit sığınacaqlardan* istifadə edilir. Bu sığınacaqlarda əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər müəyyən müddətə qalaraq sonradan mənşə ölkəsinə qayıdırlar.

Beləliklə, göründüyü kimi insan alverindən zərər çəkmiş şəxslərlə iş uzun və mürəkkəb bir prosesdir. O mütəxəssisdən daim öz hisslərinə və emosiyalarına nəzarət etməyi tələb edir. Zərər çəkmiş şəxslərin mümkün psixi və davranış reaksiyalarını bilmək çətinliklərdən, münaqişələrdən qaçmağa və qurbanların sığınacaqda göstərilən reabilitasiya xidmətləri sistemindən asılı vəziyyətdə **“ilişib qalmaqlarının”** qarşısını almağa imkan verir.

# 3 SIĞINACAĞIN İŞÇİ HEYƏTİ

## 3.1 Sığınacağın əsas işçi heyətinin üzvləri və onların funksiyaları

İşçi heyətinin tərkibi sığınacağın ümumi ehiyaclarından və resurslarından asılıdır. İşçilərin sayını və tərkibini müəyyən etmək üçün aşağıdakıları nəzərə almaq lazımdır:

- Kliyentlərin maksimum sayı;
- Xidmətin diapazonu;
- Kliyentlərin sığınacaqda maksimum yol verilən qalma müddəti.

Əgər sığınacaq günərzi xidmətlərlə stasionar xidməti birgə göstərirsə, onda başqa amilləri də nəzərə almaq lazımdır.

**Sığınacağın klassik modelinə aşağıdakı xidmətlər daxildir:**

1. Sığınacaq (yaşayış yeri və qida);
2. Psixoloji yardım;
3. Hüquqi yardım;
4. Sosial-pedaqoji xidmətlər (o cümlədən, müşayiət);
5. Peşə bacarıqları üzrə qısamüddətli təlim kursları.

İnsan alveri qurbanlarına reinteqrasiya xidmətlərinin göstərilməsi standartlarını müəyyən edən milli və beynəlxalq yanaşmaları nəzərə alaraq, sığınacağın bütün əməkdaşları üçün insan alveri probleminin, insan alveri qurbanları, o cümlədən qadınlar, kişilər və uşaqlarla işin xüsusiyyətlərinin öyrənilməsinə dair **xüsusi təlimlərin** keçirilməsi vacibdir.

Sığınacağın hər bir *sosial işçisi* eyni zamanda ən çoxu 8 nəfər yetkinlik yaşına çatmış şəxsə və ya 6 uşağa xidmət göstərə bilər. *Hüquqşünas* işin mürəkkəbliyindən asılı olaraq eyni zamanda 10-a qədər şəxsə məsləhət yardımı göstərə bilər. *Psixoloq* eyni zamanda 8-10 yetkinlik yaşına çatmış şəxsə və ya 4-6 uşağa məsləhət yardımı göstərə bilər.

Sığınacağın baş meneceri, həmçinin maliyyə-təsərrüfat fəaliyyəti üzrə meneceri olmalıdır. Müşahidə funksiyasını yerinə yetirən və işçi heyətinə peşəkar dəstək fəaliyyətinə rəhbərlik edən supervayzerin olması da vacibdir. Sığınacağın effektiv fəaliyyətini təmin etmək üçün menecer əməkdaşlardan birinə supervayzer səlahiyyətləri verir. Təcrübəli sosial işçi supervayzer funksiyasını yerinə yetirə bilər.

**Sığınacağın işçi heyətinin bütün funksiyalarını 4 qrupda birləşdirmək olar:**

- Birbaşa məsləhət yardımı və/ya kliyentə dəstək xidmətləri;
- Sığınacağın idarə edilməsi;
- Satınalmalar və maliyyə nəzarəti;
- Sığınacağın məsləhət xidmətlərindən kənarda kliyentlərə nəzarət və onlara ümumi himayədarlığın həyata keçirilməsi

**Sığınacağın meneceri təmin edir:**

1. İşçi heyətin işə qəbulu, ştat cədvəli və öhdəliklərin yerinə yetirilməsinə nəzarət;
2. Kliyentin sığınacağa qəbulu və buraxılması barədə qərarın qəbulu;
3. Daxili və xarici təhlükəsizlik sisteminin təmin edilməsi;
4. Xidmətlərin və yazılı qeydlərin məxfiliyinin təmin edilməsi;
5. İnzibati sistemin monitorinqi, işçi heyətinin və kliyentlərin yönləndirilməsi;
6. Sığınacağın işçi heyətinin təliminin və onlara dəstəyin təşkili;
7. Heyətin həftəlik görüşlərinin təşkili və aparılması;
8. Sığınacağın işinin strateji planlaşdırılması, sosial tərəfdaşlar və donorlarla əlaqələrin qurulması;
9. Şəxsi təhsil və şəxsi təhlükəsizliyinin təmin edilməsi;
10. Maddi və maliyyə vəsaitləri üzərində məsuliyyət və onlara nəzarət.

**Şosial işçi/məsləhətçi həyata keçirir:**

1. Kliyentlə ilkin görüşün keçirilməsi və keysin açılması;
2. Situasiyanın və kliyentin ehtiyaclarının ilkin və sonrakı qiymətləndirilməsi;
3. Fərdi reabilitasiya planının layihəsinin hazırlanması və onun heyət görüşündə təsdiq edilməsi;
4. Reabilitasiya planına və ehtiyacların qiymətləndilməsinə əsasən ayrı-ayrı mütəxəssislərlə /məsləhətçilərlə əlaqələrin yaradılması;
5. Lazımi məlumatlarla təminat;
6. Ümumi nəzarət və emosional dəstək;
7. Fərdi plana əsasən həyata keçirilən xidmətlərin monitorinqi;
8. Kliyentin sığınacaqdan kənarda göstərilən xidmətlərə müşayiət edilməsi və təhlükəsizliyinin təmin edilməsi;
9. Kliyentin sosial mühitini gücləndirən əlaqələrin yaradılması;
10. Sığınacaqdan buraxıldıqdan sonra kliyentin vəziyyətinin monitorinqi;
11. Sənədləşmə işlərinin aparılması və keysin məxfiliyinin, yazılı qeydlərin təhlükəsizliyinin təmin edilməsi, onların saxlanılması;
12. Heyətin həftəlik görüşlərinə qatılmaq və superviziya işində fəal iştirak etmək;
13. Şəxsi təhlükəsizliyinin və peşəkar səriştəsinin təmin edilməsi.

İnsan alverinin uşaq qurbanları üçün sığınacağın ştatında vacib olan **Sosial pedaqoq**, uşaqlara və yeniyetmələrə sosial-pedaqoji xidmətlər göstərməklə bərabər aşağıdakı funksiyaları da yerinə yetirir:

1. Analitik-diaqnostik;
2. Proqnostik;
3. Təşkilati-kommunikativ;
4. Korreksiyaedici;
5. Koordinasiyaedici-təşkilatçı;
6. Sosial-pedaqoji dəstək və yardım;
7. Mühafizəedici-qoruyucu;
8. Sosial-profilaktik;
9. Reabilitasiya.

**Psixoloq:**

1. Kliyentin psixoloji durumunun qiymətləndirilməsini həyata keçirir;
2. Psixoterapevtik yardıma və stasionar müalicəyə ehtiyacı olan kliyentləri aşkar edir;
3. Kliyentin psixoterapevtlə əlaqəsini təmin edir və onun bərpası prosesinə nəzarəti həyata keçirir;
4. Situasiyanın qiymətləndirilməsi və məsləhət yardımının planlaşdırılması məqsədilə bütün lazımi yoxlamaları tətbiq edir;
5. Sığınacağın kliyentləri ilə davranmağa dair işçi heyətinə məsləhətlər verir;
6. Sığınacağın kliyentlərinə psixolji dəstək xidməti göstərir;
7. Kliyentlərin fərdi planlarının müzakirəsində iştirak edir;
8. Heyətin həftəlik görüşlərinə və keyslərin müzakirəsi ilə bağlı görüşlərə qatılır;
9. Təlim proqramlarında işçi heyətinin və özünün peşəkarlığının artırılmasına öz töhfəsini verir;
10. Kliyentin və özünün təhlükəsizliyi qaydalarına riayət edir.

**Sığınacağın yardımçı personalı:**

1. Birgəyaşayış və təhlükəsizlik qaydalarına riayət edilməsini və ümumi nəzarəti həyata keçirir;
2. Sığınacaqda sanitar-gigiyenik norma və qaydalara riayət edilməsini təmin edir;
3. Sığınacağın hamının çıxışı olan otaqlarından və ərazilərindən istifadə qaydalarına, gündəlik cədvələ nəzarət edir;
4. Sığınacağın sanitar vəziyyətinin dəstəklənməsi və kliyentlərinin qidalanmasının təmin edilməsi məqsədilə ayrılmış maddi resursları idarə edir;
5. Sığınacağın kliyentlərinin təhlükəsizlik və davranış qaydalarına riayət etmələri barədə menecerə məlumat verir;
6. Ümumi heyət görüşlərində iştirak edir;
7. Şəxsi təhlükəsizliyinin qayğısına qalır.

### Heyət görüşü

Sığınacağın işçi heyətinin (komandasının) fəaliyyəti o zaman effektiv olur ki, fəaliyyət prosesi müəyyən edilmiş qaydalara müvafiq həyata keçirilsin, hətta işdən kənarda hər hansı bir əməkdaş ilə əlaqədar yetərli məlumat mövcud olsun. Bu məqsədlə heyət görüşlərinin keçirilməsi çox vacibdir.

Görüşlərin təşkili üçün müəyyən reqlament olmalı, burada aşağıdakılar müəyyən edilməlidir:

- Görüşün səbəbi;
- İclasların tələb olunan tezliyi;
- Heyətin ayrı-ayrı üzvlərinin görüşlərdə iştirak tezliyi;
- Görüşün moderatoru (qrupun rəhbəri və ya hər hansı üzvü).

### Heyət görüşünün növləri

1. Təşkilati – heyətin inzibati görüşləri. Cari inzibati məsələlərin təqdimatı və müzakirəsi; təşkilati məsələlərin müzakirəsi;
2. Heyətin yeni keyslərin və iş planının müzakirəsi üzrə görüşləri. Keys-menecerin təyini;
3. Heyətin dəstək üçün görüşü. Bunun məqsədi cari işlərin, xüsusilə ağır keyslərin müzakirəsi, keys-menecerlə əks əlaqə yaratmaq və ona emosional dəstək verməkdən ibarətdir.

## 3.2 Superviziya idarəetmə aləti kimi

**Superviziya kliyentin, əməkdaşın, heyətin, rəhbərin, təşkilatın, peşə maraqlarının ümumilikdə müdafiəsidir. Superviziyanın mahiyyəti standartlara riayət edilməsidir.**

Superviziyada əsas diqqət işçi heyətin öz hərəkətlərini, psixoloji vəziyyətini və işlə əlaqədar münasibətlərini qavraması, təhlili və dərk etməsinə yönəldilir.

Superviziyaya problemin açılışı, izahı kimi ixtisaslaşdırılmış məsləhət yardımı və psixoterapiyanın elementləri daxildir. Beləliklə işçi heyətinin üzvlərinin fəaliyyətində müsbət dəyişikliklər üçün konkret tədbirlərin həyata keçirilməsinə şərait yaradılır. Superviziya xidmətlərin göstərilməsini yaxşılaşdırmaq məqsədilə hər iki üsulundan istifadə edir.

### Superviziyanın funksiyaları

1. **İnzibati (idarəetmə):** Təşkilatın siyasətinə və təcrübəsinə uyğun olanları təmin etmək; prioritetlərin müəyyən edilməsi və iş bölgüsü; göstərilən xidmətlərə rəhbərliyi həyata keçirmək; məqsədlərin müəyyən edilməsi və görülmüş işlərin effektivliyinin qiymətləndirilməsi.

Təşkilatda çalışan hər kəs özündən yuxarı səlahiyyət malik olan başqa bir əməkdaşa hesabat verməyə borcludur. Sosial işçi başqa sosial işçiyə (məsələn, supervayzerə), müvafiq olaraq supervayzer menecerə və ya başqa bir əməkdaşa hesabat verir. Hər bir əməkdaş gördüyü işlər barədə məlumat verməlidir, idarəedici rol isə işin keyfiyyətini artırmaq məqsədilə digər işçinin necə işlədiyinə nəzarəti həyata keçirməkdən ibarətdir. İdarəetmənin rolu həmçinin, təşkilatın siyasətinin və prosedurlarının tətbiqi və yaxşı iş təcrübələrinin tətbiqinin təmin edilməsidir.

*A. yeni sosial işçidir, onunla söhbət zamanı supervayzer aşağıdakıları qeyd edir: "Bilirəm ki, keçən dəfə bizim ilk görüşümüzdə sığınacağın siyasəti və prosedurları barədə tanışlıq zamanı siz çox həyəcanlı idiniz. Bu gün mən sizinlə onları necə daha müvəffəqiyyətlə həyata keçirə biləcəyimiz haqqında danışmaq istəyirəm, xüsusi diqqəti isə yazılı qeydlərin aparılmasına yönəldəcəyik. Mən sizin qayğı planını necə hazırlamağınızla tanış olmaq və bu prosesdə mümkün çətinlikləri müzakirə etmək istəyirəm".*

2. **Təlim** təşkilatın öz işlərinin öhdəsindən daha yaxşı gəlmək və kliyentlərin dəyişən ehtiyaclarına uyğun olaraq yeni iş imkanlarının təşəbbüs edilməsi məqsədilə təhsilin davam etdirilməsi və peşəkarlığın inkişafı üçün işçi heyətinin stimullaşdırılmasıdır.

Heç kim hər şeyi bilə bilməz. Hətta əgər biz uzun müddət hər hansı bir işlə məşğul oluruqsa və fikirləşirik ki, biz bu işin öhdəsindən çox yaxşı gəlirik, bilməliyik ki, öyrənmək üçün həmişə nəsə var. Superviziya sosial işçinin gələcək təhsili və təlimi üçün öz ehtiyaclarının müəyyən edilməsində faydalı ola bilər.

Sosial işçinin superviziyada onun bilmədiklərinin müəyyən edilməsi və işdəki çətinliklərinin müzakirə edilməsi zamanı özünü rahat hiss etməsi çox vacibdir. Supervayzer işçinin bilik və bacarıqlarında güclü və zəif tərəflərinin, bununla da onun təlim ehtiyaclarının müəyyən edilməsinə kömək göstərməlidir. Ehtiyacların müəyyən edilməsinə köməkliklə yanaşı supervayzer həmçinin superviziya sessiyaları ərzində öz biliklərini bilavasitə sosial işçilərlə bölüşə bilər.

*M. xaricdə cinsi istismara məruz qalan 14 yaşlı P ilə işləyən sosial işçidir. M superviziyanın rəhbərinə deyir ki, o P-yə daha yaxşı yardım göstərmək iştəyir, lakin onun cinsi zorakılıq qurbanları ilə işləmək sahəsində bilikləri çox azdır. Supervayzer M-ə köməklik göstərilməsi məqsədilə kurs tapmaq üçün təlim mərkəzləri ilə əlaqə yaradır. O həmçinin M-ə lazımlı ədəbiyyat və faydalı internet səhifələri məsləhət görür.*

Superviziyanın əsas vəzifələrindən biri də təcrübə mübadiləsi və təlim üçün imkanların yaradılmasıdır. Buna superviziyada iştirak edən şəxsin peşəkar inkişafına yönəlmiş şəxsi təhsil prosesinə dəstək və yardım daxildir. Superviziya prosesində əsas prioritet təlimə olan ehtiyacın müəyyən edilməsidir. Bu işdə supervayzerin rolu isə təlimi daha səmərəli üsullarla dəstəkləməkdir.

3. **Dəstək** işçi heyətinə iş zamanı yaranan stresslərin öhdəsindən gəlməyə yardım edilməsidir.

   Dəstək superviziyanın bir hissəsi kimi praktiki və emosional olmalıdır. Superviziya sessiyası zamanı əməkdaşın öz təcrübəsi haqqında açıq şəkildə danışmağa imkanı olmalı, supervayzer isə diskussiya və təlimin digər üsulları ilə bağlı praktik məsləhətlər verməlidir.

   Emosional dəstək çox əhəmiyyətlidir, çünki hər bir şəxsin əslində özünü necə hiss etməsi barədə danışmağa ehtiyacı vardır. Sosial iş asan hesab edilmir, o həm emosional, həm də fiziki mənada çox mürəkkəb fəaliyyətdir. İşçi heyəti bir çox gərgin və problemli situasiyalarla qarşılaşır. Ona görə də sosial işçinin öz hissləri ilə bölüşməsi imkanının olması çox vacibdir.

*B. 10 ildir ki insan alveri qurbanlarına yardım mərkəzinin əməkdaşıdır. O bu gün superviziyaya gələrkən çox qəzəbli idi. Rəhbər nə baş verməsi barədə ondan sorusduqda, o bildirdi ki, o eyni zamanda həm qəzəbli, həm də məyusdur, ona görə ki, onun kliyentlərindən biri bədənində çoxlu göyərtilər və çapıqlarla sığınacağa müraciət etmişdir. O bildirdi ki, əri qadını bərk döymüşdür, lakin zərər çəkmiş qadın bununla bağlı heç nə etmək istəmir. Bu məsələ ilə əlaqədar rəhbərin qərarı belə oldu ki, B. ilk öncə öz hissləri haqqında danışsın, daha sonra zərərçəkmiş qadının müdafiəsi prosedurunu müzakirə etsinlər.*

---

**Supervayzerin bütün funksiyaları bir-biri ilə əlaqədardır. Bir funksiyadan istifadə etmədən digər funksiyanı səmərəli şəkildə yerinə yetirmək qeyri mümkündür. Superviziya bir zərurətdir!**

---

## Superviziyanın prosedurları

### Superviziyanın başlanğıcı

Supervayzer və superviziya olunan əməkdaş ilk dəfə görüşərkən hər iki tərəfin görüşdən nə gözlədiklərini müzakirə etmələri vacibdir. Yeni sosial işçinin bəlkə də superviziya üzrə təcrübəsi yoxdur. Buna görə də rəhbər superviziyadan əvvəl nəyin baş verəcəyini və nəticə olaraq nəyə nail olunacağını izah etməyə vaxt ayırmalıdır. Təcrübəli işçilər üçün isə əvvəlki superviziya təcrübələrinin təhlili vacibdir.

### Superviziyanın formatı

Superviziya sessiyası müəyyən formata malikdir, məhz bu xüsusiyyət onu əməkdaşların peşəkar mövzular haqqında səmimi söhbətdən fərqləndirir. Superviziya zamanı müəyyən struktura malik olmaq, məsləhət vermə bacarıqlarından istifadə etmək və əks-əlaqə prinsiplərinə riayət etmək lazımdır. Bir çox insanlar superviziyanı ayrı-ayrı insanların söhbəti kimi təsəvvür edirlər. Reallıqda isə superviziya müxtəlif yollarla həyata keçirilə bilər.

1. **Təkbətək:** rəhbər və ya digər daha təcrübəli mütəxəssis işçi heyətinin üzvlərindən birini superviziya edir.

2. **Cüt:** rəhbər və ya digər daha təcrübəli mütəxəssis işçi heyətinin iki üzvünü birlikdə superviziya edir.
3. **Bərabər:** eyni səviyyəyə malik əməkdaşlar bir-birlərini superviziya edirlər.
4. **Qrup:** eyni səviyyəyə malik əməkdaşlar bir qrupda superviziya alırlar.

**Superviziya** hədəflərə nail olmaq üçün müəyyən üsullarla, fərdi və ya qrup şəklində planlaşdırılmış görüş formasında olur. Belə görüşlər müəyyən və qeyri-müəyyən müddətə, ümümi və spesifik mövzular (planlı superviziya) üçün təşkil oluna bilər.

**Superviziyanın üsulları**

Sosial işçilər superviziyadan qorxmamalı, onu gözləməlidirlər. Bu işçi üçün motivasiya rolunu oynamalıdır. Supervayzer öz şəxsi superviziya üslubunu inkişaf etdirməli və superviziya zamanı müxtəlif üsullardan istifadə etməlidir.

**Supervayzerin üslubları**

***Müdaxiləçi***
Supervayzer aşağıdakı üsullarla söbhətə birbaşa və ya direktiv müdaxilə edə bilər:

- Göstərmək: məsləhətlərin və göstərişlərin verilməsi;
- Məlumatlandırmaq: informasiya vermək;
- Reaksiya vermək: əks əlaqəni təmin etmək.

***Vasitəçi***

Supervayzer superviziya olunan şəxsin nəyə qadir olduğunu qiymətləndirən zaman:

- onu öz hisslərini ifadə etməyə həvəsləndirir;
- refleksiyaya və qərar qəbul edilməsinə həvəsləndirir;
- təcrübəsini artırmağa dəstələyir.

Superviziya alətləri barədə daha ətraflı məlumat, həmçinin superviziyaya şəxsi hazırlıq blankı *Əlavə 13-də* verilir.

## 3.3 Peşəkar yanma (tükənmə) sindromu

Peşəkar yanma (tükənmə, ingiliscə “burnout”) xarakterinə görə digər insanlara yardımın göstərilməsi ilə bağlı peşələrdə çalışan insanlarda idealizmin, enerjinin, təcrübənin, hisslərin tədricən itirilməsidir (buna kifayət qədər hazırlıqlı olmamaq, işin çoxluğu, əmək haqqının azlığı, bürokratiya, razı qalmayan müştərilər və s. amillər də təsir göstərir.).

“Yanma” (emosional tükənmə) termini amerika psixiatrı Froudenberqer tərəfindən 1974-cü ildə təklif edilmişdir. Bu zaman o sağlam insanların emosional cəhətdən yüklənmiş atmosferdə kliyentlərinə yardım göstərməsi prosesində onlarla intensiv münasibətdə olduğu zaman yaranan psixoloji vəziyyətlərini təsvir etmişdir. Froudenberqer qeyd edirdi ki, peşəkar yanma sosial yardımın göstərilməsi sahəsində peşəkarların digər şəxslərin problemləri ilə həddindən artıq yüklənmələri səbəbindən enerjilərinin tükənməsidir.

**Emosional yanma sindromu aşağıdakı təzahürlərə malikdir:**

- Laqeydlik hissi;
- Emosional tükənmə;
- Düşkünlük (insan əvvəlki kimi işə köklənə bilmir);
- Dehumanizasiya (öz həmkarlarına və kliyentlərə mənfi münasibətin inkişafı);
- Peşəkar planda özünü neqativ qavrama (peşəkar bacarıqlarının çatışmazlığı hissi);

**Fiziki simptomlar:**

- Halsızlığın kəskin artması;
- Xroniki yorğunluq;
- Baş ağrıları;
- Xarici mühitin dəyişikliklərinə qarşı həssaslıq;
- Arterial təzyiqin dəyişiklikləri;
- Asteniya (gücsüzlük, zəiflik)
- Boyun hərəkətlərinin məhdudluğu, kürəkdə ağrılar
- Qeyri-ixtiyari hərəkətlər - yumruqların sıxılması, əl-qolu bağlı saxlamaq
- Çəkinin artması və ya azalması;
- Tənginəfəslik;
- Yuxusuzluq;
- Cinsi disfunksiya

**Emosional simptomlar:**

- Emosiyaların çatışmazlığı, qeyri-emosionallıq;
- İşdə və şəxsi həyatda pessimizm və quruluq;
- Biganəlik və yorğunluq;
- Məyusluq və acizlik hissi, ümidsizlik;
- Əsəbilik, aqressivlik;
- Həyəcan, irrasional həyəcan hissinin güclənməsi, fikrini cəmləmək qabiliyyətinin itirilməsi;
- Depressiya, günah hissi;
- Əsəb hönkürtüləri, isterikalar, ruhi əzab;
- İdealların, ümidlərin peşəkar perspektivlərin itirilməsi;
- Depersonalizasiyanın artımı (insanlar manekenlər kimi simasız olurlar,)
- Tənhalıq hissinin üstünlük təşkil etməsi.

**Davranış simptomları:**

- İş vaxtı həftədə 45 saatdan çoxdur;
- İş günü zamanı yorğunluğun meydana gəlməsi və işi dayandırmaq, istirahət etmək arzusunun meydana çıxması;
- Yeməyə qarşı biganəlik;
- Az hərəkətlilik;
- Tütündən, spirtli içkilərdən,dərmanlardan istifadəyə haqq qazandırma;
- Bədbəxt hadisələr (məsələn, zədələr, yıxılmalar, qəzalar və s.);
- İmpulsiv emosional davranış.

**İntellektual simptomlar:**

- İşdə yeni nəzəriyyələrə və ideyalara marağın azalması;
- Problemlərin (məsələn, işdə) həllində alternativ yanaşmalara marağın azalması;
- Kədərin, həvəssizliyin artması və ya cəsarətin , zövqün, marağın çatışmazlığı;
- Yaradıcı yanaşmalardan daha çox standart şablonlara, köhnə üsullara üstünlüyün verilməsi;
- Yeniliklərə qarşı biganəlik;
- İnkişafetdirici təlimlərdə zəif iştirak və ya iştirakdan imtina;
- İşin formal icrası.

**Sosial simptomlar:**

- Sosial fəallıq üçün vaxtın və ya enerjinin olmaması;
- Hobbiyə və boş vaxtın planlaşdırılmasına fəallığın və marağın azalması;
- Sosial əlaqələrin yalnız işlə məhdudlaşdırılması;
- Həm evdə, həm də işdə başqa insanlarla məhdud münasibətlər;
- Təcrid olunma, başqalarını anlamamaq və başqaları tərəfindən anlışılmamaq hissi;
- Ailə, dostlar, iş yoldaşları tərəfindən dəstəyin çatışmazlığı hissi.

**Yanma tədricən baş verir: I mərhələ 3-5 il, ikinci mərhələ 5-15 il, 3-cü mərhələ isə 10 ildən 20 ilədək davam edir. O xroniki cəhətdən kəskinləşə və yeni xəstəliklərin yaranmasına səbəb ola bilər.**

**“Peşəkar yanma” sindromunun necə qarşısını almaq olar:**

1. Özünüzü sevin;
2. Özünüzə qarşı diqqətli olun: bu eyni zamanda sizdə yorğunluğun birinci simptomlarını müşahidə etməyə kömək edəcək;
3. Sizi əsasən nəyin narahat etdiyini aydınlaşdırın;
4. İşdə xoşbəxtlik və ya qurtuluş axtarmağı dayandırın;
5. Yalnız iş üçün deyil, şəxsi həyat üçün də vaxt ayırın;
6. Başqalarının həyatını yaşamağı dayandırın. Öz şəxsi həyatınızı yaşayın. İnsanların yerinə deyil onlarla birlikdə yaşayın;
7. Əgər siz kiməsə kömək etmək və ya onun işini görmək istəyirsinizsə özünüzdən soruşun: bu ona elə təcili lazımdırmı? Bəlkə o özü bu işin öhdəsindən gələ biləcək?;
8. Öz gününüzü planlaşdırın;
9. “Taym-autlar” edin. Psixi və fiziki sağlamlığın təminatı üçün işdən və başqa yüklənmələrdən dincəlmək çox əhəmiyyətlidir;
10. Öz emosiyalarınızı idarə etməyi öyrənin;
11. Sizdə nəyinsə alınmayacağı fikrindən çəkinin;
12. Gülümsəyin, hətta bunu o qədər də istəmirsinizsə;
13. Gündə ən azı 30 dəqiqə fiziki çalışmalar edin;
14. “YOX” deməyi bacarın;
15. Vitamin E və başqa faydalı qidalar qəbul edin.

**Müntəzəm superviziya yanma sindromunun qarşısını alır!**

# 4 İNSAN ALVERİ QURBANLARINA YARDIM SİSTEMİNDƏ İSTİQAMƏTLƏNDİRMƏ VƏ QARŞILIQLI FƏALİYYƏT MEXANİZMİ

**İstiqamətləndirmə Sistemi və ya İstiqamətləndirmə və insan alveri qurbanlarına yardım üzrə Milli Mexanizm təkcə insan alverinə qarşı mübarizə sahəsində tədbirlərin əlaqələndirilməsini təmin edən qurumları yox, həmçinin insan alveri qurbanlarına həm milli, həm də regional səviyyələrdə kompleks yardımı təmin edən müəyyən səlahiyyətlərə və funksiyalara malik orqan və təşkilatları özündə birləşdirir.**

Azərbaycanda insan alveri qurbanları üzrə Milli İstiqamətləndirmə Mexanizminin yaradılması ilk növbədə beynəlxalq və milli standartların tələblərinə riayət edərək zərərçəkmiş şəxslərə kompleks yardım göstərilməsinin effektiv sisteminin təmin edilməsi zəruriliyi ilə bağlıdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 23 sentyabr tarixli Qərarı insan alveri qurbanlarına yardım sahəsində fəaliyyət göstərən bütün mərkəzi icra hakimiyyəti orqanlarının (və onların struktur bölmələrinin) qurumlar arası qarşılıqlı fəaliyyət mexanizmlərini müəyyən edir.

Qeyri-hökumət təşkilatlarının insan alveri qurbanlarına yardım göstərilməsi üzrə Milli İstiqamətləndirmə Mexanizminin fəaliyyətinə cəlb edilməsi vacibdir. Dövlət qurumları və qeyri-hökumət təşkilatları arasında əməkdaşlıq nə qədər geniş olarsa, insan alveri qurbanlarının müəyyən edilməsi və onlara keyfiyyətli yardımın göstərilməsi səmərəliliyi bir o qədər yüksək olar.

Beynəlxalq və milli təcrübə göstərir ki, dövlətin insan alveri qurbanlarına kompleks yardım göstərən (sığınacağın nümunəsində) qeyri-hökumət təşkilatlarına dəstəyi yalnız göstərilən sosial yardım və xidmətlərin keyfiyyətinin artırılmasına deyil, həmçinin insan alverinə qarşı mübarizə sahəsində bütün milli subyektlərin qarşılıqlı fəaliyyəti sahəsində siyasətin yeni səviyyədə formalaşdırılmasına imkan yaradır.

Bu cür qarşılıqlı fəaliyyətin təşkili aşağıdakı prinsiplərə əsaslanır:

- Zərər çəkmiş şəxslərə yardımla bağlı məsələlərin həllinə *çoxşaxəli yanaşma*;
- Dövlət orqanlarının, ictimai və beynəlxalq təşkilatların *sıx əməkdaşlığı*;
- Məxfilik prinsipinə əməl etmək şərtilə tərəflərin *qarşılıqlı məlumat mübadiləsi*;
- Məsuliyyətin və səlahiyyətlərin *dəqiq bölgüsü*;
- Görülən tədbirlərin nizamlılığı və qarşılıqlı razılaşdırılması, bütün subyektlərin işinin *koordinasiyası*;
- Məlumat və təcrübə *mübadiləsi*.

Belə olan halda insan alveri qurbanlarına yardım göstərilməsinə yönəldilmiş fəaliyyətin əsasında aşağıdakı prinsiplər dayanır:

- Vətəndaşların əsas hüquq və azadlıqların təmin edilməsi: xüsusilə şərəf və ləyaqətinə və şəxsi həyatına hörmət, hüquqi yardım, qanunla müəyyən edilmiş qaydada maddi və mənəvi zərərin ödənilməsi;
- Zərər çəkmiş şəxslərin maraqlarının prioritetliyi;
- İrqinə, dərisinin rənginə, cinsinə, siyasi, dini, milli və sosial mənsubiyyətinə, yaşayış yerinə, əmlak vəziyyətinə və digər əlamətlərə əsasən onların diskriminasiyasına yol verilməməsi;
- İnsan alverindən zərər çəkmiş insanların şəxsi məlumatlarının məxfiliyinə zəmanət;
- Zərər çəkmiş şəxsin yardım proqramında könüllü iştirakı;
- Yardımın ödənişsiz (əlçatan) olması.

İnsan alveri qurbanlarına yardım göstərilməsi və onların müdafiəsinin səmərəli təşkili üzrə Milli İstiqamətləndirmə Mexanizminin subyektləri bu kateqoriyadan olan şəxslərin yaşını, sağlamlıq vəziyyətini, cinsini və xüsusi ehtiyaclarını nəzərə almalıdırlar.

Müvafiq sahədə qeyri-hökumət təşkilatlarının fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, insan alveri qurbanlarına yardım göstərilməsinin bütün mərhələlərində onların fəallığı və peşəkar yanaşmasına ehtiyac vardır. Sığınacağın təşkili insan alveri qurbanlarına yardım göstərilməsinin ən vacib, eyni zamanda çox mürəkkəb üsullarından biridir. Mövcud qeyri-hökumət təşkilatlarının bazasında sığınacaqların yaradılması və fəaliyyəti insan alverindən zərər çəkmiş şəxslər qrupuna tam həcmdə yardım göstərilməsinə imkan verir. Bu sahədə əməkdaşlığın növbəti vacib addımlarından biri də Azərbaycanın müvafiq sahədə təcrübəyə malik qeyri-hökumət təşkilatları tərəfindən sosial sifarişlərin həyata keçirilməsi ola bilər.

## Sığınacaq və mərkəzlərin hüquq-mühafizə orqanları ilə əməkdaşlıq yolları

12 dekabr 2000-ci ildə imzalanmış və Azərbaycan Respublikasının 2003-cü il 13 may tarixli Qanunu ilə təsdiq edilmiş BMT-nin “Transmilli mütəşəkkil cinayətkarlığa qarşı” Konvensiyası, “İnsanlarla, xüsusilə də qadın və uşaqlarla ticarətin qarşısının alınması, qadağan edilməsi və cəzalandırılması haqqında” Protokol, həmçinin 20 sentyabr 2002-ci ildə qəbul edilmiş “İnsan alverinin qarşısının alınması və ona qarşı mübarizə haqqında” Brüssel Bəyannaməsinə əsasən Azərbaycan Respublikası Prezidentinin 6 may 2004-cü il tarixli Sərəncamı ilə “*Azərbaycan Respublikasında İnsan Alverinə qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı*” təsdiq edilmişdir.

Milli Fəaliyyət Planına əsasən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin 19 may 2004-cü il tarixli əmri ilə Azərbaycan Respublikasının Daxili İşlər Nazirinin Müavini Milli Fəaliyyət Planının həyata keçirilməsi üzrə məsul şəxs- **Milli Koordinator** təyin edilmiş və **İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsi** yaradılmışdır.

İdarə insanın şərəf və ləyaqətini alçaldan insan alverinin qarşısının alınması və onunla mübarizə, insan alveri qurbanlarının müdafiəsi, Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının qanunları və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən insan və vətəndaş hüquq və azadlıqlarını cinayətkar qəsdlərdən qoruyan və bu məqsədlə qanunvericiliklə müəyyən edilmiş qaydada təhqiqat orqanı funksiyasını və əməliyyat-axtarış fəaliyyətini həyata keçirən ixtisaslaşdırılmış struktur bölməsidir.

İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsi yardım göstərən QHT-lərlə telefonla əlaqə yaratmaq, təhlükəsiz sığınacaq sahəsində əməkdaşlıq edərək, aşağıdakı **funksiyaları** yerinə yetirir:

- İnsan və uşaq alveri, onların qanunsuz olaraq ölkə hüdudlarından kənara daşınması, məcburi əməyə cəlb edilməsi, fahişəlik, həmçinin qanunvericiliklə müəyyən edilmiş digər cinayətlərin açılmasının təmin edilməsi;
- Cinayət aktları nəticəsində dəymiş zərərin kompensasiyası üzrə tədbirlərin həyata keçirilməsi;
- İnsan alveri cinayətləri ilə bağlı məlumatların vahid mərkəzdə toplanması və saxlanılması;
- İnsan alveri cinayətlərinin qarşısının alınması və açılması, bu cinayəti törədən və ya təşkil edən şəxslərin müəyyənləşdirilməsi, qurbanların, həmçinin bu cür cinayətlərin ehtimal olunan qurbanlarının həyatının, sağlamlığının, hüquq və azadlıqlarının müdafiəsi;
- Qurbanların repatriasiya olunacağı müddətə qədərki dövrdə və onların cəmiyyətə reinteqrasiyası zamanı təhlükəsizliyinin təmin edilməsi;
- Qurbanların və insan alverinin ehtimal olunan qurbanlarının təhlükəsiz sığınacaqlara yerləşdirilməsi, onların təhlükəsizliklərinin və sığınacaqların müdafiəsinin təmin edilməsi;
- Qurbanlar və ehtimal edilən insan alveri qurbanları ilə əlaqələrin saxlanılması, onlara peşəkar yardımın göstərilməsi;
- Təhlükəsiz sığınacaqda qurbanlar və ehtimal edilən insan alveri qurbanlarının işləri üzrə ilkin araşdırmaların aparılması (lazım gələrsə, hüquqi yardım göstərən şəxsin iştirakı ilə);
- İnsan alveri və qanunsuz miqrasiyanın doğurduğu təhdidlər barədə ictimaiyyətin maarifləndirilməsi və məlumatlandırılması məqsədi ilə müvafiq tədbirlərin həyata keçirilməsi;
- Transmilli və regionlararası insan alveri cinayətlərinin qarşısının alınması, Beynəlxalq konvensiya və müqavilələrə əsasən, həmçinin xarici ölkələrin polis orqanları ilə məlumat və təcrübə mübadiləsinin həyata keçirilməsi üzrə beynəlxalq təşkilatlarla əməkdaşlığın həyatakeçirilməsi.[19]

Hüquq-mühafizə orqanları ilə əməkdaşlıq qeyri-hökumət təşkilatlarının fəaliyyətinin mühüm istiqamətidir. Aşağıdakı **istiqamətlərdə** əməkdaşlığın aparılması işinin səmərəliliyini daha da artırır:

- **İnsan alveri halları ilə bağlı statistik məlumat mübadiləsi.**

Həm yardımçı təşkilatlar, həm də hüquq mühafizə orqanları insan alveri cinayətləri barədə operativ məlumatlar almağa imkan verən müxtəlif əhali qrupları arasında aktiv fəaliyyət həyata keçirirlər. Cinayət faktiki hazırlıq və ya törədilmə mərhələsində ola bilər.

19 İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi// http://www.insanalveri.gov.az/?/az/menu/4/

İstənilən halda, həm hüquq-mühafizə orqanlarının, həm də insan alveri qurbanlarına yardım göstərən sığınacaq/mərkəzlərin əməkdaşları öz səlahiyyətləri çərçivəsində planlaşdırma və yeni fəaliyyət planının hazırlanması məqsədilə tendensiyalar, ərazilər, bu cinayətin törədə biləcəyi təhlükələr barədə informasiya mübadiləsində maraqlı olmalıdırlar. Hər iki tərəfin öhdəliklərinin çərçivəsini müəyyən edən əməkdaşlıq haqqında memorandumlar təhlükəsiz mühit və qarşılıqlı münasibətlərdə şəffaflığı təmin edir.

- **İlk növbədə təhlükəsizlik**

«İnsan alveri» cinayətləri və onunla paralel  törədilən digər cinayətlərin (zorlama, bədənə ağır xəsarət yetirmə, insan oğruluğu, silah, narkotik maddələrin saxlanması və istifadəsi) kriminal xarakteristikasını nəzərə alaraq, sığınacağın əməkdaşları insan alveri qurbanlarının və sığınacağın digər kliyentlərin, həmçinin şəxsi təhlükəsizliklərinin qayğısına qalmalıdırlar.

Birbaşa təhlükə hallarında hüquq-mühafizə orqanlarının məlumatlandırılması, qurbanların və cinayətin şahidlərinin müdafiəsi üzrə müvafiq tədbirlər dərhal həyata keçirilməlidir. Bu hallar uşaqla əlaqəli baş verdikdə, tədbirlər  qurban ilə müzakirə edilmədən uşağın ən yaxşı maraqları nəzərə alaraq həyata keçirilməlidir.

Bu məqsədlə rəsmi səviyyədə sığınacaqda mühafizə xidmətinin göstərilməsi sahəsində əməkdaşlığın aparılması da mümkündür. Çünki sığınacağın xarici görünüşündə fərqləndirici nişanların olmamasına baxmayaraq, insan alverçiləri və ya digər maraqlı şəxslərin müşahidə/izləmə yolu ilə qurbanlara və ya onlara qarşı şahidlik edə biləcək digər şəxslərə təsir etmək və ya onları aradan götürmək məqsədilə sığınacağın ərazisinə daxil olması ehtimalı var.

- **Ehtiyacların birgə qiymətləndirilməsi və insan alveri qurbanlarına hüquqi yardım göstərilməsi planının həyata keçirilməsinin birgə koordinasiyası**

İnsan alveri qurbanlarına hüquqi yardım və ya onların kompensasiya alması qurbanlara kompleks yardımın yalnız bir hissəsidir. Ona görə də hüquq-mühafizə orqanlarının nümayəndələrinin ehtiyacların, insan alveri qurbanlarının reinteqrasiyası planının  müzakirə olunduğu iclaslarda iştirak etməsi vacibdir. Həm sosial işçi, həm də hüquq mühafizə orqanının nümayəndəsi sistematik şəkildə reinteqrasiya tədbirləri və insan alveri qurbanlarına yardım planının «hüquqi yardım» hissəsi üzrə icrası dərəcəsi barədə mütəmadi olaraq məlumat mübadiləsi aparmalıdırlar.

Bu halda sığınacağın əməkdaşları sosial təminat, zəruri istintaq tədbirləri, o cümlədən məhkəmələrdə adekvat iştirak üçün psixoloji hazırlıq kontekstində hüquq-mühafizə orqanları və qurban arasında əlaqələndirici bənd rolunu oynayırlar.

- **Birgə təlim və ixtisasın artırılması**

Daha səmərəli əməkdaşlıq qeyri-formal təlim prosesində biliklərə birgə yiyələnmiş tərəfdaşlar arasında baş verir. Onlar bir-biri ilə hər iki tərəf üçün "anlaşılan dil"də danışaraq çox asanlıqla əlaqə yaradırlar. Fəaliyyətin səmərəliliyini artırmaq məqsədilə həm qeyri-hökumət təşkilatları, həm də

hüquq-mühafizə orqanları məlumat mübadiləsində maraqlı olmalıdırlar. Birgə təlimlərin təşkilinə qurumlararası yanaşma nəinki sosial tərəfdaşın işinin xüsusiyyətlərini dərk etməyə imkan verir, həmçinin hər iki tərəf üçün insan alveri qurbanlarına xidmətlərin keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş yeni zəruri peşə bacarıqları əldə etməyə imkan yaradır.

Beynəlxalq təcrübədə qeyri-hökumət təşkilatlarının və hüquq-mühafizə orqanlarının yalnız birgə təlimlərinin deyil, həmçinin əlaqələndirici görüşlərinin təşkilinin çoxlu pozitiv nümunələri mövcuddur.

Məsələn, sığınacağın əməkdaşı (məsələn, psixoloq) istismar və ya müxtəlif növ zorakılıq zamanı və ya onların nəticəsi olaraq qurbanın post-travmatik psixi pozuntularının dərəcəsinə dair ekspert qiymətinin verilməsi məqsədilə məhkəmənin və istintaq orqanının ekspert qiymətləndirməsinin həyata keçirilməsi prosesinə ekspert qismində cəlb edilə bilər.

Uşaqlarla bağlı hallarda, sığınacağın pedaqoqu və ya psixoloqu mülki-prosessual məcəllədə nəzərdə tutulmuş qaydada uşaqların dindirilməsi və ya üzləşdirilmələr zamanı iştirak edə bilərlər. Sığınacaqların əməkdaşlarının hazırlıq səviyyəsi yüksəkdir və onlar bu sahənin mütəxəssisləri hesab edilirlər. Bu amil də insan alveri üzrə cinayətlərin açılması və cinayətkarların layiq olduqları cəzanı alması üçün çox vacibdir.

"İnsan alveri"nin qurbanlarına keyfiyyətli yardım göstərilməsi tədbirlərin vacibliyini və məsuliyyətini nəzərə alaraq, hüquq-mühafizə orqanları ilə əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir.

Təhlükəsiz sığınacaqda yerləşdirilən və kompleks sosial yardım göstərilən qurban özünü daha inamlı hiss edir və öz ifadələrini tez-tez dəyişməyərək əməliyyat heyəti və ya müstəntiqlə açıq şəkildə əməkdaşlıq edir.

Beynəlxalq təcrübə və normativ sənədlərə əsasən insan alveri qurbanı hüquq-mühafizə orqanlarına müraciət və ya onlarla əməkdaşlıq formasını özü sərbəst şəkildə seçir. Beynəlxalq təcrübədə insan alveri qurbanının müəyyən edilməsindən etibarən onun hüquq-mühafizə orqanları ilə əməkdaşlıq etməsi barədə qəti qərar qəbul edilməsinədək olan müddət ("düşünmə müddəti") 30 gün müəyyən edilmişdir.

İnsan alveri qurbanları onlara qarşı törədilmiş cinayətlərə görə həmçinin, qanuni kompensasiya almaq hüququna malikdirlər. Bundan əlavə, Azərbaycan Respublikasının qanunvericiliyində insan alverindən zərər çəkmiş şəxslərə reinteqrasiya dövründə onun və ailəsinin həyati ehtiyaclarının ödənilməsi məqsədilə belə yardım nəzərdə tutulmuşdur.

**Əməkdaşlığın insan alveri qurbanlarının (şahidlərinin) məxfiliyi və ya cinayət təqibinin istintaq sirri ilə əlaqədar müəyyən riskləri də mövcuddur. Məhz buna görə sığınacağın əməkdaşlarının nəinki sığınacağın, həmçinin hüquq-mühafizə orqanlarının səlahiyyətləri barədə bilgilərə malik olması çox vacibdir.**

Sığınacağın əməkdaşları (bu sahədə qarşılıqlı fəaliyyət göstərən digər subyektlər) insan alverindən zərər çəkmiş şəxslərə və ya insan alverinin şahidlərinə anlaşıqlı şəkildə onların hüquqi yardım almaq imkanları barədə məlumat verməli, həmçinin cinayətkarlar və onların havadarları tərəfindən şəxsə və ailələrinə qarşı gələcəkdə yarana biləcək təhlükə riski barədə xəbərdar etməlidirlər. Qərar qəbulu prosesində ən mühüm məsələ gələcəkdə atılacaq addımlarla, hərəkətlərlə bağlı zərər çəkmişin şüurlu (məlumatlı) seçim etməsidir.

# ƏDƏBİYYAT


1. Amerika psixiatrik assosiasiyası diaqnostika və psixi pozuntuların statistikası üzrə Məlumat kitabçası, 4-cü nəşr, - Vaşinqton,1994 (İngilis dilində) http://www.who.int/classifications/icd/en/bluebook.pdf

2. ATƏT-in demokratik təsisatlar və insan hüquqları üzrə bürosu, İnsan alverinin qurbanlarının milli səviyyədə istiqamətləndirmə mexanizmləri: İnsan alverinin qurbanlarının hüquqlarının müdafiəsi üzrə səyləri birləşdirərək, praktik təlimatlar, Varşava (Rus dilində) http://www.osce.org/ru/odihr/13968?download=true

3. İnsan alveri: potensial və güman olunan qurbanların müəyyən edilməsi. İcma-əsaslı polis yanaşması (ATƏT 2011) (İngilis dilində) http://www.osce.org/secretariat/78849?download=true

4. BƏT-in "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" Konvensiyası, №182. 1999, http://www.e-qanun.az/framework/5412

5. İnsan alverinə qarşı mübarizə üzrə proqramın təlim modulları: məqsədli qrup zəif uşaqlar, CATCH & SUSTAIN (2013 – 2015) Proqramı (İngilis dilində) http://www.diakonia.sk/data/files/88_anti-trafficking-intervention-programme-targeted-to-vulnerable-children.pdf

6. "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu http://www.genprosecutor.gov.az/files/file/Insan_alverine_qarshi_mubarize_haqqinda.doc

7. BMT-nin «Uşaq hüquqları haqqında» Konvensiyası https://www.unicef.org/magic/media/documents/CRC_azeri_language_version.pdf

8. "Köləliyin, qul ticarətinin və köləliyə oxşar institutların və adətlərin ləğv olunması haqqında" BMT-nin Əlavə Konvensiyası (1956) http://www.genprosecutor.gov.az/files/file/Koleliyin_qul_ticaretinin_legv_olunmasi_AR_qanunu.doc

9. Transmilli təşkil olunmuş cinayətə qarşı qarşı BMT-ın Konvensiyasları və onların dair protokollar üzrə danışıqların gedişi haqqında rəsmi hesabatlara izahedici qeyd (İngilis dilində) http://www.europarl.europa.eu/RegData/docs_autres_institutions/commission_europeenne/com/2003/0512/COM_COM(2003)0512(PAR2)_EN.pdf

10. BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyasının, onu tamamlayan "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" və "Miqrantların quru, dəniz və hava ilə sərhəddən qanunsuz keçirilməsinə qarşı" Protokolları http://www.fiu.az/images/documents/az/beynelxalq_senedler/palermo.pdf

11. "İnsan alverinə və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarına qarşı mübarizə haqqında" Konvensiya http://www.genprosecutor.gov.az/files/uploader/Insanlarla_ticarete_fahisheliyin_istismarina.doc

**12.** "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyası (CETS № 201), https://rm.coe.int/168046e1e5

**13.** "İnsan alverinə qarşı mübarizə haqqında" Avropa Şurasının Konvensiyası http://www.e-qanun.az/framework/doc/19607

**14.** Beynəlxalq Əmək Təşkilatının"İcbari və ya məcburi əmək haqqında" Konvensiyası , №29 (Rus dilində) http://www.ilo.org/wcmsp5/groups/public/---ed_norm/---normes/documents/normativeinstrument/wcms_c029_ru.htm

**15.** "İnsan alveri ilə bağlı hesabat", 2016. ABŞ Dövlət Departamenti (İngilis dilində) https://www.state.gov/documents/organization/258876.pdf

**16.** Məcburi əmək, müasir köləlik və insan alveri haqqında statistika, Beynəlxalq Əmək Təşkilatı, 2017 BƏT, Məcburi Əməyin Qlobal Statistikası (İngilis dilində) http://www.ilo.org/global/topics/forced-labour/statistics/lang--en/index.htm

**17.** Köləliyin müasir formaları,BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının İdarəsi http://www.ohchr.org/Documents/Publications/FactSheet14en.pdf

**18.** İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi http://www.insanalveri.gov.az/?/az/menu/4/

**19.** İnsan alveri qurbanlarının müəyyən edilməsi Qaydaları barədə Nazirlər Kabinetinin 131 saylı 3 sentyabr 2009-cu il taxirli qərarı. http://www.genprosecutor.gov.az/files/file/Insan_alveri_qurbanlarinin_mue_edilmesi_qaydalari_indikator.doc

**20.** Beynəlxalq Səhiyyə Təşkilatının insan alverindən zərər çəkmiş qadınlarla müsahibənin keçirilməsi zamanı etika qaydaları və təhlükəsizliyin təmin olunmasına riayət edilməsi məsələləri üzrə Tövsiyələri (rus dilində) http://apps.who.int/iris/bitstream/10665/42765/5/9241546255_rus.pdf

ƏLAVƏ 1

# Ilkin söhbət alqoritmi



ƏLAVƏ 2

# İnsan alverindən zərər çəkmiş şəxslər üçün yaddaş vərəqəsi

## 1-ci tərəf

**(*Oxuyun və sizə qarşı edilmiş hərəkətləri qeyd edin*)**

- Əmək şəraiti və ya xidmətlər verilən vədlərə uyğun deyildi;
- Sərbəst hərəkəti məhdudlaşdırmışdılar;
- Doğma və yaxınlarla sərbəst şəkildə ünsiyyət saxlamağa icazə vermirdilər;
- İşin və ya xidmətlərin icra edilməsi üçün zor tətbiq edirdilər;
- Zorakılıq tətbiq edirdilər və / və ya hədələyirdilər;
- Əmək haqqını ödəmirdilər;
- Pasportu və ya şəxsiyyəti təsdiq edən başqa sənədləri almışdılar;
- Mövcud olmayan borcları ödəməyə məcbur edirdilər;
- Dilənçiliyə və ya digər qanunsuz fəaliyyətlə məşğul olmağa məcbur edirdilər.

*Əgər bu əlamətlərin bir neçəsini qeyd etmisinizsə, çox ehtimal ki, siz insan alveri cinayətindən zərər çəkmiş şəxssiniz.*

**DÖVLƏT SİZİN YARDIMA VƏ MÜDAFİƏYƏ OLAN HÜQUQLARINIZI TƏMİN EDİR**

## 2-ci tərəf

**SİZİN YARDIM ALMAQ HÜQUQUNUZ VARDIR:**

- **tibbi** (müayinə və müalicə);
- **sığınacaqla təmin edilmə;**
- **psixoloji** (məsləhət yardımı , emosional dəstək);
- **sosial-pedaqoji** (sosial əlaqələrin bərpası, sosial adaptasiyaya yardım);
- **hüquqi** (sənədlərin bərpası, hüquqi məsləhət yardımı, maddi və mənəvi zərərə görə kompensasiya üçün prosessual sənədlərin tərtib edilməsi, məhkəmədə vəkil xidməti);
- **birdəfəlik maddi yardım;**
- digər sosial ödəmələrin alınması hüququnun reallaşdırılmasına yardım;
- **ixtisasdəyişmə və ixtisasartırmaya yardım;**

- **işədüzəlməyə yardım;**
- **təhsil alınmasına yardım;**
- **mənşə ölkəsinə qaytarılmasına yardım** (əcnəbilər üçün).

## Əlaqə məlumatın qeyd edilməsi üçün yer

ƏLAVƏ 3

# İnsan alveri qurbanının müəyyən olması üçün əsas indikatorlar

### Uşaq qurbanlarının müəyyən olunması

| Birbaşa (obyektiv) əlamətlər | |
|---|---|
| **hərəkətlər**–cəlb edilmə, yerdəyişmə, gizlədilmə, uşağın təhvil verilməsi və ya alınması<br><br>**məqsəd** - istismar<br><br>uşağın **alqı-satqısı** və/və ya uşağa münasibətdə digər **qanunsuz razılaşmalar** (dəyişdirmə, istifadə, borc verilməsi, bağışlama və s.) | Uşağın situasiyasının tarixçəsi |
| **Dolayı (subyektiv) əlamətlər** | |
| **Fiziki vəziyyət** | göyərtilər, çapıqlar, yaralar, barmaqlarla sıxma izləri, əşyalarla (qayışla, çubuqla) zərbələrdən yaranan izlər, yanıq izləri (məsələn, siqaret və ya alışqan), sümük sınıqları, çıxıqlar, daxili orqanların zədələri, cinsiyyət yolu ilə ötürülən xəstəliklər, baş ağrıları, somatik xəstəliklər, enurez, enkoprez, pəltəkləmə, yuxunun pozulması, spirtli içkilərdən və narkotik vasitələrdən asılılıq |
| **Psixoloji vəziyyət** | inkişafın ləngiməsi, biganəlik, aqressiya, laqeydlik, isteriya, keyləşmə, qapalılıq, qorxu, həyəcan, qəzəb, depressiya, həddən artıq passivlik, aşağı özünəqiymət, günah hissi, xəcalət, gecə qarabasmaları, intihara cəhdlər. |
| **Davranış reaksiyaları** | danışmaqdan imtina; barmaqların sorulması, yırğalanma, dırnaqların dişlənilməsi və ya dişləmək cəhdləri, şifahi təhqirlər, özünə və ya başqalara zərər yetirmək istəyi, haraya isə qaçmaq istəyi, ekssentrik davranış, davranışda dəyişikliklər |
| **Zahiri görünüş** | səliqəsizlik, mövsümə uyğun olmayan geyim, parlaq makiyaj |

## İnsan alveri qurbanlarını müəyyən edən ümumi obyektiv (birbaşa) və subyektiv (dolayı) indikatorlar

| Birbaşa (obyektiv) əlamətlər | |
|---|---|
| **hərəkətlər**–cəlb edilmə, yerdəyişmə, gizlədilmə, insanın təhvil verilmə və ya alınması<br><br>**üsullar** - yalandan, dələduzluqdan, şantajdan, zəif vəziyyətdən istifadə, zorakılığın tətbiqi və ya tətbiqinə təhdid, xidməti vəziyyətdən və başqa şəxsdən maddi və ya digər asılılıqdan istifadə və s.<br><br>**məqsəd** - istismar<br><br>**insanın alqı-satqısı** və/və ya insana münasibətdə digər qanunsuz razılaşmalar (dəyişdirmə, istifadə, borc verilməsi, bağışlama və s.) | Zərər çəkmişin tarixçəsi |
| **Dolayı (subyektiv) əlamətlər** | |
| **Fiziki vəziyyət** | - Göyərtilər,<br>- Çapıqlar,<br>- Yaralar,<br>- Yanıq izləri (məsələn, siqaret və ya alışqan),<br>- Sümük sınıqları, çıxıqlar,<br>- Daxili orqanların zədələri,<br>- Cinsi yolla keçən xəstəliklər<br>- Baş ağrıları,<br>- Yuxunun pozulması,<br>- Spirtli içkilərdən və narkotik vasitələrdən asılılıq. |

| | |
|---|---|
| **Psixoloji vəziyyət** | - Emosiyalarına nəzarət etməyin qeyri-mümkünlüyü;<br>- Özünə inamın olmaması;<br>- Qəzəb, düşmənçilik hissi;<br>- Aqressiya;<br>- Qorxu;<br>- Səbəbsiz həyəcan hissi;<br>- Acizlik hissi;<br>- Şok;<br>- Çaşqınlıq;<br>- Yaddaş pozuntuları;<br>- Günahkarlıq hissi;<br>- Depressiya;<br>- İntihara cəhd meylləri. |
| **Davranış reaksiyası** | - Ağlama;<br>- Qapalılıq;<br>- Danışmaq istəməmə<br>- İnsanların nəzərindən qaçmaq istəyi;<br>- Nümayişkaranə davranış;<br>- Baş vermiş hadisəyə görə özünü və başqalarını günahlandırma |
| **Zahiri görünüş** | Səliqəsizlik, mövsümə uyğun olmayan geyim, parlaq makiyaj |

## İnsan alverinin birbaşa və dolayı əlamətlərinə nümunələr:

Keys:

*16 yaşlı Y. peşə məktəbində I kursda oxuyur. O qəyyumluq və himayədən məhrum olmuş yetkinlik yaşına çatmayan şəxsdir və yataqxanada yaşayır. Yay tətilində digər uşaqların öz evlərinə getmələrinə baxmayaraq, Y yataqxanada qalır. Bir dəfə tanış bir şəxs Y-ya yay mövsümündə uşağa qulluq etmək üçün onunla birgə başqa şəhərə getməsini təklif edir. Bunun müqabilində ona yaxşı əmək haqqı, pulsuz yemək və yaşayış yeri söz verir. Y təkliflə razılaşaraq tanışının müşayiəti altında qatarla paytaxta yola düşür. Qatarda ona bildirirlər ki, o yük maşınlarının sürücüləri üçün cinsi xidmətlər göstərəcəkdir. Hər gecə o, 7-10 müştəriyə xidmət etməyə məcbur edilirdi, buna görə isə ona pul verməyərək, yalnız "iş"paltarı və bəzi yeməklərlə təmin edirdilər. Bir dəfə Y bütün bunlara dözməyərək qaçmağa səy göstərsə də, onu taparaq vəhşicəsinə döyürlər. O vaxtdan Y qorxur ki, yenidən qaçmağa cəhd etsə onu öldürəcəklər. Amma müştərilərdən biri ona qaçmağa kömək edir.*

**Dolayı əlamətlərə** aid etmək olar:

- Y-nın yaşını,
- cinsini
- sosial statusunu - yetim olması,
- qaçdıqdan sonra psixoloji durumunu - «*Y qorxurdu ki, bir də qaçmağa cəhd etsə onu öldürəcəklər*».

**Birbaşa əlamətlərə** aid etmək olar:

« *… tanış bir şəxs Y-ya yay mövsümündə uşağa qulluq etmək üçün onunla birgə başqa şəhərə getməsini təklif edir.*» - cəlb edilmə,

«*Y təkliflə razılaşaraq tanışının müşayiəti altında qatarla paytaxta yola düşür.*»- yerdəyişmə (daşınma),

«*Qatarda ona bildirirlər ki, o yük maşınlarının sürücüləri üçün cinsi xidmətlər göstərəcəkdir.*» - yalan,

- «*Y bütün bunlara dözməyərək qaçmağa səy göstərsə də, onu taparaq vəhşicəsinə döyürlər.*» - fiziki zorakılıq,

- «*Hər gecə o, 7-10 müştəriyə xidmət etməyə məcbur edilirdi, buna görə isə ona pul verməyərək, yalnız "iş" paltarı və bəzi yeməklərlə təmin edirdilər.*» - cinsi istismar.

ƏLAVƏ 4

# İnsan alverindən zərər çəkmiş qadınlarla müsahibənin etik və təhlükəsiz keçirilməsinin başlıca prinsipləri

1. **ZƏRƏR VERMƏYİN.**
   Hər situasiyada qadınla elə davranın ki, sanki ona fövqəladə bir zərər vura bilərsiniz. Həm qısamüddətli, həm də uzunmüddətli perspektivdə qadınların vəziyyətini pisləşdirəcək müsahibə aparmayın.

2. **ÖZ PREDMETİNİZİ BİLİN VƏ RİSKLƏRİ DÜZGÜN QİYMƏTLƏNDİRİN.**
   Müsahibənin keçirilməsindən əvvəl hər bir konkret hadisədə insan alverinin hansı risklərlə əlaqəli olduğunu araşdırın.

3. **Yardım göstərən təşkilat barəsində MƏLUMAT HAZIRLAYIN, icrası mümkün olmayan vədlər VERMƏYİN.**
   Qadınları öz doğma dilində və yerli dildə (əgər onlar fərqlidirsə) hüquqi, tibbi yardım, sığınacaq, sosial dəstək xidməti, təhlükəsizlik və yardım edilməsi ilə əlaqədar müraciət etdikdə aidiyyəti xidmətə yönləndirilməsi ilə bağlı məlumatla təmin edin;

4. **TƏRCÜMƏÇİLƏR VƏ ƏMƏKDAŞLAR SEÇİN VƏ ONLARI MÜVAFİQ OLARAQ HAZIRLAYIN.**
   Tərcüməçilərin, əməkdaşların və digər işçilərin işə qəbulu ilə əlaqədar riskləri və üstünlüklərini müəyyən edin, onların hazırlanması və uyğun olmayanların fəaliyyətdən azad edilməsinin müvafiq üsullarını hazırlayın;

5. **ANONİMLİYİ VƏ MƏXFİLİYİ TƏMİN EDİN.**
   Respondentin şəxsiyyətini sirr saxlayın, onunla əlaqənin qurulmasından onun hadisəsi ilə bağlı təfərrüatların bəyan edilməsinə qədər olan müsahibə müddətində məxfilik prinsipinə riayət edin;

6. **RESPONDENTİN hüquqlarının tanınmasına əsaslanan RAZILIQ ALIN.**
   Əmin olun ki, hər bir respondent müsahibənin məzmununu və məqsədini, məlumatdan necə istifadə ediləcəyini çox gözəl bilir. Respondentin suallara cavab verməmək, istənilən an müsahibəni dayandırmaq və məlumatlarından istifadəyə məhdudiyyət qoymaq hüququ vardır.

7. **QADININ ÖZÜNÜN DÜŞDÜYÜ VƏZİYYƏT VƏ TƏHLÜKƏSİZLİYİ İLƏ ƏLAQƏDAR ŞƏXSİ QİYMƏTLƏNDİRMƏSİNƏ HÖRMƏTLƏ YANAŞIN.**
   Bilin ki, hər bir qadını müxtəlif məsələlər narahat edir, onun həmin məsələlər barədə fikirləri başqalarının həmin məsələləri qiymətləndirməsindən fərqli ola bilər.

8. **QADINI TƏKRAR ZƏDƏLƏMƏKDƏN ÇƏKİNİN.**
   Emosional cavabların alınmasına yönəlmiş suallar qoymayın. Qadının iztirablarına reaksiya verməyə və onun güclü tərəflərini vurğulamağa hazır olun.

**9. Fövqəladə vəziyyətlərə HAZIR OLUN.**

Qadının onu təhdid edən təhlükə barədə məlumatına reaksiya verməyə hazır olun.

**10. UYĞUN ŞƏKILDƏ TOPLANILMIŞ MƏLUMATDAN İSTİFADƏ EDİN.**

Məlumatlardan insan alverindən zərər çəkmiş qadınların xeyrinə və onların vəziyyətinin yaxşılaşdırılması ilə bağlı müdaxilə siyasətinin və tədbirlərin hazırlanması məqsədilə istifadə edin.

ƏLAVƏ 5

# Sığınacaq sakini ilə razılaşma

**Sığınacaqda təhlükəsizlik qaydaları**

- Heç bir növ narkotik, spirtli içki, silah və digər qadağan olunmaş əşyalar Sığınacağa gətirilməməlidir;
- Sığınacaqda mobil telefonların istifadəsinə icazə verilmir. Sığınacağa qəbul olarkən belə əşyalar, işçi personalına saxlamaq üçün təqdim edilməlidir. Siz, Sığınacağı tərk edərkən şəxsi əşyalarınızı, yazılı aktla təhvil ala bilərsiniz;
- Sığınacağa qonaq gəlməsinə qəti icazə verilmir;
- Telefon danışıqları üçün, Sığınacağın direktorunun razılığı alınmalıdır. Telefonla danışarkən işçi personalının, danışıqları dinləmək hüququ var;
- Sığınacağın yeri, sakinlər və personal haqqında məlumatlar heç kimə bildirilməməlidir. Sığınacaq xidmətindən istifadə edən şəxslər, Sığınacağın işçi personalı və sığınacaqda yaşayan digər sakinlərin soyadını soruşmamalı və onlara soyadı ilə müraciət etməməlidir;
- Sığıcaqda yaşayan sakinlər öz ailə üzvlərinə və ya yaxın olan şəxslərə (dostlara, rəfiqələr, qohumlara, qonşulara) Sığnacaq təlimatları barədə heç bir məlumat verməməlidir;
- Sığınacaq Sakinləri, ünsiyyətdə olduğu şəxslərlə təmasa girərkən psixoloqun və işçi personalının məsləhətlərinə uyğun davranış qurmalıdır. Bu Sizin təhlükəsizliyinizin zəmanətidir;
- Telefon danışıqları zamanı və ya yasığınacaqdan kənarda baş vermiş hər-hansı şübhəli təmas və hərəkət barəsində dərhal işçi personalına məlumat verilməlidir.

## Öhdəlik:

Mən,________________________________________________ yuxarıda qeyd edilən təhlükəsizlik qaydalarını başa düşürəm və onların məsuliyyətini anlayıram. Mənə öz təhlükəsizliyim, sığınacaqdakı digər sakinlərin və işçi personalının təhlükəsizliyi üçün öhdəmə düşən məsuliyyət barədə məlumat verildi. Mən başa düşürəm ki, yuxarıda qeyd edilən təhlükəsizlik prosedurları və qaydalarından hər hansı birinə əməl etməsəm, gələcəkdə göstəriləcək hər hansı bir yardımdan məhrum ola bilərəm.

Eyni zamanda, mən öz adımdan, öhdəliyimdə olan şəxslərin adından zəmanət verirəm ki, bu proqramda iştirak etdiyim müddət ərzində, Sığınacaq qaydalarına tam əməl edəcəyəm. Mən tərəfdən Qaydalar pozulduğu halda, mən, hər hansı fiziki zədə ya da ölüm halları ilə üzləşərəmsə, iştirakçı tərflərin heç biri bu hadisəyə görə məsuliyyət daşımır.

İmza ____________________________ Tarix ________________________

Sosial işçi ________________________

ƏLAVƏ 6

# Təşkilatdan xidmət alan şəxsin qeydiyyat kartı

**1.** Soyad:

**2.** Ad:

**3.** Atasının adı:

**4.** Cinsi:

**5.** Doğum tarixi:

**6.** Milliyyəti:

**7.** Doğulduğu yer:

**8.** Faktiki və ya son qeydiyyatda olduğu ünvan:

**9.** Şəxsiyyət vəsiqəsi

| Sənədin növü | Seriyası, nömrəsi | Verilmə tarixi | Qüvvədə olduğu müddət | Kim tərəfindən verilib |
|---|---|---|---|---|
| Şəxsiyyət vəsiqəsi | | | | |
| Pasport | | | | |

**9.1.** Əlavə məlumat:

**10.** Təhsil:

**11.** Peşə:

**12.** Yaxın qohumlar haqqında məlumat

| № | Qohumluq əlaqəsi | A.S.A | Dogum tarixi | Qeydiyyat ünvanı |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |

**13.** Məhkumluq

| № | CM maddəsi | Həbs müddəti | Azad olma tarixi | Məhkumluğu çəkildiyi yer |
|---|---|---|---|---|
| | | | | |

**14.** Keçici xəstəliklər (vərəm, hepatit və s):

**15.** Sağlamlıq vəziyyəti:

**16.** İstiqamətləndirən təşkilat:

**17.** Şəxsin imzası:

**18.** Tarix:

**19.** Kartı dolduran mütəxəssisin A.S.A və imzası:

ƏLAVƏ 7

# İlkin qiymətləndirmə

## 1 Ümumi məlumat

| № | İstiqamət | Qeyd |
|---|---|---|
| 1 | Ad, soyadı, atasının adı | |
| 2 | Cinsi | |
| 3 | Dogum tarixi | |
| 4 | Polis və məhkəmə ilə bağlı hər hansı hərəkət | |
| 5 | Reabilitasiya prosesində iştirakı və onun dövrü | |
| 6 | Reinteqrasiya prosesinin başlama tarixi və yekunu | |

### YAŞAM VƏZİYYƏTİ

| Qiymətləndirmə | Qeyd |
|---|---|
| Hazırkı yaşam vəziyyəti | |
| Əvvəlki yaşam vəziyyəti | |
| Bakıda ( Azərbaycanda ildən bəri) | |

## Məktəb təhsili- ixtisaslaşma-peşə təhsili

| Qiymətləndirmə | | Qeyd |
|---|---|---|
| **Təhsil** | Məktəb təhsili | |
| | Məktəbi bitirmə | |
| | Peşə təhsili | |
| | Əlavə ixtisaslaşma | |
| **əmək fəaliyyəti** | İş təcrübəsi | |
| | Işsiz ( hansı dövrdən) | |
| | Hazırkı iş saat hesabı ilə | |

## Maddi vəziyyət

| Qiymətləndirmə | | Qeyd |
|---|---|---|
| **Gəlir** | növü | |
| | məbləği | |
| **Xərclər** | növü | |
| | məbləği | |
| **Borclar** | növü | |
| | məbləği | |

## Sağlamlıq

| Qiymətləndirmə | | Qeyd |
|---|---|---|
| **Sağlamlıq** | Ümumi sağlamlıq vəziyyəti | |
| | Kəskin infeksion xəstəlikləri | |
| | Hamiləlik və ya ginekoloji | |
| | Vərəm | |
| **Psixoloji** | Psixi durum | |
| | Psixiatrik diaqnozlar | |
| | Özünüqəsdə cəhd | |

## Vərdişlər

| Qiymətləndirmə | | Qeyd |
|---|---|---|
| **Vərdişlər** | alkoqol | |
| | Dərman vasitələri | |
| | Qeyri qanuni alışqanlıq vasitələri (narkotik) | |
| | Digərləri | |

## Psixososial durum

| Qiymətləndirmə | Qeyd |
|---|---|
| Valideynləri | |
| Bacı qardaşları | |
| Həyatında ən əhəmiyyətli insanlar | |

| | |
|---|---|
| Həyat yoldaşı | |
| Uşaqları | |
| Sosial əhatəsi | |
| Asudə vaxtını keçirməsi | |
| Evliliyin statusu ( dini və ya rəsmi nikah, erkən nikah) | |
| Evlilik tarixi | |
| Sosial qiymətləndirmə | |

## Şəxsi

| Qiymətləndirmə | qeyd |
|---|---|
| Həyat tarixçəsi | |
| Özünü qiymətləndirmə | |
| Gələcək perspektivləri | |

## Sosial işçinin qiymətləndirməsi

| Qiymətləndirmə | Qeyd |
|---|---|
| Ilkin rəy | |
| Reabilitasiya dövrü üçün müddətin təyin edilməsi | |

# 2 REABİLİTASİYA DÖVRÜ

## REABİLİTASİYA PROSESİNDƏ TƏMİN EDİLƏN XİDMƏTLƏR

| Reabilitasiya dövründə hansı xidmətlərdən bəhrələnmişdir və xidmətin nəticəsi | Təmin edilmiş | Qismən təmin edilmiş | Xidmətlərdən imtina etmiş | Xidmətlər təklif edilməmiş | Xidmətin nəticəsinin 10 ballıq sistemlə qiymətləndirilməsi (1-dən 10-dək) | Xidmət göstərən təşkilatlar |
|---|---|---|---|---|---|---|
| Sığınacaq | | | | | | |
| Psixoloji yardım | | | | | | |
| Tibbi yardım | | | | | | |
| Hüquqi yardım | | | | | | |
| Təhsil | | | | | | |
| Peşə kursları | | | | | | |
| İşlə təmin etmə | | | | | | |
| Uşaqların ehtiyaclarının təmini | | | | | | |
| Geyim | | | | | | |
| Qida | | | | | | |
| Maddi yardım | | | | | | |
| Məhkəmə prosesinin nəticələri | | | | | | |
| Ailəyə adaptasiya | | | | | | |

# 3 REİNTEQRASİYA PROSESİ

| Reabilitasiya dövründə hansı xidmətlərdən bəhrələnmişdir və xidmətin nəticəsi | Təmin edilmiş | Qimən təmin edilmiş | Xidmətlərdən imtina etmiş | Xidmətlər təklif edilməmiş | Xidmətin nəticəsinin 10 ballıq sistemlə qiymətləndirilməsi (1-dən 10-dək) | Xidmət göstərən təşkilatlar |
|---|---|---|---|---|---|---|
| Müvəqqəti yaşayış yeri | | | | | | |
| Psixoloji yardım | | | | | | |
| Əlavə tibbi yardım | | | | | | |
| Əlavə hüquqi yardım | | | | | | |
| Ailədə adaptasiya baş verib yoxsa yox | | | | | | |
| Peşə kursarını başa vurub | | | | | | |
| Təmin edilən iş yerində işini davam etdirirmi | | | | | | |
| Uşaqları ilə birgədirmi | | | | | | |
| Cəmiyyətə adaptasiya vəziyyəti | | | | | | |
| Kimin əhatəsindədir | | | | | | |
| İqtisadi durumunda dəyişiklik | | | | | | |
| Gəlir varmı | | | | | | |

## Sosial işçinin qiymətləndirməsi

| Qiymətləndirmə | Qeyd |
|---|---|
| Son rəy | |

ƏLAVƏ 8

# Fərdi iş planı

“___” ___ ___il

Təsdiq edirəm:

(təşkiların adı) (A.S.A. и və təşkilat rəhbərinin imzası)

Xidmət alanın A.S.A.:

Dogum tarixi, gün ay, il:

Təşklata daxil olma tarixi:

Xidmət alanın müşahidə dövrü vaxtdan vaxtadək

Fərdi planın hazıranması və icrası dövrü vaxtdan vaxtadək

## Xidmət alanın fərdi ehtiyaclara uyğun olaraq göstərilən xidmətlər ( xidmətin növləri və əhatəsini göstərmək):

| № | Xidmətin növü | Xidmətin əhatəsi (götərilən fərdi xidmətlərin ayrılıqda siyahısı) | Xidmət göstərən mütəxəssisin A.S.A və imzası və təyinat. | Təyin edilən xidmətin tarixi |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 1 | Sosial-məişət | | | |
| | | | | |
| | | | | |
| 2 | Sosial-tibbi | | | |
| | | | | |
| | | | | |
| 3 | Sosial psixoloji | | | |

| | | | | |
|---|---|---|---|---|
| 4 | Sosial pedaqoji | | | |
| | | | | |
| | | | | |
| 5 | Sosial –peşə<br><br>Sosial-əmək | | | |
| | | | | |
| | | | | |
| 6 | Sosial - mədəni | | | |
| | | | | |
| | | | | |
| 7 | Sosial -iqtisadi | | | |
| | | | | |
| | | | | |
| 8 | Sosial-hüquqi | | | |
| | | | | |
| | | | | |

Fərdi iş planına baxış tarixi “__” ________20___ года

Təşkilatın sosial işçisi ____________________ ______________________
(imza) (A.S.A., tarix)

ƏLAVƏ 9

# Psixoloji anket

**(Sığınacaga daxil olan zaman)**

1. S.A.A:
2. Doğum tarixi:
3. Doğulduğu ərazi:
4. Davranışın ümumi  xüsusiyyəti:
5. Zərərcəkmişin düşdüyü vəziyyət (travma,psixolojı sarsintı):**Travma. Psixolojı sarsıntı:**
6. İstismar zamanı zərərcəkmişin üzləşdiyi zorakılıgın növü(fiziki,psixolojı,seksual):
7. İstismardan əvvəlki zorakılıq (ailə,seksual):
8. Həyacan hissi nə ilə əlaqəlidir:
9. Şikəyətləri:
10. Emosional vəziyyəti (qorxu,əhval düşkünlüyü,depressiya,həyacan,günah hissi,əsəbi,qeyri sabit emossionallıq,qəzəb hissi, aqressiya):
11. Koqnetiv sahə (məntiq,süur,diqqət cəmlənməsi, əqli işgüzarlıq,yaddaş pozğunluğu):
12. Motorika (beyin,göz,el hissiyatı):
13. Psixolojı sarsintının verdiyi fəsadlar(yuxu pozgunlugu,ürək döyünmə,yuxu görmə və.s):
14. PAM qəbulu (alkoqol,narkotik asilligi):

**15.** Ətrafla ünsiyyət qabiliyyəti (uzaqlaşma, mühitə adaptasiya,ünsiyyət):

**16.** Ailə vəziyyəti (uşaq):

**17.** Təhsil:

**18.** İş və iş stajı:

**19.** Hobbi və bacarıqları:

**20.** Özünü idarə etmə (inpulsiv,gözlənilməz hərəkət,özünü idarə etməmə:

**21.** İntihara meyillilik (cəhdlər və ya fikirlər):

**22.** Davranışında ətrafdakılara təhlükə yaradacaq aqressivlik(orta,yüksək):

**23.** Psixiatrik simptomlar(halusinasiya,hərəkət,davraniş,göz təmasi pozgunlugu):

**24.** Psixiatr,narkoloq,nevropotoloq konsultasiyasına göndərmək:

**25.** Reabilitasiya dovru( 1 ay, 2 ay, 3 ay):

**26.** **1-ci seans nəticəsi:**

**27.** **2-ci seans nəticəsi:**

**28.** **3-cu seans nəticəsi:**

**29.** **Yekun:**

**Tarix:**

**Psixoloq:**

ƏLAVƏ 10

# Sığınacaq müqaviləsi

**(sığınacaği tərketmə ərizəsi)**

Mən:

ad, soy ad atasının adı

Doğum tarixi: doğulduğu yer:

Faktiki ünvan:

Qeydiyyat ünvanı:

Təhsil:

Sosial status:

Ailə vəziyyəti:

Uşaqların sayı:

Hansı hədəf qrupuna aiddir:

(ADZ, İQ, Sİ, roman, miqrant)

Əlaqə vasitəsi:

(monitorinq üçün özünün yaxud yaxınlarınan əlaqə tel, email, FB, skype ve s)

Sığınacağa daxil olma tarixi: tərk etmə tarixi:

Hazırda yaşadığınız ünvan varmı?

Sizin peşə bacarığınız varmı?

Hansı peşəyə yiyələnmək istərdiniz?

Sizin iş yeriniz varmı?

Əgər Sizə iş yeri təklif edilərsə, hansı sahədə əmək fəliyyətiniz davam etdirmək istərdiniz?

Ailəyə qayıdışınız mümkündürmü?

Sizin əlavə tibbi xdimətə ehtiyacınız varmı? Əgər varsa qeyd edin.

Sığınacaqda qaldığınız dövrdə xidmətlərlə bağlı rəyinizi qiymətləndirin.

| XİDMƏTLƏR | İŞİN GEDİŞİ | YEKUN RƏYİ |
|---|---|---|
| SOSİAL YARDIM | | |
| PSİXOLOJİ YARDIM | | |
| PEŞƏ YARDIMI | | |

Mən_______________________________________________ yazıb Sizdən xahiş edirəm ki, hazırda reabilitasiya dövrünü başa vurduğum üçün sığınacağı könüllü tərk etməyim üçün razılıq verəsiniz.

Sığınacaqda qaldığım dövrdə aşağıdakı xidmətlərlə bağlı rəyimi qeyd edirəm.

Sosial işçi: ___________________________________________

Tarix: ______________________________________________

ƏLAVƏ 11

# Sığınacağa qəbul üçün öhdəlik

## 1. Ümumi məlumat

SIĞINACAQ- ailələri və yaxınları tərəfindən, yaxud cinayət qurbanı olmuş - fiziki və psixoloji zorakılıq görmüş şəxslərin müvəqqəti yaşaması və reabilitasiyası üçün yaradılmış müəssisədir

## 2. Sığınacağın təqdim etdiyi yardım və xidmətlər

- Qida
- Geyim;
- Tibbi yardım
- Psixoloji yardım
- Hüquqi yardım
- Peşə reabilitasiyası
- Evə yola salma

Sığınacaq sakinlərinin xidmətlərdən bəhrələnməsi, onların reabilitasiya prosesində aktiv iştirakı ilə bağlıdır. Sığınacaqda qaldığınız müddətdə Siz aşağıdakı reabilitasiya sxeminə riayət etməlisiniz.

## 3. Reabilitasiya prosesinin sxemi

### Mərhələ 1.

Sığınacaqda reabilitasya müddəti **1 aydan 3 aya**dəkdir.

1 ci həftə həftə sınaq dövrüdür. Bir həftə ərzində şəxsin sağlamlığı və psixoloji vəziyyəti ilə bağlı müayinənin aparılması nəzərdə tutulur;

2-ci həftə ehtiyacların qiymətləndirilməsi dövrü. Bu dövr sosial işçi şəxslə birgə işləyir və ehtiyacları qiymətləndirir. Sosial işçinin qiymətləndirilməsi əsasında ehtiyaclara uyğun mütəxəssisə istiqamətləndirir. Fərdi plan hazırlanır.

3-6 –cı həftə hüquqşünas və psixoloq şəxslə fərdi plana uyğun olaraq yardımlar göstərir.

7-ci həftə təkrar ehtiyacların qiymətləndirilməsi.

8-ci həftə mütəxəssislərin rəyinin toplanması, ailə ilə iş.

9-12 – cı həftə reinteqrasiya dövrünə hazırlıq. Ailə ilə işin yekunlaşlması və s. son qərar.

Xidmətlərə – hüquqi, psixoloji, ailə ilə görüş, uşaqların ehtiyaclarının həlli aiddir.Birinci addımda mütəxəssisin bütün tapşırıqları reabilitasiya prosesində iştiraka razılıq verən sakin tərəfindən dəqiq icra edilir. Şəxs reabilitasiya prosesində mütəxəssislə birgə bütün qərarları bərabər verir.

### Mərhələ 2.

Hamilə və yeni körpəsi olan qadınlar üçün sığınacaqda qalma müddəti **12 aydan 18 aya**dək nəzərdə tutulur. Bu müddət ərzində sığınacaqda məskunlaşmış şəxsin övladının sənədlərinin alınması və digər problemlərin həlli həyata keçirilir.

### Mərhələ 3.

Reabilitasiya müddətini bitirmiş sakinlər **(1-3 ay)** reinteqrasiya dövrünə təkrar ərizə ilə daxil olur. Reinteqrasiya dövrünə aşağıdakılar daxilidr:

- Ailəyə qayıdış;
- peşə kurslarında iştirak (2 ay) bu müddət şəxs psixoloqun iştirakı ilə seçdiyi peşə kurslarında qanunun tələblərinə uyğun iştrak edir. Peşə kursları Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məşğulluq Mərkəzində keçirilir. Şəxs mütamadi bu kurslarda davamlı iştirak etməlidir.
- peşə kurlarını bitməsinə bir həftə müddət qaldıqda, şəxsin əmək fəaliyyəti ilə məşğul olacaq yer müəyyən edilir.
- 2 ay əmək fəaliyyəti müddəti şəxsin müstəqil yaşaması üçün kapital toplanışı dövrüdür. Yəni, şəxs qazancını toplayaraq müstəqil həyata qədəm qoyur. Bu müddət ərzində, psixoloq şəxsin müstəqil həyata adaptasiya dövrünə hazırlayır. Hüquqşünas isə sənədlərinin tam hazır olması ilə bağlı qərar verir.

Peşə reabilitasiya seçimindən imtina edənlər ərizəsi alınır dərhal əmək faəliyyətinə başlayır.

### Addım 4.

Monitorinq mərhələsi **3 ay** nəzərdə tutulur. Sığınacağı tərk etmiş şəxs monitorinqin həyata keçirilməsi üçün razılıq ərizəsi verir. Birinci ay **–4 dəfə, 2 ay -2 dəfə**, **3 ay–1 dəfə** şəxsin reinteqrasiya dövrü monitorinq edilir.

## 4. Sığınacaq sakinlərinin öhdəlikləri

Sığınacaq sakinləri özlərinə, sığınacaqda çalışan personala və sığınacaqdakı digər sakinlərə qarşı müəyyən edilmiş davranışları icra etməyə borcludur;

Siz, sığınacaq Qaydalarının sürətini əldə edib, bu qaydalar müsahibə keçirən şəxslə birgə nəzərdən keçirə bilərsiniz. Hər bir qayda fərdi olaraq təfərrüatı ilə şərh edilməlidir.

Sosial işçi, Sizinlə öhdəlikləri anladığınızı yəqinləşdirməlidir.

Yuxarıda qeyd edilən bütün şərtlərlə razısınızsa, bu müqaviləni imzalayın.

***Biz ümid edirik ki, Sıgınacaqda keçirəcəyiniz müddət xoş və faydalı olacaqdır.***

Mənə ______________________________________ reabilitasiya və reinteqrasiya prosesinin şərtləri barədə məlumat verildi. Mən onlara əməl etməyə hazıram. Mən başa düşürəm ki, müqavilə qaydalarına əməl etməmək, bu müqavilənin ləğv olunmasına gətirib çixara bilər.

İmza: __________________________________________

Tarix: __________________________________________

Sosial işçi: _____________________________________

ƏLAVƏ 12

# Supervayzerin alətləri

### *Sessiyanın başlanğıcı*

Bizim son görüşümüzdən sonra nələr baş verib?
Siz nəyi müzakirə etmək istərdiniz?
Nə yeniliklər var?
Biz görüşmədiyimiz müddətdə vacib nəsə baş veribmi?

### *İşin mahiyyəti*

Sizin fikrinizcə, problem nə ilə əlaqədardır?
Sizə nə mane olur?
Sizin əsas çətinlikləriniz nədir?
Sizi daha çox nə narahat edir?
Siz-nə-istəyirsiniz?

### *Səbəb-nəticə əlaqəsi*

Bəs bunun səbəbi nə idi?
Bu vəziyyətə nə gətirib çıxardı?

### *Müfəssələşdirmə*

Ətraflı danışa bilərsiniz....?
Ya daha nəsə?
Bu barədə daha nə fikirləşirsiniz?

### *Təhlil*

Necə?
Bu, sizin dəyərlərə / plana / həyat tərzinizə uyğundurmu?
Sizin fikrinizcə, bu nə deməkdir?
Sizcə bu mümkündürmü?

### *Kənardan baxış*

Təsəvvür edin ki, sizin 95 yaşınız var. Siz keçmiş həyatınız barədə nə deyərdiniz?
Siz 5 ildən sonra bütün bunları necə xatırlayacaqsınız?
Bunun sizin həyat məqsədinizlə nə əlaqəsi var?

### *Hipotetik vəziyyət*

Əgər N qədər gün geri qayıda bilsəydiniz, nəyi başqa cür edərdiniz?
Əgər hər şeyə icazə verilsəydi siz nə edərdiniz?

### *Nəticələr*

Nə istəyirsiniz?
Nəticədə nə gözləyirsiniz?
Bu sizə nə verəcək?
Siz öz istəyinizə çatdığınızı necə bildiniz ?
Məqsədiniz nədən ibarətdir?

***Variantlar***

Fəaliyyətin inkişafının mümkün variantları?
Siz bu qərarı qəbul etsəniz nə baş verəcək?

***Araşdırma***

Gəlin biraz da bu məsələnin üzərində duraq...
Bu məsələ ilə bağlı “breynstorminq” keçirmək istəyirsiniz?
Bu məsələnin ayırd etmədiyiniz müəyyən başqa tərəfləri də varmı?
Hansı-alternativləriniz-vardır?

***İcra***

Bunun üçün nə etmək lazımdır?
.... üçün sizə hansı kömək lazımdır?
Nə edəcəksiniz?
Necə hərəkət edəcəksiniz?
Fəaliyyət planınız nələrdən ibarətdir?

***Təlim***

Oxşar şey təkrarlansaydı nə edərdiniz?
Hər şeyi əvvəldən başlamaq mümkün olsaydı nə edərdiniz?
Heç nə sizin qərarlarınıza təsir etməsəydi nə edərdiniz?

***Qiymətləndirilmə***

Siz bunu necə qiymətləndirirsiniz?
Siz buna nə deyirsiniz?

***Yekunlaşdırma***

Nə nəticə çıxardınız?
Siz situasiyanı necə xarakterizə edərdiniz?
Sizin fikrinizcə, bütün bunlar nə deməkdir?
Öz fəaliyyətinizi qısaca xarakterizə edin.

***İnteqrasiya***

Nə öyrənmisiniz?
Siz bu bilikləri necə qoruya  bilərsiniz?
Bunların hamısını bir tam şəklinə necə salmaq olar ?

## Superviziyaya şəxsi hazırlıq blankı

1. Mən  özümü bugün, elə indi necə hiss edirəm? Həftə/ay necə keçdi?
2. Mən bizim bugünkü sessiyadan nə götürmək istərdim?
3. Bizim sonuncu superviziyadan keçən müddət ərzində nə etmişəm?
4. Mənim nailiyyətlərim hansılardır?
5. Mən nəyin hesabatını verməliyəm? Nəyə görə mən məsuliyyəti öz üzərimə götürürəm?
6. Bugün mənə danışmaq üçün hansı sahələrdə bilik, nailiyyətlər, tələblər, lazımdır?

ƏLAVƏ 13

# Məktub (göndəriş) nümunəsi

**Göndəriş №_______**

**Azərbaycan Respublikası**

**Səhiyyə Nazirliyi**

**5 saylı yoluxucu xəstəxana**

**GÖNDƏRİŞ**

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 4 avqust 2005-ci il tarixli Fərmanına əsasən təsdiq olunmuş müvafiq dövlət qurumlarının qarşısında ciddi vəzifələr qoyulmuşdur. Belə ki, bir neçə qurumla birgə Səhiyyə Nazirliyi də insan alveri və potensial qurbanlara xidmətin göstərilməsində mühüm rol oynamalıdırlar.

İnsan alverinə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunun 15.1 bəndində insan alveri qurbanlarının sosial reabilitasiyası, normal həyat tərzinə qaytarılması məqsədi ilə onların tibbi reabilitasiyası üçün tədbirlər görülməsi imkanlarından istifadə edilməsini nəzərdə tutulur. Bu baxımdan:

Potensial qurbanı ________________________________________________

________________________________________________

________________________________________________

Sizdən xahiş edilrik ki, onun tibbi müayinədən keçməsinə yardım edəsiniz.

İAQMS direktoru: ________________________________________

(A.A.S.)

Tarix: "_____" _________________2011